Xalqın qəzeti!
# Xalq qəzeti
№ 158 (30852) 1 avqust 2025-ci il, cümə
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Ana dilimiz xalqımızın mənəvi Vətənidir



*“Əsrlər boyu bizi xalq kimi, millət kimi qoruyub saxlayan bizim ana dilimizdir, Azərbaycan dilidir. Azərbaycan dilinin qorunması hamımızın vəzifəsidir”.*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

## Prezident İlham Əliyevin siyasi təcrübəsində milli ideya və suverenlik



### Siyasi təcrübə, milli ideya və suverenlik

Vurğuladığımız kimi, ümumi olaraq liderin siyasi təcrübəsi ilə milli ideya və suverenliyin qarşılıqlı əlaqəsi şübhə doğurmur. Lakin məsələ konkret dövlətə aid olduqda nəzəri araşdırma üçün xeyli problemlər meydana çıxır. O cümlədən, hər hansı tarixi dönəmdə liderin siyasi təcrübəsi kontekstində milli ideya–suverenlik əlaqəsi mənzərəsinin dərki çox aktuallaşır. Henri Kissincerin gəldiyi qənaətə görə, bu məsələ dövlət üçün xüsusi keçid mərhələlərində başqalarından fərqli məzmun ala bilər. İkinci tezisin “Prezidentin siyasi təcrübəsi milli ideya-suverenlik qarşılıqlı əlaqəsinin keyfiyyətcə yeni mərhələyə yüksəlməsində başlıca faktor oldu” kimi ifadə edilməsi bu aspektdə olduqca əhəmiyyətlidir. Bu tezisi əsaslandirmaq üçün öncə H.Kissincerin məqalənin mövzusuna nəzəri olaraq ciddi aidiyyatı olan bir neçə fikrinə baxaq.

Henri Kssincer 2022-ci ildə qələmə aldığı “Altı dünya strategiyası” adlı əsərində yazırdı: elə liderlər vardır ki, “milli məqsədləri yenidən müəyyən edirlər”. Onlar adətən ölkənin hansısa ciddi böhrandan sonra yeni mərhələyə keçidi zamanı bunu həyata keçirirlər. Nümunə kimi H.Kissincer II Dünya müharibəsindən sonra Almaniya (K.Adenauer), Fransa (Ş.de Qoll), Böyük Britaniyanı (M.Tetçer) təhlil edir. Paralel olaraq ABŞ (R.Nikson), Misir (Ənvər Sadat), Sinqapur (Li Kuan Yu) nümunələrini araşdırır.

*(ardı 6-cı səhifədə)*

## 6 ayda 1,8 milyard dollarlıq qeyri-neft məhsulları ixrac olunub



səhifə ⇨ 7

## Dövriyyəyə təşviş və həyəcan buraxılır



*Rusiyanın Gümrüdəki 102-ci hərbi bazası ilə bağlı ajiotaj daxili auditoriyaya hesablanmış yalandır*

**Yalanı həqiqət libasına bürüyüb ictimai rəyə sırımaq hayların köhnə metodlarından biridir. Onlar şayiə və ziddiyyətli məlumatlarla manipulyasiyanı siyasi alətə çevirməyi çoxdan sınaqdan çıxarıblar.**

Rusiyanın Ermənistan və Azərbaycanla münasibətlərindəki soyumanın fonunda Gümrüdəki 102 saylı hərbi bazanın aqibəti ilə bağlı mövzunun növbəti dəfə dövriyyəyə buraxılması heç də təsadüfi deyil.

ardı səhifə ⇨ 3

## Müxalifət – zəif, iqtidar – inamlı





səhifə ⇨ 5

## Azərbaycan Dövlət İnformasiya Agentliyi – AZƏRTAC-ın bəyanatı

AZƏRTAC

səhifə ⇨ 3

səhifə ⇨ 4



## Zəngəzur dəhlizi – yeni qlobal düzən və Azərbaycanın haqqı

## Şəki hamamları da canlı tarixdir



səhifə ⇨ 10

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Dövlət Tərcümə Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 28 fevral tarixli 1847 nömrəli, "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 6 iyun tarixli 119 nömrəli, "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2018-ci il 1 noyabr tarixli 323 nömrəli və "Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı"nın təsdiq edilməsi haqqında" 2020-ci il 30 iyul tarixli 1119 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Dövlət Tərcümə Mərkəzinin və Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 21 noyabr tarixli 368 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

**1** "Azərbaycan Dövlət Tərcümə Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 fevral tarixli 1847 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 211 (Cild I) 1-ci hissəsi ləğv edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1209 (Cild I); 2024, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 3.1.40-1-ci və 3.1.40-2-ci yarımbəndlər əlavə edilsin:

"3.1.40-1. müvafiq sahədə Azərbaycan dilinin tətbiqinə, Azərbaycan dili haqqında normativ hüquqi aktlara, o cümlədən Azərbaycan dilinin normalarına əməl olunmasına nəzarəti həyata keçirmək;

3.1.40-2. Azərbaycan dilinin inkişafının təmin edilməsi, habelə Azərbaycan ədəbiyyatının xaricdə, xarici ədəbiyyatın Azərbaycan Respublikasında tanıdılması və təbliği işini həyata keçirmək;".

**3** "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 noyabr tarixli 323 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 11, maddə 2236 (Cild I); 2024, № 5 (I kitab), maddə 529) 2-ci hissəsi ləğv edilsin.

**4** Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1119 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 899 (Cild I); 2024, № 4, maddə 373, № 6 (I kitab), maddələr 654, 675, № 8, maddə 948; 2025, № 1, maddə 29, № 3, maddə 224) ilə təsdiq edilmiş "Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı"nın 9-cu və 24-cü hissələri ləğv edilsin.

**5.** Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 iyun tarixli 506 nömrəli Fərmanı ilə yaradılmış Azərbaycan Respublikası Dövlət Dil Komissiyasının yeni tərkibi ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 31 iyul 2025-ci il**

# Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 aprel tarixli 25 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 aprel tarixli 25 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 4, maddə 372; 2025, № 1, maddə 28) ilə təsdiq edilmiş "Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi"nin 4-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 4.20-ci bəndin üçüncü cümləsində "bir" sözü "3 (üç)" sözləri ilə əvəz edilsin;

1.2. 4.21-ci bənddə "müavini" sözü "müavinlərindən biri" sözləri ilə əvəz edilsin;

1.3. 4.22-ci bənddə "müavini" sözü "müavinləri" sözü ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 31 iyul 2025-ci il**

# Azərbaycan–Macarıstan iqtisadi komissiyasının iclasına hazırlıq



**Sentyabrda Budapeştdə Azərbaycan-Macarıstan Hökumətlərarası İqtisadi Əməkdaşlıq üzrə birgə Komissiyanın 11-ci iclası keçiriləcək.**

Bu barədə maliyyə naziri, Komissiyanın həmsədri Sahil Babayevin Macarıstanın ölkədəki fövqəladə və səlahiyyətli səfiri Tamaş Yojef Tormanı ilə keçirdiyi görüşdə bildirilib. Görüş zamanı Komissiyanın iclasına hazırlıq məsələləri müzakirə olunub.

S.Babayev Komissiyanın növbəti iclasının Azərbaycan və Macarıstan arasında ikitərəfli əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri, xüsusilə iki ölkənin ticarət, energetika, əmək, məşğulluq və sosial müdafiə və digər sahələrdə genişləndirilməsi baxımından məhsuldar olacağına əminliyini ifadə edib.

***XQ***

# Audiovizual müsabiqə başa çatıb

**Medianın İnkişafı Agentliyi və Audiovizual Şura tərəfindən yeni media mühitində auditoriyayönümlü və hədəf kütlələrə hesablanmış məzmun istehsalı və yayımının təşviqi, maarifləndirici materialların rəqabətədavamlılığının artırılması, məzmun müxtəlifliyi və yaradıcılığının stimullaşdırılması, dövlət və cəmiyyət üçün prioritet istiqamətlər barədə məlumatların ictimaiyyətə səmərəli şəkildə çatdırılması məqsədilə mayın 23-də elan olunmuş dövlət sifarişi əsasında audiovizual məhsulların istehsalı və yayımı üzrə müsabiqənin nəticələri açıqlanıb.**







MEDİA-dan bildirilib ki, AzTV, Space TV, ATV, Xəzər TV, ARB TV, ARB24 və Real TV televiziya kanalları proqram kateqoriyasında qalib olub. Sosial videoçarx kateqoriyasında isə AzTV, ATV və ARB24 televiziya kanalları uğur qazanıb.

***XQ***

# Bakı–Ələt–Qazax–Gürcüstanla dövlət sərhədi magistralını Kürdəmir rayonunun Sığırlı, Ərşəli, Muğanlı, Xınıslı kəndləri və Karrar qəsəbəsi ilə birləşdirən avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** Bakı–Ələt–Qazax–Gürcüstanla dövlət sərhədi magistralını on iki min nəfər əhalinin yaşadığı Sığırlı, Ərşəli, Muğanlı, Xınıslı kəndləri və Karrar qəsəbəsi ilə birləşdirən avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1,5 milyon (bir milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yollarının əsaslı təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

**4** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 31 iyul 2025-ci il**

# Hikmət Hacıyev Ukrayna səfiri ilə görüşdü



**Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ukrayna səfiri Yuri Qusevlə görüşüb.**

Bu barədə səfir "X"də yazıb.

Məlumata görə, görüş çərçivəsində iki ölkə arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi yolları müzakirə edilib.

"Ukraynaya davamlı dəstəyə və həmrəyliyə görə Azərbaycana minnətdaram",- deyə Y.Qusev vurğulayıb.

***XQ***

# Azərbaycan–Səudiyyə Ərəbistanı turizm müzakirəsi

**İyulun 31-də Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyevlə Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdəki səfiri İssam bin Saleh əl-Cuteyli arasında görüş keçirilib.**



Tərəflər ikitərəfli münasibətlərin gücləndirilməsində turizmin əhəmiyyətini vurğulayıblar. Eləcə də turizm sahəsində əməkdaşlıq imkanları haqqında fikir mübadiləsi aparılıb.

Səfir İssam bin Saleh əl-Cuteyli Səudiyyə Ərəbistanı Krallığının turizm naziri və BMT Turizm Təşkilatının Baş katibi adından Dövlət Turizm Agentliyinin sədrini 2025-ci ilin noyabrın 7-11-də Ər-Riyad şəhərində keçiriləcək BMT Turizm Təşkilatının Baş Assambleyasının 26-cı sessiyasında iştiraka dəvət edib.

***XQ***

# Kəlbəcərdə zəlzələ olub

**Daşkəsən stansiyasından 31 km cənub-qərbdə Kəlbəcər rayonunda zəlzələ qeydə alınıb.**



Respublika Seysmoloji Xidmət Mərkəzindən verilən məlumata əsasən, yerli vaxtla saa 00:13-də qeydə alınan zəlzələnin maqnitudası 3 olub.

Zəlzələ ocağı Yerin 10 km dərinliyində yerləşib. Zəlzələ hiss olunmayıb.

# Dövriyyəyə təşviş və həyəcan buraxılır

(əvvəli 1-ci səhifədə)

"Hraparak" nəşrinin mənbəyini, guya, Ukrayna xüsusi xidmət orqanlarından götürdüyü ehtimal edilən informasiyasında laması ilə Qukasyanın kriminal keçmişinə və onun oğru mühitlə əlaqələrinə eyham vurub. Müxalifət dairələri belə bir versiya irəli sürüblər ki, Paşinyan Qukasyanı həbs etmək üçün hansısa plan hazırlayır. Baxölkədən çıxarılması ilə bağlı çağırışlar səslənir, amma hakimiyyət bu məsələnin gündəmdə olmadığını və müzakirə olunmadığını vurğulayır.




Rusiyanın 102-ci bazanı gücləndirmək üçün yeni texnika və heyəti Gümrüyə gətirdiyi qeyd olunur. Bu feyk-informasiyanın məhz indi, Əbu-Dabidə Bakı ilə İrəvan arasında birbaşa danışıqlar və ABŞ-ın Zəngəzur dəhlizi üzrə planının müzakirə olunduğu məqamda ortaya atılması bir neçə məqsədə xidmət edir. Ermənistan hakimiyyəti dünənədək 102-ci baza ilə bağlı ehtiyatlı mövqe nümayiş etdirsə də, Ukrayna kəşfiyyatının ardınca rusiyayönlü dairələrin qərəzli mövqe nümayiş etdirdiyi Ermənistanın "Hraparak" qəzeti Gümrüyə silah və hərbi texnikanın intensiv şəkildə daşınması xəbərini manşetə çıxarıb. Nəşrin yazdığına görə, Rusiyanın bir neçə hərbi nəqliyyat təyyarəsi hər gün Şirak hava limanına (Gümrüdən beş kilometr aralıda yerləşir–red.) enir. Onlardan boşaldılan yüzlərlə tank, digər zirehli texnika və sursat 102-ci bazaya çatdırılır. Amma bu məlumata nə Ermənistan hökuməti, nə Müdafiə Nazirliyi, nə də Rusiya tərəfi rəsmi şərh verməyə tələsmir.

Ermənistan hakimiyyətinə bağlı olan "Baqramyan 26" Teleqram kanalı "Hraparak"ı saxta məlumat yaymaqda ittiham edib. Maraqlıdır ki, hətta Rusiya xüsusi xidmət orqanları ilə əlaqələri şübhə doğurmayan erməni bloger Mika Badalyan 102-ci bazaya "yüzlərlə tank"ın gətirilməsi xəbərlərini təkzib edib. Bu arada "Moskovski Komsomolets" qəzeti yazır ki, Gümrüdəki hərbi bazaya böyük miqdarda texnikanın ötürülməsi ilə bağlı şayiələr Ukrayna mənbələrindən gəlir: "Onlar hələ iyulun əvvəlində Ukrayna hərbi kəşfiyyatına istinad edərək, 102-ci bazanın gücləndirilməsi barədə rəvayətləri təbliğ etməyə başlayıblar".

Fakt odur ki 102-ci bazaya silah-sursat və texnikanın verilməsinə dair heç bir sənəd-sübut ortaya qoyulmadan yayılan feyk-xəbərlər hay cəmiyyətində əmdəli-başlı ajiotaj yaradıb. Ermənistanın iqtidaryönlü informasiya resursları qərbyönlü kursun tərəfdarlarının Rusiyanın Ermənistandakı hərbi mövcudluğuna qarşı və ölkənin KTMT-dən çıxmaq təşəbbüsünü dəstəkləyən hərəkətlərini açıqlayıb. Artıq cəmiyyətdə etiraz aksiyalarının başlanması barədə şayiələr dolaşmaqdadır. Etirazların avqustun 23-də, Ermənistanın müstəqilliyini bərpa etdiyi gün Gümrüdə keçirilməsi planlaşdırılır. Mitinqdə 102-ci bazanın Ermənistan ərazisindən çıxarılması ilə bağlı çağırışların səslənəcəyi gözlənilir.

***

Özünün kriminal keçmişi ilə tanınan və "Ermənistanın Rusiya ilə ittifaq dövlətinə birləşdirilməsinin" tərəfdarı olan Gümrü şəhərinin meri Vardan Qukasyanın mütəmadi olaraq 102-ci bazanın komandanlığı ilə görüşdüyü və məsləhətləşdiyi də yayılan informasiyalarda yer alır. Hətta onu da yazırlar ki, iyunun ortalarında Gümrüyə güclü yağış və dolu düşəndən sonra hərbi hissənin komandiri, general Aleksandr Bezborodov vitse-mer Qaqik Manukyana zəng vurub kömək təklif edib.

Baş verənlərə Nikol Paşinyanın reaksiyası maraq doğurur. İyulun 28-də Gümrü meriyasının binası qarşısında Vardan Qukasyanın şəhər meri seçilməsinin 100-cü gününə həsr olunmuş toplantı keçirilib. Üç gün əvvəl isə sosial şəbəkələrdə həmin toplantının videosu yayılıb. Videogörüntülərdən məlum olur ki, ətrafına yüzlərlə insanın toplaşdığı şəhərin mərkəzindəki musiqili fəvvarənin üzərində sovet dövrünün məşhur kriminal şansonu "Oğruların payı" («Доля воровская») səsləndirilib.

Sovetlərin kriminal aləminin "mədəniyyətini" kimin təbliğ etdiyi hələ də sirr olaraq qalır. Amma baş nazir Nikol Paşinyan iyulun 28-də "Facebook" səhifəsində insidentə birmənalı şəkildə cavab verib: "Oğru həbsxanada oturmalıdır, fəvvarə ilə oynamamalıdır! Dünya III Dünya müharibəsinin astanasındadır, onlar isə "Oğruların payı"nı müzakirə edirlər".

Aydın məsələdir ki, Paşinyan bu açıqmayaraq ki, ruspərəst mer mətbuat konfransında kriminal şansonu "hakim partiya"nın maxinasiyası və eyhamı kimi izah edib. Mika Badalyan da daxil olmaqla, rusiyayönlü bloqerlər dərhal Vardan Qukasyanın müdafiəsinə qalxıblar.

Ekspertlər bildirirlər ki, Rusiyanın Gümrüdəki hərbi bazasına qarşı kampaniya geniş vüsət alır və "Ermənistanın baş naziri Nikol Paşinyan da şəxsən ona qoşulub". Hadisələrin hansı ssenari üzrə inkişaf edəcəyini söyləmək çətin olsa da, Ermənistanın KTMT-dən çıxmasının qaçılmaz prosesə çevrildiyini deyə bilərik. Bununla belə, Ermənistan hakimiyyəti 102-ci baza ilə bağlı ehtiyatlı mövqe nümayiş etdirməkdə davam edir. Doğrudur, hərdən hökumət dairələrində bu bazanın

## Ekspert rəyi



**Fuad ABDULLAYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi**

– Əvvəlcə onu demək istərdik ki, 102 saylı hərbi baza məsələsi daha çox Ermənistanın daxilində baş verən proseslər və İrəvanın xarici siyasəti ilə bağlıdır. Rusiyanın Gümrüdəki hərbi kontingentinin ölkədən çıxarılması mövzusu, adətən, daxildə müxalif qüvvələrin fəallaşması fonunda baş verir. Bu məsələ Qərbə meyilli dairələr və hakimiyyətə yaxın ekspert cameəsi tərəfindən gündəmə gətirilir. Sonuncu dəfə cari ilin iyununda aktiv müzakirəsi başlanılan bu mövzunun Rusiyadan bazaya silahların daşınması qədər genişləndirilməsi heç də təsadüfi deyil. Avqustun 23-də Gümrüdə etiraz aksiyası keçirməyə hazırlaşan Respublika Naminə Partiyası iyunun əvvəlində həmin bazanın Ermənistan ərazisindən çıxarılması barədə imzatoplama təşəbbüsü ilə çıxış edib.

Hazırda təşəbbüs internet platformasında həyata keçirilir. Rəsmi İrəvana qarşı müxtəlif tələblərin yer aldığı təşəbbüsdə 102 saylı hərbi bazanın mərhələli şəkildə ölkədən çıxarılması təklifi də var. Eləcə də Rusiyanın Ermənistanda hüquqi mövcudluğunu təmin edən müqavilələrə yenidən baxılması da tələb olunur. Yəni, ölkənin gələcəyinin də güzünə qurulması strategiyası irəli sürülür. Respublika Naminə partiyasının sədr müavini Ruben Mehrabyan bəyan edib ki, Rusiyanın hərbi mövcudluğu Ermənistan üçün birbaşa təhlükə yaratdığına görə, bu hərbi qüvvələr ölkədən çıxarılmalıdır. O, həmçinin, bu kontingentin hələ də ölkə ərazisində qalmasının Ermənistanın beynəlxalq imicinə ciddi zərər vurduğunu bildirib.

Ermənistanın Avropa İttifaqına qəbulu ilə bağlı 2024-cü il sentyabrın 16-da başlanan imzatoplama təşəbbüsü də məhz qərbyönümlü qüvvələr tərəfindən irəli sürülüb və həyata keçirilir. İstisna edilmir ki, rəsmi İrəvan Bakı ilə sülh müqaviləsinin imzalanacağı və sərhədlərin açılacağı ehtimalını nəzərə alaraq, Rusiya hərbi bazasının ölkədən çıxarılmasına dair ictimai rəyi öyrənmək niyyətindədir. Bu fikri bəzi erməni ekspertlər də paylaşırlar. Bütün bu kampaniyanı 2026-cı ildə keçiriləcək parlament seçkilərinə hazırlıq mərhələsi kimi qəbul edənlər də var. O ki qaldı Rusiyadan Gümrüyə silah daşınmasına, bunun rəsmi təsdiqi yoxdur. Əgər bu versiya təsdiqini taparsa, təbii ki, bunu regionda sülhə yönəlik prosesə narahatlıq yaradan amil kimi qiymətləndirmək olar.

## Ekspert rəyi



**Arzu NAĞIYEV,**
**Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri**

– Son günlər Rusiya Federasiyasının Ermənistanın Gümrü şəhərində yerləşən 102 saylı hərbi bazası ətrafında müxtəlif xarakterli məlumatlar yayılır. Əsas məqam odur ki, bu bazaya Rusiyadan hərbi texnikanın gətirilməsi və kontingentin artırılması ilə bağlı xəbərlər tirajlanmaqdadır. Məlumdur ki, 1995-ci ildən Gümrüdə düslokasiya edilmiş bu hərbi baza Ermənistan ərazisində tam fəaliyyətdədir. Bazanın saxlanılmasında əsas məqsədin, guya, Cənubi Qafqazda cərəyan edən hərbi hərəkatlara nəzarət etmək, həm də Ermənistan–Türkiyə sərhədinə Rusiya–NATO sərhədi kimi baxıldığına görə, bu ərazidə hərbi kontingentin olmasının vacibliyidir. Maraqlıdır ki, bu xarakterli xəbərləri hökumətə yaxın "Hraparak" qəzeti yayır. Elə məlum ajiotajı yaradan da bu tip mətbu nəşrlərdir. Aydın məsələdir ki, bunlar təbliğat məqsədilə yayılan feyk-informasiyalardır. Buna görə onlara bir neçə aspektdən yanaşmaq lazımdır. Rusiyadan 102 saylı bazaya hərbi texnikanın gətirildiyini hansısa ekspertin təsdiqləyici məlumatına rast gəlinmir. Diqqəti çəkən digər məsələ bu xəbərlərin Ukrayna resursları və Ermənistan hökumətinə bağlı mənbələr tərəfindən yayılmasıdır. Bu mənbələr müəyyən maraqları güdürlər. Eyni zamanda, süni ajiotaj Ermənistan daxilində siyasi mübarizənin görüntüsü ola bilər. Parlament seçkiləri yaxınlaşdıqca avropapərəst qüvvələr daha da fəallaşır və bu kontekstdə hərbi baza ətrafında qaldırılan səs-küyün rusmeyilli seçicilərə təsir mexanizmi kimi də düşünülə bilər. Təbii ki, bu, diskussiyaya səbəb olan məsələdir. Gümrüdə avqustun 23-nə planlaşdırılan mitinqdə, çox güman ki, 102 saylı bazanın Ermənistan ərazisindən çıxarılması tələbi də qoyulacaq. Bir daha qeyd etmək istərdim ki, bu bazaya əlavə sursat və canlı qüvvənin gətirilməsi nə peyk nəzarəti sistemləri, nə də digər mənbə vasitəsilə təsdiqlənir. Bu zaman Rusiyanın Ermənistanı Azərbaycanla yeni müharibəyə hazırladığı barədə deyilənlər də feyk-xəbərlər, ehtimallardır. Belə taktikadan informasiya savaşında, hibrid mübarizədə istifadə olunur. Bu isə Ermənistan daxilində gedən siyasi proseslərə təsir etmək üçün düşünülüb.

Azərbaycan özünün müstəqil xarici siyasətini yürüdür. Ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə qarşı ola biləcək təhdidlərin qarşısının alınması istiqamətində hər cür təhlil və analizlər aparılır. Ermənistanda Qərbə meyilli qüvvələrin yaratdığı ajiotajın isə avqustun sonunda başa çatacağını düşünürük.

***

Məlum həqiqət isə ondan ibarətdir ki, gələn ilin yayında keçiriləcək parlament seçkiləri fonunda Ermənistan hakimiyyəti ruspərəst qüvvələri, eksləri təqib etməyə, o cümlədən erməni kilsəsinin institutlarına hücumları kəskinləşdirməyə başlayıb. Kremlin yaxın dostu milyarder-oliqarx Samvel Karapetyan İrəvanda həbs edilib, silahlı qiyam hazırlamaqda ittiham olunan bir sıra din xadimləri və bir çox ruspərəst şəxslər içəri salınıb. Həbsxanada da dinc durmayan Karapetyan hərəkat yaratdığını elan edib və onun rusiyayönlü qüvvələrin alyansının yeni lideri ola biləcəyi ilə bağlı müzakirələr gedir.

Sözün qısası, daxili və xarici siyasi təzyiq və tələtümlərlə üz-üzə qalmış Ermənistan hakimiyyəti vəziyyətdən çıxmaq, qarşıdakı seçkiləri qazanmaq üçün bütün mümkün üsullardan istifadə etməyə qərar verib. Bu zaman, o, cəmiyyətdə təşviş və ajiotaj yaratmaqdan belə çəkinmir...

***İmran BƏDİRXANLI***
***XQ***

**Rusiya Prezidentinin beynəlxalq mədəniyyət əməkdaşlığı üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy ilk dəfə deyil ki, müvafiq tapşırıq əsasında anti-Azərbaycan kampanıyasına qoşulur.**

Bunu Rusiya Prezidentinin xüsusi nümayəndəsi Mixail Şvıdkoyun Ayvazovskinin büstünün sökülməsi məsələsinə dair açıqlaması və TASS informasiya agentliyi tərəfindən Azərbaycanın Xankəndi şəhərinin "Stepanakert" adlandırılması ilə bağlı Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə yerli mətbuatın suallarına cavabında deyib.

# Ayvazovskinin büstünün Azərbaycanın icazəsi olmadan torpaqlarımızda quraşdırılması qanunsuz idi

anti-Azərbaycan tədbirləri və açıqlamaları davam edərsə, Azərbaycanla Rusiya arasında qeyd edilən dispaitetə düzəlişlər edilməsi istisna olunmur.

Cənab Şvıdkoyun bu yaxınlarda Azərbaycanın işğaldan azad edilmiş ərazilərində, Şuşada olan zaman Natəvan, Üzeyir Hacıbəyli, Bülbül və Azərbaycanın digər mədəniyyət xadimlərinin abidələrinə qarşı



vandallıqlar, habelə Azərbaycan ərazisində törədilmiş dağıntılarla tanış olarkən cəsarət tapıb bu halları pisləyən açıqlamalar verməməsi təəssüf doğurur.

Rusiya Federasiyasının rəsmi dövlət agentliyi olan TASS-da Azərbaycanın Xankəndi şəhərinin "Stepanakert" adlandırılması ölkəmizin ərazi bütövlüyünə hörmətsizlik və təhqiramiz addım kimi qiymətləndirilir.

Bu qeyri-dost addımla bağlı Rusiya tərəfinə xatırlatmaq istərdik ki, hələ 1923-cü ildə Azərbaycanın əzəli torpaqlarında yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayətində Xankəndi şəhərinin adının qanunsuz olaraq dəyişdirilərək Azərbaycan xalqına qarşı daşnak ermənilərlə birgə qırğınlar törətmiş bolşevik Stepan Şaumyanın şərəfinə "Stepanakert" adlandırılması Azərbaycana qarşı həqarət idi.

Rusiya tərəfinə bildirmək istərdik ki, onun rəsmi orqanları tərəfindən Azərbaycan toponimlərinin təhrif olunması və ərazilərimizin keçmiş separatçı qondarma rejim tərəfindən istifadə olunan adlarla qeyd olunması hallarına son qoyulmasını gözləyirik. Bu kimi hallar təkrarlanarsa, qarşılıqlıq prinsipindən irəli gələrək Azərbaycan tərəfi də Rusiya ərazisində bir çox yaşayış yerini öz əzəli adları ilə qeyd edə bilər.

TASS informasiya agentliyindən bu məsələdə üzrxahlıq və müvafiq düzəliş edilməsini gözləyirik. Əks təqdirdə, qanunvericiliyə uyğun olaraq, TASS-ın Azərbaycanda fəaliyyətinə qarşı müvafiq tədbirlər görülməsi nəzərdə tutulur".

A.Hacızadə qeyd edib ki, "erməniəsilli rəssam İvan Ayvazovskinin (Hovanes Ayvasyan) büstünün Rusiya sülhməramlıları tərəfindən Azərbaycan tərəfinin icazəsi olmadan torpaqlarımızda quraşdırılması qanunsuz idi. Bu, Azərbaycan Respublikasının suverenliyinə münasibətdə Rusiya tərəfindən hörmətsizliyin təzahürü olub.

Azərbaycan ərazilərinin işğalı zamanı qanunsuz olaraq qoyulmuş hər bir kimi dırnaqarası abidələrin sökülməsi məntiqli, düzgün və qanunauyğundur.

Cənab Şvıdkoyun guya Azərbaycanda Rusiya mədəniyyətinin "ləğv edilməsi" iddiaları növbəti yalandır. Baxmayaraq ki, bu sahədə iki ölkə arasında ciddi dispaitet mövcuddur, Rusiya mədəniyyəti Azərbaycanda heç kim ləğv etməyib. Belə ki, Azərbaycanda rus teatrı, rus dilində məktəblər, rus dilində nəşrlər olduğu halda, Rusiyada Azərbaycan dilində teatr, məktəblər, qəzet və jurnallar mövcud deyil. Bu dispaitetə baxmayaraq, biz Rusiyada Azərbaycan mədəniyyətinin "ləğv edilməsi" iddiası ilə çıxış etmirik. Amma Rusiyanın yüksəkvəzifəli rəsmiləri bilməlidir ki, əgər onların

# Azərbaycan Dövlət İnformasiya Agentliyi – AZƏRTAC-ın bəyanatı

**İyulun 31-də Rusiya Federasiyasının TASS informasiya agentliyi "Stepanakertdə Ayvazovskinin abidəsi söküldü" sərlövhəli xəbər yayıb (https://tass.ru/obschestvo/24675415).**

Elə sərlövhədən də göründüyü kimi, AZƏRTAC-ın uzun onilliklər ərzində daim qoruduğu və yüksək qiymətləndirdiyi mehriban münasibətlər, tərəfdaşlıq və hətta dostluq əlaqələri saxladığı agentliyin rəhbərliyi qəflətən əvvəlki kursunu dəyişib və tarixin zibilxanasına atılmış "Stepanakert" toponimini oradan çıxarıb. Halbuki bu yaxınlaradək agentlik öz xəbərlərində şəhərin rəsmi və tarixi adından – Xankəndidən istifadə edirdi (məsələn, 19 iyul - https://tass.ru/mezhdunarodnaya-panorama/24558165, 24 iyul - https://tass.ru/politika/24602463 və s.). TASS divarları arasında Azərbaycan xalqına yad və köhnə olan adın dirçəldilməsi cəhdi təəccüb doğurur və haqlı sual yaradır: görəsən, son bir həftə ərzində nə dəyişdi ki, Rusiya dövlət informasiya agentliyi keçmiş sovet dövrünə aid bir toponimi "diriltmək" qərarına gəldi?

Xankəndi XVIII əsrin sonunda yaranmış yaşayış məntəqəsinin tarixi adıdır. Azərbaycan dilindən tərcümədə bu, "Xanın kəndi" deməkdir. Xankəndidə İbrahimxəlil xanın malikanəsi yerləşirdi və orada hökmdara məxsus Qarabağ cinsinə aid atlardan ibarət at sürüsü saxlanılırdı.

1923-cü il iyulun 7-də ölkənin bolşevik rəhbərliyi tərəfindən Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) yaradıldıqdan sonra (bu addım öz zamanla partlayacaq mina olmuş və Ermənistan-Azərbaycan inzibati-ərazi bölgüsündə ədalətsizliyin və disbalansın əsasını qoymuşdu) vilayətin inzibati mərkəzi olan Xankəndi şəhəri həmin il avqustun 10-da sovet tarixşünaslığının yazdığı kimi ,"Bakı kommunasının rəhbəri", əslində isə Azərbaycan xalqının qanlı cəlladı olan Stepan Şaumyanın şərəfinə "Stepanakert" adlandırıldı.

1991-ci il noyabrın 26-da Azərbaycan Respublikasının Ali Sovetinin qərarı ilə şəhərə onun əvvəlki tarixi adı qaytarıldı. 2023-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev şəhərin əsas meydanında Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı və son prezident seçkiləri günü – 2024-cü il fevralın 7-də o, bu şəhərdə səs verdi, qutuya atdığı bülleteni "erməni separatçılarının tabutuna vurulmuş son mıx" adlandırdı.

TASS agentliyinin bugünkü xəbərinin sərlövhəsi və mətni Azərbaycan cəmiyyətində təəccüb və hətta hiddət doğurdu. Rusiya dövlət media orqanının rəhbərliyinin əvvəlki kursdan geri çəkilməsi agentliklərimiz və kollektivlərimiz arasında ənənəvi dostluq münasibətlərini sarsıdır və bütün Rusiya media məkanına təhlükəli siqnal göndərir. Yalnız xoş niyyət və iki agentlik arasında uzunmüddətli əlaqələrin qorunması istəyindən çıxış edən AZƏRTAC TASS-dakı həmkarlarını gələcəkdə bu cür addımları təkrarlamamaq və mümkün fikir ayrılıqlarını dərinləşdirmək əvəzinə, münasibətləri yaxşılaşdırmağa yönəltməyə çağırır.

Öz növbəsində AZƏRTAC bəyan etmək səlahiyyətinə malikdir ki, agentlik TASS ilə xoş münasibətləri qorumaqda qərarlıdır, eyni zamanda, rusiyalı həmkarlarından buraxılmış səhvin düzəldilməsini gözləyir. Əgər Azərbaycan tərəfi qarşılıqlı münasibət və anlayış görməzsə, o zaman böyük təəssüf hissi ilə cavab olaraq Kaliningrad (Königsberg), Orenburq (Orınbor), Volqoqrad (Sarısu), Qroznı (Solja-Qala), Novorossiysk (Sudjuk-Kale), Yujno-Saxalinsk (Toyoxara), Yujno-Kurilsk (Furukamappu), Petrozavodsk (Petroskoy), İjevsk (İjkar), Volqa çayı (İtil) və bir sıra digər yerlərin tarixi adlarını yada salıb istifadə etməyə məcbur qalacağıq.

# Zəngəzur dəhlizi – yeni qlobal düzən və Azərbaycanın haqqı

## *Yaxud Ermənistanın şirkət oyunbazlığı və iflasın ayaq səsləri*

**“Amerika şirkətinin Zəngəzur dəhlizini bir növ icarəyə götürməsi ilə bağlı sualınıza gəldikdə bu, Ermənistan rəhbərliyinə ünvanlanmalıdır. Bizim ərazidə heç bir operator, heç bir ticarətçi, heç bir icarədar ola bilməz”. Bu fikri Prezident İlham Əliyev iyulun 19-da Xankəndidə III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündə səsləndirib.**




Dövlətimizin başçısı onu da bildirib ki, ölkəmiz üçün başlıca məsələ Naxçıvana yolun Azərbaycandan Azərbaycana maneəsiz və təhlükəsiz keçid kimi fəaliyyət göstərməsidir və bu barədəki fikirlərini Əbu-Dabidəki təmas zamanı Ermənistanın baş naziri Nikol Paşinyana çatdırıb: “Bu, Azərbaycanın bir bölgəsindən ölkənin digər bölgəsinə keçiddir. Bizim yüklər və bizim vətəndaşlar, Azərbaycan vətəndaşları hər dəfə orada sərhədçi erməninin simasını görməli deyil. Budur bizim tələbimiz. Bu, legitim tələbdir, bu, ədalətli tələbdir. Əks təqdirdə bizim vətəndaşlarımız təhlükə altında olacaqdır. Mən yaxşı xatırlayıram, sovet dövründə qatar Bakıdan Naxçıvana hərəkət edərkən məhz Ermənistan ərazisindən Zəngəzurdan keçən bir hissədə qatara daş atılırdı, nəticədə qatarın pəncərələri qırılırdı. Biz bunu çox yaxşı xatırlayırıq və bu, sovet dövrü idi. Bu nizam-intizam və cəza mexanizmlərinin hökm sürdüyü bir dövrdür. Bu gün biz vətəndaşlarımızı riskə ata bilmərik. Ona görə orada heç bir fiziki təmas olmalı deyil və onlar üçün təminatlı tədbirlər həyata keçirilməlidir ki, insanlar və yüklər təhlükəsiz şəkildə hərəkət etsin. Bu, legitim tələbdir”.

Bəli, Prezident İlham Əliyev Naxçıvana quru yolunu Azərbaycan üçün legitim tələb kimi qiymətləndirir. Deməli, ölkəmizin İranla sərhədə qədər dəmir yolu infrastrukturunun yaradılmasına yönələn fəaliyyətinin məğzində sözügedən tələbin müəyyənləşdirdiyi məntiq dayanır. Məsələ isə ondadır ki, ortada çox böyük beynəlxalq tranzit söhbəti var və ona yalnız Azərbaycanın əsas hissəsinin onun Naxçıvanla birləşdirilməsi kontekstində yanaşılmamalıdır.

Ölkəmizin son illər milyardlarla dollar sərmayə qoyaraq Xəzər dənizində ən böyük beynəlxalq ticarət limanı tikməsi, habelə həmin limanın yükqaldırma qabiliyyətini 25 milyon tona çatdırması, müasir infrastruktur qurması təkcə onun öz ərazisindən tranzit daşımaların həcmini artırmır. Burada regionda baş verən geosiyasi dəyişikliklərə adekvatlıq var. Axı beynəlxalq aləm üçün əhəmiyyət daşıyan digər tranzit marşrutlar problemli hala gəlib. Yəni Prezident İlham Əliyev heç də əbəs yerə vurğulamır ki, Zəngəzur dəhlizinin potensialı ilkin mərhələdə 15 milyon ton yük səviyyəsində qiymətləndirilir. Bu ehtimal olunan nəticə ölkəmizin həyata keçirdiyi məqsədyönlü fəaliyyətin sayəsindədir. Məsələyə böyük anlamda yanaşsaq, ölkəmiz reallaşdırdığı nəhəng fəaliyyətin qarşılığını görməli, hansısa lokal maraqların icrasına çalışan qüvvələr qarşımızda dayanmamalıdırlar. Azərbaycan dünya əhəmiyyətli layihəyə töhfə verdiyi üçün rəsmi Bakının Naxçıvana quru yolunun maneəsizliyi istəyi təmin edilməlidir. Həm də ona görə ki, legitimlik haqqımızı hüququmuz tamamlayır. Hüquqdan söz düşmüşkən, Prezident İlham Əliyev sözügedən forumda bu barədə də söz açıb: “Bu dəmir yolunun Ermənistan hissəsinə gəlincə deməliyəm ki, sovet dövründə bu dəmir yolu Azərbaycan dəmir yolunun tərkib hissəsi olub. Ermənistanın dəmir yolu şəbəkəsinin qalan hissəsi ilə dəmir yolu əlaqəsi olmadığına görə ermənilərin dəmir yolu strukturuna daxil olmayıb. Bu yol Azərbaycanı Ermənistan ərazisindən keçərək Naxçıvan Muxtar Respublikası ilə birləşdirir”.

Prezident İlham Əliyevin növbəti fikirləri Azərbaycanın haqqının İrana da yeni geosiyasi düzəndəki divident payı müəyyənləşdirir. Dövlətimizin başçısı bildirir ki, Naxçıvana gedən yolun Fars körfəzinə çıxışı İran ərazisindəndir. “Yəni, Zəngəzur dəhlizinin reallaşması ilə biz mahiyyət etibarilə Şimal–Cənub dəhlizinin başqa istiqamətini açacağıq. Təkcə hamının haqqında danışdığı bir istiqamətə - Rusiyadan Azərbaycan vasitəsilə İrana, Rəştə deyil, həm də Şərqi Zəngəzur və Zəngəzur bölgəsinin digər hissələrindən İrana, oradan da Türkiyəyə. Ona görə də yük axınının həcminin artırılması üçün böyük perspektivlər açılır”, – deyən Prezident İlham Əliyevin haqq-ədalət istəyində, ümumən, regiondakı bütün dövlətlərin mənfəəti zərgər dəqiqliyi ilə hesablanıb. Mənfəətə layiq olmaq isə mütləqdir. Yada salaq ki, ölkəmizin lideri əvvəlki açıqlamalarının birində Ermənistanın tranzit ölkəyə çevrilmək şansını əldən verməməli olduğunu vurğulamışdı. Cənab Əliyev Şuşa Forumunda da məsələnin üzərinə gəldi və bu barədə söz açacağıq.

Amma məlumdur ki, rəsmi İrəvan “Dünyanın kəsişməsi” adlı layihə ortaya atıb. Bu isə o deməkdir ki, ölkənin iddiası böyükdür. Baş nazir N.Paşinyan administrasiyasının “Dünyanın kəsişməsi” ilə bağlı əsaslandırmaları onu göstərir ki, erməni rəhbərliyi ölkəni ancaq tranzit məmləkət statusunda görmür, onu qlobal marşrutda söz sahibi kimi təsəvvürə gətirir. Heç şübhəsiz, təsəvvürün hay avantürizmini qorumaq mahiyyəti var. Əslində, “erməni kartını” aktiv saxlamaq niyyəti güdən qüvvələrin hazırda Ermənistana dəstəyi həmin “mahiyyətdən” qaynaqlanır. O da şübhəsizdir ki, Azərbaycan belə cəhdlərin qarşısının alınmasında prinsipialdır. Ona görə Prezident İlham Əliyev III Şuşa Qlobal Media Forumu zamanı iyulun 10-da Əbu-Dabidə baş nazir N.Paşinyanla görüşündəki bir detalı açıqlayıb: “Mən cənab Paşinyana dedim ki, siz yəqin ümid edirdiniz ki, xanım Harris qalib gələcək və ağ at üzərində olacaqsınız. Ancaq bu, baş vermədi. Mən buna tamamilə əminəm ki, Tramp qalib olmasaydı, onlar bununla razılaşmayacaqdılar. Onlar layiq olduqlarından da, həzm edə biləcəklərindən də daha çox parça qoparmaq istəyirdilər”.

Bəli, heç kəs, heç bir qüvvə layiq olduğundan artığını əldə edə bilməz. Ermənistan isə buna cəhd belə göstərməməlidir. Çünki onun izlərini silmək naminə çalışmadığı işğalçı, təcavüzkar keçmişi var və həmin keçmişin Naxçıvana yoldakı oyunbazlıqları yaddan çıxmayıb. Bu barədə dövlətimizin başçısının dolğun əsaslandırması ilə söz açdıq. Rəsmi İrəvanın hazırkı oyunbazlığına gəlincə, Prezident İlham Əliyevin yazımızın başlanğıcında diqqətə çatdırdığımız fikirləri belə mənfi təmayüllərə qarşı da müqavimətimizin mövcudluq sübutudur. Ölkəmizin liderinin təbirincə desək, kimisə, kimlərisə, hansısa firma və şirkəti öz ərazisinə çağırmaq Ermənistanın öz işidir. Ancaq bu mənada dövlətimizin başçısının vurğuladığı növbəti vacib nüans var. Hesab edirik ki, həmin nüans İrana da mesajdır: “Onlar (Ermənistan rəhbərliyi) artıq dırnaqarası “Avropa müşahidəçiləri”ni də sərhədə dəvət ediblər. Onlar sərhəddəki peşəkar casuslardır və İrana qarşı casusluq fəaliyyəti aparırlar. Xüsusilə də bu son İran–İsrail münaqişəsi zamanı onlar İran sərhədi boyu hərəkət edirlər. Düzdür, onlar binokl vasitəsilə bizə də baxırlar, ancaq biz də öz ərazimizdən onları izləyirik. Sabah Ermənistan istənilən ölkəni, tərəfi də dəvət edə bilər”.

Birmənalı şəkildə deyə bilərik ki, rəsmi İrəvan layiq olduğundan daha çoxunu əldə etmək üçün hər şeyə hazırdır. Əslində, Zəngəzur dəhlizinin hansısa xarici şirkətə verilməsinə dair söz-söhbətin ortaya atılması məhz bundan qaynaqlanır. Ermənistan rəhbərliyi məsələni Prezident İlham Əliyevin III Şuşa Qlobal Media Forumundakı fikirlərindən sonra müəyyən mənada təxirə saldığını açıqlasa da, siyasi gediş yalnız görüntü xarakterlidir.

Reallıq budur ki, beynəlxalq müstəvidə Zəngəzir dəhlizinə qarşı Ermənistanın ərazi bütövlüyünün və suverenliyinin toxunulmazlığı klişesini tirajlayan Paşinyan administrasiyası Naxçıvana yolun regiondan kənar oyunçuya verilməsini istəyir. O oyunçuya ki, ona böyük hesabla bu missiya heç lazım da deyil. Söhbət ABŞ-dan gedir. Nəzərə alaq ki, indiki durumda Birləşmiş Ştatlar üçün böyük prosesin reallaşması önəmlidir, lokal erməni maraqları yox. Rəsmi İrəvan isə xaricdəki havadarlarının dəstəyi ilə Vaşinqtonu həmin maraqların təminatına həvəsləndirir. Loru dildə desək, havayı pendirdən heç kəs imtina eləməz. Əlbəttə, ABŞ-da onun fərqindədirlər ki, havayı pendir ancaq tələdə olur. Ona görə Birləşmiş Ştatlardan Zəngəzur dəhlizinə nəzarət xüsusunda eşidilən fikirlərə əminlikdən çox, ehtiyatlılıq hakim kəsilib.



Əlbəttə, real dividend qazanmaq şansı yaransa, ABŞ ondan imtina etməz. Amma indiki durumda ölkəmizin öz ərazisində heç bir icarədara və ya hansısa şirkətə imkan tanımamaq prinsipiallığı var. Vaşinqton durumu rasional qiymətləndirir və haqlı inadımız heç bir halda Vaşinqtona etiraz yükü daşımır. Güman edirik, İranda və Rusiyada da istər bundan, istərsə də mövqeyimizin prinsipiallığından yaxşı xəbərdardırlar.

Doğrudur, ortada olan durum elə qənaət formalaşdırır ki, sanki Moskva və Tehran Zəngəzur dəhlizinə qarşı çıxır. Şübhəsiz, istər İranda, istərsə də Rusiyada anti-Azərbaycan qüvvələr var və onlar fəaliyyətlərinə ara vermir və dəhliz məntiqini də qabardırlar. Ancaq bu ölkələrdə durumu düzgün qiymətləndirənlər də az deyil. Yəni baxmayaraq ki, Moskvanın Cənubi Qafqazda NATO-nun, Tehranın isə NATO ilə yanaşı, ABŞ-ın və İsrailin mövcudluğunun yolverilməzliyinə dair qəti ritorikaları gündəmdədir, fikrimizcə, bütün bunlar yalnız aysberqin görünən tərəfidir. Məsələ ondadır ki, bu iki dövlət potensial riskə qarşı öz ənənəvi klişelərini, ideoloji xətlərini dövriyyəyə salaraq mübarizə aparır. Əslində, mübarizə, mahiyyət etibarilə, təminat uğrundadır. Söhbət maraq və mənafelərin təminatından, əminlikdən gedir.

Mövcud durumda Ermənistanın istədiyi layiq olmadığı masada əyləşməkdir. Daha doğrusu, ölkə özünün maraq və mənafe zəncirindəki halqasının çox kiçik ölçülü olduğunun fərqinə varmır, müxtəlif manipulyasiyalara baş vurur. Özü də İrəvanın yarıtmazlığı neçə illərdir davam edir. Ona görə Prezident İlham Əliyev “biz təkcə Bakı limanında yüklərin qəbuluna və onları işləməyə deyil, həm də Bakı–Tbilisi–Qars dəmir yolu ilə Gürcüstandan keçməklə Türkiyəyə və daha sonra Aralıq dənizi limanlarına Zəngəzur vasitəsilə göndərməyə hazır olmalıyıq ki, bu, eyni zamanda, əsas nəqliyyat marşrutu olacaq” deməklə yanaşı, bunu da vurğulayıb: “Amma təəssüflər olsun ki, son beş ildə Ermənistan tərəfində heç bir iş aparılmayıb, bu məsələ qəsdən gündəmdən çıxarılıb. Amma belə olan halda Ermənistanın nə vaxtsa tranzit ölkəyə çevrilmək şansı sıfra yaxınlaşır. Bu prosesin qarşısını almaqda davam etsələr düşünürəm ki, özlərini nəinki bu gün düşdükləri nəqliyyat təcridində, həm də müəyyən dərəcədə siyasi təcriddə tapacaqlar”.

***

Görünür, Ermənistanda dövlətimizin başçısının III Şuşa Qlobal Media Forumunda səsləndirdiyi bu fikirlərdən də nəticə çıxarılmır və rəsmi İrəvan ölkə üçün çəmbərin daraldığını düşünmür. Ermənistanda hakimiyyətə yaxın çevrələrin yenə ABŞ-ı ortaya salmaları fikrimizin sübutudur. Onlar bildirirlər ki, əgər Birləşmiş Ştatlar İrəvanla razılığa gəlsə, amerikalıların regiondakı kommunikasiyaların blokdan çıxarılması prosesində iştirakı mümkünləşəcək. Mövcud xüsusda Ermənistan-Amerika şirkətinin yaradılmasından, hər iki tərəfin rollarının, səlahiyyət sahələrinin və məsuliyyətlərinin dəqiqləşdirilməsindən söz açılır. Bir sözlə, sərsəm düşüncələr ortaya atılır.

Ən əsası, Ermənistanda belə rəy var ki, guya ölkə Naxçıvana yolda fəaliyyət göstərəcək ABŞ şirkətinin mövcudluğu zərurətinə İranı inandıra biləcək. Sən demə, inandırmaq şirkətə erməni nəzarətinin həyata keçirilməsi şəklində olacaq. Yəni Tehran özünün təhlükəsizliyindən narahat olmamalıdır. Çünki buna təminat verən Ermənistan dövləti imiş. Mövcud kortəbii trayketoriyada hay başbilənlərin ABŞ-ın boynuna qoyduqları missiya Azərbaycanı inandıracaqmış. Rusiyanı nəzərə almağa gəlincə, erməni iqtidarına yaxın çevrələr bu barədə söz açmırlar. Həmişəki kimi, Kremli, öz aləmlərində, hesabdan silirlər.

***

Sonda onu da bildirək ki, Azərbaycanın Zəngəzur dəhlizi ideyası regionda leqal tarixi maraqlara malik bütün qütblər üçün faydalıdır. Əslində, ölkəmiz fayda məramını “3+3” regional məşvərət formatının yaradılması ilə də ortaya qoyub. O da məlumdur ki, bu format “region region ölkələri üçündür” şüarını rəhbər tutur. Ermənistanın mövcud platformada passiv iştirakı da həmçinin.

Əlbəttə, İrəvan Tehrana qarşı çıxmır. Ona görə yox ki, bunu istəmir. O səbəbdən ki, dirənişə potensialı çatmır. Yəni, Rusiyanın qarşısına almış Ermənistan ikinci güclü dövlətin təsirini qarşılaya bilməz. Ancaq rəsmi Moskvanın “regionda əlavə qıcıqlandırıcılar” kimi qiymətləndirdiyi Avropa İttifaqının mülki müşahidə missiyası həm də anti-İran təmayüllü təsisatdır. Prezident İlham Əliyev əbəs yerə bildirmir ki, “onlar sərhəddəki peşəkar casuslardır və İrana qarşı casusluq fəaliyyəti aparırlar”. Erməni siyasi dairələrində gedən müzakirələr və irəli sürülmüş versiyalar onu göstərir ki, Zəngəzur dəhlizinə nəzarəti həyata keçirəcəyi iddia olunan ABŞ şirkəti üçün də Aİ-nin müşahidəçilərinin missiyasına bənzər struktur nəzərdə tutulur.

Bütün bunların fonunda yekun nəticə Ermənistanın 44 günlük müharibənin doğurduğu reallıqları qəbul etmək istəməməsidir. Deməli, ölkə təkcə Azərbaycana qarşı çıxmır, eyni zamanda, formalaşması labüd regional düzəni pozmağa cəhd göstərir. Bu, əlbəttə ki, təhlükəli tendensiyadır. Həm də o baxımdan təhlükəlidir ki, 44 günlük müharibənin rüsvayçılıq pərdəsi var. Ermənistan məhz özünün olmayana göz dikdiyi üçün, ümumən erməni varlığı, yumşaq desək, tamahkarlığı səbəbindən, işğalçılıq niyyətindən əl çəkmədiyindən cəzalandırılmışdı. İndi isə vəlvələdən, yaxud zəlzələdən yaranmış ölkənin baş nazirinin mətbuat katibi Nazeli Baqdasaryan ərazi bütövlüyünün və suverenliyinin toxunulmazlığı klişesini qabardarkən bildirir ki, ölkədəki dəmir yolları, boru və elektrik kəmərlərinin idarəsi həmişə ayrı-ayrı kampaniyalara tapşırılıb. Deməli, ABŞ şirkəti də mövcud trayektoriyada təmsil oluna bilər. Bu məntiq Zəngəzur dəhlizinin, yəni Naxçıvana gedən yolun, o cümlədən dəmir yolunun eyni şərtlərlə fəaliyyətinin mümkünlüyü deməkdir. O zaman suallar yaranır. Görəsən, Ermənistan özünün olmayanı necə kiməsə tapşıra bilər? Özünün olmayana sahiblənmək cəhdinin doğurduğu rüsvayçılıq dərs olmadımı ki, ölkə hazırda daha böyük güclər arasında oyuna girişir? Nəhayət, haylar heç nədən var olan Ermənistan dövlətinin tarix səhnəsindən silinməsindən qorxmurlarmı? Necə də qorxsunlar, axı dövləti özləri yaratmayıblar.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Müxalifət – zəif, iqtidar – inamlı

## *Gürcüstanda yerli seçkilər yaxınlaşdıqca siyasi hərarət artır*

**Gürcüstanda yerli hakimiyyət orqanlarına 2025-ci il oktyabrın 4-də keçiriləcək seçkilərdə merlər və rayon məclisləri olan sakrebuloların üzvləri seçiləcəklər. Bu dəfəki seçkilərin əhəmiyyəti ondan ibarətdir ki, yerli idarəetmənin formalaşmasında seçicilər birbaşa iştirak edirlər. Sakrebulolar üzrə proporsional seçkilərdə keçid həddi 4 faizdir. Yəni hər bir siyasi partiya və ya blok seçkilərdə iştirak edib, səslərin ən azı 4 faizini toplamalıdır ki, sakrebulo üzvlüyünə iddialı ola bilsinlər. Mer seçkilərində isə sadə mexanizm tətbiq olunub. Ən çox səs toplayan namizəd mer vəzifəsinə seçiləcək. Bu isə seçkilərdə rəqabətin daha çox fərdi şəxslər arasında gedəcəyini şərtləndirir.**





Yerli seçkilərin parlament seçkilərindən əsas fərqi isə ondan ibarətdir ki, nəticələr hər bir rayonda ayrıca hesablanır və yekunlaşdırılır. Parlament seçkilərində isə ölkə üzrə ümumi nəticə nəzərə alınır. Bu isə yerli səviyyədə yeni yaranan partiyaların uğur qazanmasının qarşısını alır, çünki onların bütün ölkə üzrə kifayət qədər resurs və dəstəyi olmur. Beləliklə, oktyabr seçkiləri Gürcüstanın siyasi həyatında mühüm hadisə olmaqla yanaşı, eyni zamanda, yerli idarəetmədə mövcud siyasi qüvvələr üçün əhəmiyyətli imtahan rolunu oynayacaq. Bu, eləcə də digər məsələlərə həmsöhbətimiz, Bolnisi sakrebulosunun üzvü Vüqar İsayev aydınlıq gətirir.

**– Vüqar müəllim, müşahidəçilərin və analitiklərin fikirlərinə əsaslanaraq belə qənaətə gəlmək olar ki, bu seçkilərdə iqtidardakı "Gürcü arzusu"nun qalib gəlmək ehtimalı çox yüksəkdir. Sizcə, bu, nə dərəcədə realdır?**

– Oktyabrın 4-də keçiriləcək yerli seçkilər öncəsi ictimai və siyasi mənzərə, əsasən, iqtidar partiyasının – "Gürcü arzusu"nun xeyrinə formalaşır. Cəmiyyətin geniş kəsimində müxalifətə inamın azalması, onun effektiv və ardıcıl strategiya ortaya qoya bilməməsi iqtidarın seçkilərdə üstünlük qazanacağını qaçılmaz edir.

Ölkədə iqtidara qarşı kütləvi etiraz dalğası sönüb, ictimai narazılıq isə daha çox passivlik ilə əvəzlənib. Seçicilər müxalifət partiyalarının konkret və inandırıcı alternativ təqdim etmədiyini düşünür. Bununla yanaşı, müxalifətin regionlarda ciddi siyasi fəaliyyət göstərməməsi onların yerli səviyyədə zəif mövqeyini açıq göstərir. Seçkilər yalnız Tbilisi və iri şəhərlərlə məhdudlaşmadığı üçün regionlardakı zəif təşkilatlanma onların ümumi nəticələrinə birbaşa təsir edəcək. İqtidar isə uzun müddətdir ki, regionlarda geniş şəbəkə formalaşdırıb və yerli əhali ilə daimi təmasdadır. Hazırkı mərhələdə müxalifət düşərgəsi ciddi təşkilati böhran içindədir. Bir neçə partiya seçkilərə qatılacağını açıqlasa da, əksəriyyət boykot mövqeyində qalır. Vahid namizədlərin müəyyənləşdirilməsində çətinliklər, koalisiyalar arasındakı fikir ayrılıqları və seçici passivliyi müxalifət üçün əlavə problemlər yaradır. Bu parçalanma isə "Gürcü arzusu"nun mövqeyini möhkəmləndirir.

Seçkilərin nəticəsinin rayonlar üzrə ayrıca hesablanması da iqtidarın lehinə işləyən amillərdəndir. Regionlarda geniş sosial baza və təşkilatlanma üstünlüyü "Gürcü arzusu"na əlavə dividentlər qazandıracaq. Müxalifətin zəifliyi fonunda partiyanın yerli seçkilərdə böyük fərqlə qalib gəlməsi ehtimalı yüksəkdir.

Bəli, mövcud siyasi reallıq yerli seçkilər öncəsi güc balansının iqtidarın xeyrinə olduğunu göstərir. Müxalifət partiyalarının proseslərdə hansı mövqe tutacağı onların öz təşəbbüsü və daxili qərarvermə imkanlarından çox, xarici tərəfdaşların və havadarların mövqeyi ilə müəyyən olunur. Bu isə ictimai rəyə birbaşa təsir edir. Seçicilər müstəqil siyasi iradə sərgiləməyən qüvvələrə etimad göstərmirlər. Nəticədə real alternativin formalaşması mümkün olmur. Bu tip siyasi yanaşmalar həm ictimai rəyin formalaşmasında, həm də seçkinin nəticələrində özünü göstərə bilər.

**– Seçkilərdə iştirak edəcəklərini açıqlayan müxalifət partiyalarının böyük şəhərlərdə qalib gəlmək şansı varmı? Ötən il parlament seçkilərində onlar Tbilisi, Kutaisi, Batumidə fəal idilər, kifayət qədər səs toplamışdılar...**

– Müxalifətin yerli seçkilərdə, xüsusilə də iri şəhərlərdə uğur qazanma ehtimalı azdır. Ötənilki parlament seçkilərində bəzi dairələrdə müəyyən fəallıq və dəstək müşahidə olunsa da, yerli seçkilər fərqli dinamikaya malikdir. Burada seçici davranışı daha çox yerli səviyyədə əlaqələrə, təşkilatlanma gücünə və sahədəki aktivliyə əsaslanır. Hazırda yalnız bir neçə müxalif partiya – "Lelo – Güclü Gürcüstan", "Qaxariya – Gürcüstan üçün" və "Yeni siyasi mərkəz – Qırçı" yerli seçkilərdə iştirak edəcəyini bəyan edib. Amma ümumi mənzərədə müxalifət parçalanmış vəziyyətdədir və əksəriyyət ya boykot mövqeyindədir, ya da hələ də qərarsızdır. Koordinasiyanın və vahid strategiyanın olmaması onların rəqabət imkanlarını ciddi şəkildə zəiflədir.

Tbilisidə müxalifətin müəyyən sosial qruplar arasında dəstəyi qalsa da, bu dəstək qələbə üçün yetərli deyil. "Gürcü arzusu"nun paytaxtda nüfuzu ciddi şəkildə sarsılmayıb və onların seçici bazası sabitliyini qoruyur. Üstəlik, iqtidar partiyası Tbilisidə müxalifətin qarşısına güclü rəqib çıxarır. Kaxa Kaladzenin Tbilisi meri seçkilərində üçüncü dəfə namizədliyi irəli sürülüb.

Batumidə müəyyən imkanlar olsa da, bu üstünlük lokal xarakter daşıyır və ölkə üzrə nəticəyə ciddi təsir göstərmək gücündə deyil. Eyni zamanda, müxalifət düşərgəsində vahid namizədlərin razılaşdırılmaması, seçki kampaniyalarının zəif təşkili və ümumi passivlik vəziyyəti daha da ağırlaşdırır. Seçici motivasiyasının aşağı olması da onların lehinə işləmir. Belə bir şəraitdə, "Gürcü arzusu"nun həm mer vəzifələri, həm də sakrebulo yerləri üzrə 64 bələdiyyənin mütləq əksəriyyətində qalib gəlmə ehtimalı yüksəkdir.

Yekunda onu da deyim ki, müxalifət yalnız simvolik səviyyədə uğur qazana bilər. Onların seçkinin nəticələrinə həlledici təsir göstərmək imkanları hazırkı mərhələdə həm təşkilati, həm də siyasi baxımdan olduqca məhduddur.

**– Gürcüstanda yaşayan azərbaycanlı seçicilər həmişə fəal olublar. Onların yerli seçkilərdə daha çox kimlərə səs verəcəkləri barədə nə deyərdiniz?**

– Gürcüstanda yaşayan azərbaycanlılar həmişə seçkilərdə fəal olublar. Son illərin təcrübəsi göstərir ki, onların əksəriyyəti hakim "Gürcü arzusu" partiyasına səs verirlər. Bu davranış əsasən sosial-iqtisadi sabitlik, inzibati resurslara çıxış və yerli strukturlarda mövcud olan möhkəm siyasi əlaqələrlə bağlıdır. Seçicilər, xüsusilə də kənd yerlərində yaşayanlar, əsasən iş imkanları, sosial yardımlar və dövlətə yaxınlıq kimi praktiki meyarlara əsaslanaraq qərar verirlər.

Müxalifət partiyalarının bu bölgələrdə zəif fəaliyyət göstərməsi də mühüm rol oynayır. Azərbaycanlıların yaşadığı rayonlarda müxalifət təşviqat və ictimai fəaliyyət baxımından fəallıq nümayiş etdirmir. Nəticədə, seçicilər müxalifətə etimad göstərmir, onların proqram və mövqeləri barədə ya məlumatsızdırlar, ya da onları qeyri-real hesab edirlər. Eyni zamanda, dil baryeri, sosial məsafə və etnik kimlik səbəbindən müxalifət bu icma ilə kifayət qədər əlaqə qura bilmir.

Bu seçicilər arasında loyal və konservativ davranış modeli müşahidə olunur. Yəni onlar radikal dəyişikliklərə deyil, daha çox sabitliyə və mövcud quruluşa üstünlük verirlər. Bu, xüsusilə etnik azlıqlar arasında özünü daha güclü şəkildə göstərir. Azərbaycanın bölgədəki nüfuzlu şəxsləri, yerli liderlər və icma təmsilçiləri də əsasən "Gürcü arzusu" ilə əməkdaşlıq etdiyindən, əhali onların mövqeyini dəstəkləməyə meyillidir.

Bu şərtlər daxilində yerli seçkilərdə Gürcüstan azərbaycanlılarının böyük hissəsi yenə də "Gürcü arzusu"na səs verəcək. Müxalifətin bu bölgədə ciddi siyasi alternativ formalaşdırmadığı və yerli əhali ilə davamlı ünsiyyət qurmadığı müddətdə bu tendensiyanın dəyişməsi çətin görünür.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# İrəvanda növbəti "heç nədən hay-küy"

## *Zəngəzur dəhlizi ilə bağlı oyunbazlıq Ermənistanı geriyə çəkir*

**Erməni xalqı 2018-ci ilin mayında zəli kimi onun qanını içən, təbii sərvətlərini qarət edən, ölkədə korrupsiyanı, rüşvəti, qohumbazlığı, kriminalı, hər cür özbaşınalığı çiçəkləndirən və şərti olaraq Qarabağ klanı adlandırılan Robert Koçaryan–Serj Sərkisyan cütlüyünün başçılıq etdikləri mafiyanı tarixin zibilliyinə göndərdi. Hakimiyyətə gələn Nikol Paşinyan əvvəlki rejimin cinayətlərini ifşa etməklə yanaşı, ölkədə qayda-qanun yaratmağa başladı. Daxildəki işlər Ermənistan vətəndaşları tərəfindən rəğbətlə qarşılandı. Bununla belə Paşinyan "inqilabi eyforiyaya" qapılaraq bir sıra ciddi səhvlərə yol verdi. Onun ən böyük səhvi isə məsuliyyətsiz bəyanatlar verməsi nəticəsində Azərbaycanla sülh danışıqlarını pozması oldu. Məlumdur ki, bu addım Ermənistanın təslimolma aktı imzalaması ilə yekunlaşmış, İkinci Qarabağ müharibəsinin baş verməsinə gətirib çıxardı.**



Ancaq müharibədəki məğlubiyyətə rəğmən Paşinyan 2021-ci il iyunun 20-də keçirilən növbədənkənar parlament seçkilərində əsas rəqibi Koçaryan üzərində qələbə qazandı. Yekun nəticəyə əsasən, Paşinyanın başçılıq etdiyi "Mülki müqavilə" səslərin 53,95 faizini, Koçaryanın rəhbəri olduğu "Hayastan" alyansı isə 21,11 faizini əldə etdi. Bir sıra ekspertlər bu fikirdədirlər ki, əslində, seçicilər Paşinyana səs verməklə Koçaryana, keçmiş rejimin qayıdışına yox dedilər. Onlar Paşinyanı ideallaşdırmasalar da, onun timsalında yeni nəsil siyasətçilərə şans verdilər. Bu səsvermə bir növ Koçaryanın deyil, bütövlükdə keçmişin məğlubiyyəti idi. Ermənistan vətəndaşları müharibədəki məğlubiyyətə rəğmən, avtoritar idarəçiliyə geri dönmək istəmədilər. Bununla belə revanşistlər adlandırdığımız düşərgəni təmsil edənlər hazırda iş başındadırlar. Onlar Ermənistan cəmiyyətinin siyasi şüurunu zəhərləməyə davam edirlər. Xüsusilə, son illər regional miqyasdan çıxaraq qlobal əhəmiyyət daşımağa başlayan Zəngəzur dəhlizinin açılmasını milli təhlükə, yaxud suverenliyin itirilməsi kimi qələmə verməklə həm cəmiyyət daxilində qorxu və nifrət toxumu səpir, həm də Ermənistanın regional inteqrasiyasını əngəlləyirlər. Ermənistanın da böyük faydalar əldə edəcəyi bu dəhlizin açılmasını revanşistlər iqtisadi və siyasi uğur kimi deyil, böyük məğlubiyyət kimi cəmiyyətə təqdim edirlər. Halbuki, Zəngəzur dəhlizi regional sabitliyin, əməkdaşlığın və iqtisadi inkişafın açarı kimi təqdim olunmalıdır. Revanşist dairələr qəlblərinin dərinliklərində bu imkanların Ermənistan üçün yaradacağı üstünlükləri dərk etsələr də, özlərinin yenidən hakimiyyətə gəlmələri yolunda təhlükə saydıqları üçün layihəyə qarşı çıxırlar. Belələrindən biri də özünü beynəlxalq əlaqələr üzrə ekspert kimi təqdim edən Qriqor Balasanyandır.

O, "Nyus.am"a müsahibəsində bildirib ki, Ermənistan çox təhlükəli nəticəyə doğru irəliləyir, çünki son hadisələr dəhlizin açılması məsələsinin, əslində, Ermənistan–Azərbaycan sülh sazişi ilə heç bir bağlılığının olmadığını göstərir. Qeyd edib ki, ilkin olaraq yolların açılması məsələsinə tamamilə başqa kontekstdə – ultimatum və əlavə tələblər (?) olmadan baxılırdı. Onun sözlərinə görə, Azərbaycan sonradan paralel olaraq noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatda nəzərdə tutulmayan yeni şərtlər (?) irəli sürməyə başlayıb. O, bu tələblər sırasında 300 min Qərbi azərbaycanlının geri qaytarılmasını, Ermənistanın 150 milyard dollar təzminat ödəməsini, habelə konstitusiyaya əlavə və dəyişiklikləri qeyd edib: "Bakı danışıqlar prosesini məharətlə dəyişdirdi. Azərbaycan təşəbbüsü ələ keçirdi. İndi artıq aydındır ki, beynəlxalq oyunçular Ermənistan–Azərbaycan münasibətlərinin mahiyyətinə məhəl qoymadan dəhliz məsələsində öz aralarında razılığa gəlirlər. Bu arada münaqişə həll olunmayıb".

Balasanyanın fikrincə, baş verənlərin hamısının bir məqsədi var – Zəngəzur dəhlizinin keçdiyi ərazini leqallaşdırmaq və Ermənistanı öz ərazisi üzərində nəzarətdən məhrum etmək. O əlavə edib ki, Azərbaycan tərəfi bu məsələni sakitcə irəli sürür, ardıcıl olaraq gündəmə gətirir və danışıqlar prosesinin mərkəzi elementinə çevirir: "Bakının hərəkətləri sistemli və mərhələli xarakter daşıyır və Ermənistana onun üçün qətiyyən qəbuledilməz şərtlərin qoyulmasına yönəlib".

Müsahibədə əksini tapan fikirlərə münasibət bildirməzdən öncə qeyd etmək lazımdır ki, Balasanyan bu çıxışı ilə obyektiv təhlildən daha çox siyasi mövqe sərgiləyir. Onun irəli sürdüyü cəfəng fikirlər Ermənistan cəmiyyətində onsuz da mövcud olan panikanı artırmaq, Paşinyan iqtidarının regional intqerasiya istiqamətində atdığı addımları gözdən salmaq və yenidən köhnə ideoloji xətlərlə hərəkət etməyi təşviq etmək məqsədi daşıyır. Bu cür yanaşma nə reallığı əks etdirir, nə də gələcəyə yönəlmiş konstruktiv mövqe kimi dəyərləndirilə bilər.

Onun söylədiyi fikirlər arasında yeganə doğru olanı dəhlizin açılması məsələsinin Ermənistan–Azərbaycan sülh sazişində əksini tapmamasıdır. Hələ 2024-cü ilin avqustunda Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov "Azadlıq" radiosuna müsahibəsində demişdi: "Hazırda danışıqları asanlaşdıran amillərdən biri də odur ki, hər iki tərəf qalan məsələlərdən ən mübahisəli olanını – Azərbaycanın qalan hissəsini onun eksklavı olan Naxçıvanla birləşdirəcək nəqliyyat marşrutlarının təşkili, yəni Zəngəzur dəhlizi məsələsini sonrakı mərhələdə həll etməyə razılaşıb". O qeyd etmişdi ki, biz qarşılıqlı razılaşma əsasında bu bəndi sülh sazişindən çıxarmaq və onun müzakirəsini sonrakı mərhələyə keçirmək qərarına gəldik: "Beləliklə, biz onu mətndən çıxarmağa qərar verdik, lakin bunun ölkələrin gələcəkdə müzakirə etmək və ümumi razılığa gəlmək üçün qayıda biləcəyi məsələlərdən biri olması faktını hələ də mətndə əks etdirə bilərik".

Beləliklə, E.Əmirbəyovun açıqlaması açıq şəkildə göstərir ki, Zəngəzur dəhlizi məsələsi tərəflərin qarşılıqlı razılığı əsasında sülh sazişi mətnindən çıxarılıb və bu məsələnin müzakirəsi sonrakı mərhələdə ayrıca müzakirə ediləcək texniki və praktiki məsələlər çərçivəsində nəzərdə tutulub. Bu fakt Balasanyanın "dəhlizin Ermənistanın ərazi bütövlüyünə təhdid olduğu", yaxud "sülh danışıqları bu məsələ üzərindən manipulyasiya edilir" kimi fikirlərini əsassız edir. Əslində, Azərbaycan tərəfi bu yanaşma ilə danışıqların gedişinə konstruktiv töhfə verib və ən həssas məsələləri ehtiyatla, əlavə diplomatik çevikliklə işləməyə üstünlük verib. Bu isə göstərir ki, Azərbaycan zor tətbiq etməyi və ya birtərəfli iradə ortaya qoymağı yox, qarşılıqlı məqbul mexanizmlərlə irəliləməyi seçir.

Balasanyanın digər fikirlərinin hamısı başdan-ayağa yalandır və erməni cəmiyyətini çaşdırmağa yönəlib. Məsələn, Azərbaycanın, guya, Ermənistanın 150 milyard dollar təzminat ödəməsini tələb etməsi məsələsini götürək. Hələ ötən ilin dekabrın 17-də Prezident İlham Əliyev müsahibəsində bildirmişdi ki, biz, əslində, sülh sazişi üzrə böyük irəliləyiş əldə etmişik: "Bu sənədin 17 maddəsinin 15-i razılaşdırılıb, ikisi qalıb. Kazanda Ermənistanın baş naziri ilə sonuncu görüşüm zamanı eşitdiyim və hiss etdiyim o oldu ki, razılaşdırılmamış bu iki maddə də Ermənistan tərəfindən qəbul oluna bilər, mən bizim şərtlərimizi nəzərdə tuturam".

Dövlətimizin başçısı demişdi ki, bunlardan biri bir-birinə qarşı beynəlxalq iddialardan kənarda durmaqdır: "Zənnimcə, bu, qarşılıqlı şəkildə qəbul olunan maddədir. Bu yaxınlarda biz vurulmuş zərərin təhlilini başa çatdırdıq, həm də bunu ətraflı etdik. Biz buna 4 il vaxt sərf etdik və orada hər şey sənədlərlə qeyd olunub. Bu, təqribən 150 milyard dollardan çoxdur, yəni işğal illərində vurulan zərərdir. Ona görə də zənnimcə, qarşılıqlı iddiaları kənara qoymaq hər iki tərəf üçün qəbuledilləndir".

Bir neçə gün öncə Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Almaniyanın aparıcı nəşrlərindən olan "Berliner Zeitung" qəzetinə müsahibəsində bildirib ki, hazırda Ermənistanın Azərbaycana kompensasiya ödənilməsi məsələsi iki ölkə arasındakı danışıqlarının müzakirə mövzusu deyil. H.Hacıyev eyni zamanda Azərbaycan tərəfinin ölkəmizə dəymiş ziyanın müvafiq qiymətləndirməsini həyata keçirdiyini açıqlayıb: "Burada söhbət bir dövlətin məsuliyyətindən gedir. Ermənistan 30 il ərzində beynəlxalq humanitar hüququ kobud şəkildə pozaraq, Azərbaycana qarşı güc tətbiq edib, Azərbaycanın ərazilərini işğala məruz qoyub və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərini yerinə yetirməkdən imtina edib. İşğal dövründə Ermənistan Azərbaycanın şəhər və kəndlərini tamamilə dağıdıb. Ərazilərimiz işğaldan azad edildikdən sonra bizim tərəfimizdən dəymiş ziyanın BMT-nin metodologiyası əsasında kompleks qiymətləndirilməsi həyata keçirilib. Bu qiymətləndirməyə əsasən, ölkəmizə dəymiş zərər ümumilikdə 150 milyard dollara yaxın həcmdə təşkil edir".

Buradan aydın olur ki, "Azərbaycan Ermənistanı 150 milyard dollar təzminat ödəməyə məcbur edir" fikri tamamilə uydurmadır və ictimai rəyə təsir göstərmək üçün istifadə olunur. Deməli, Balasanyanın iddiaları faktlara deyil, təxribatçı niyyətə əsaslanır.

Bütövlükdə, Balasanyanın fikirləri reallığı əks etdirmir və qeyd etdiyimiz kimi, daxili auditoriyanı qorxuya salmaq məqsədi daşıyır. O, Azərbaycanın, guya, yeni şərtlər irəli sürdüyünü iddia etsə də, faktlar bunun əksini deyir. Rəsmi Bakı, sadəcə, danışıqlar prosesində ardıcıl və prinsipal mövqe tutur. Zəngəzur dəhlizi məsələsinin sülh sazişindən çıxarılması tərəflərin qarşılıqlı razılığı ilə baş verib və bu, Ermənistanın da maraqlarına uyğundur. Qərbi azərbaycanlıların geri qaytarılması isə hüquqi və humanitar müstəvidə müzakirə olunacaq mövzudur. Bu da sülh sazişinin şərti deyil. Balasanyan beynəlxalq oyunçuları da ittiham etməklə Ermənistanı daha güclü təcridə aparan mövqe sərgiləyir. Onun bu açıqlamaları konstruktivlikdən uzaq, keçmişin qorxuları ilə yaşayan revanşist ritorikanın bariz nümunəsidir.

***Səxavət HƏMİD***
***XQ***

# Prezident İlham Əliyevin siyasi təcrübəsində milli ideya və suverenlik



III MƏQALƏ

(əvvəli 1-ci səhifədə)

H.Kissincerin gəldiyi ümumi qənaət belədir ki, istənilən dövlət üçün çox ciddi taleyüklü mərhələdən sonra strateji məqsədləri yenidən düzgün müəyyən etməyə ehtiyac yaranır. Bu məqamda liderin siyasi təcrübəsi və şəxsi qabiliyyəti ön sıraya çıxır.

Məsələn, R.Nikson ABŞ üçün psixoloji cəhətdən xeyli ağrılı olan "balans strategiyası"nı Vyetnam müharibəsindən sonra qəbul etməli oldu. Və yaxud Ə.Sadat həyatı bahasına Misirin yeni milli ideyasını müəyyən etdi. Şarl de Qoll "iradə strategiyası"nı dünyaya qəbul etdirdi və s.

Başqa dövlətlərdə fərqli yeni milli məqsəd və ideya qəbul edilmişdir. Lakin onların hamısını birləşdirən bir geosiyasi faktoru H.Kissincer vurğulayır. Onu aşağıdakı kimi ifadə edir: həmin liderlər "yeni üfüqlər açmışlar və "keçid dönəmində olan dünya üçün yeni struktur töhfə vermişlər". Etiraf edək ki, problemin bu tərəfi iki aspektdə mürəkkəb nəzəri mənzərə yaradır.

Birincisi, fəlsəfi və politoloji kontekstdə problemin nəzəri dərki mürəkkəbdir.

İkincisi, konkret Azərbaycanda yeni tarixi mərhələnin başlaması kontekstində fəlsəfi və politoloji təhlil çətin və məsuliyyətlidir. Burada son dərəcə kreativ təfəkkürə ehtiyac vardır. Çünki təəssüflər, Azərbaycanda vurğulanan anlamda tədqiqatlara rast gəlinmir. Biz yalnız bəzi məqamları araşdırmağa çalışacağıq. Bunun üçün üçüncü tezisi təməl ideya kimi götürürük: Prezidentin siyasi təcrübəsini yeni mərhələdə vahid prosesin iki mərhələsi kimi təsəvvür etsək, liderin siyasi təcrübəsinin eksklüziv olaraq milli ideyanın reallaşması–suverenliyin təmini bağlantısının müəyyənedici parametri kimi özünü təsdiq etdiyi qənaətini alarıq. Bu zaman baza prinsiplərin yenilənməsinin prinsipial əhəmiyyət kəsb etdiyini qəbul etməliyik.

## Yenilənmiş baza prinsiplər

Vurğulamışıq ki, 2024-cü ildə yerli televiziya kanallarına müsahibəsində Prezident İlham Əliyev 1993–2003-cü illərdə əldə edilən nəticələri aşağıdakı kimi ümumiləşdirmişdi: 1) dövlətçilik prinsipləri bərqərar olmuşdur; 2) Vətəndaş cəmiyyəti yaradılmışdır; 3) xalq-iqtidar birliyi təmin edilmişdir. Bu nəticələrin hər biri xüsusi nəzəri tədqiq edilməlidir.

Dövlətçilik prinsipləri, vətəndaş cəmiyyəti və cəmiyyət–hakimiyyət birliyi məsələləri müasir siyasi nəzəriyyələrdə və hətta fəlsəfədə müxtəlif aspektlərdə geniş araşdırılır. O cümlədən, liderlik, vətəndaş cəmiyyəti, milli ideya, milli maraqlar və suverenlik arasında bağlılığın fəlsəfi və siyasi-nəzəri tədqiqi aparılır. Lakin bu ümumi nəzəri qənaətlərin konkret olaraq Azərbaycana tətbiqi ayrıca aktual yaradıcı prosesdir. Onların prizmasında İlham Əliyevin siyasi təcrübəsinin milli ideyanın reallaşması və suverenliyin təminində yeri və rolu xüsusi araşdırılmalıdır.

Bu prinsipdən çıxış etsək, ilk sual belə ola blər: Ulu öndər Heydər Əliyevin 1993-2003-cü illərdə həyata keçirdiyi siyasətin məntiqi nəticəsi olan dövlətçilik prinsiplərinin bərqərar olması vətəndaş cəmiyyətinin yaradılması və xalq-iqtidar birliyinin təmini milli ideyanın reallaşdırılmasında (təsdiqi kimi ərazi bütövlüyünün təmini) və suverenliyin tam təminində (2023-cü il 23 saat 41 dəqiqəlik antiterror tədbirləri) müəyyənedici və istiqamətverici funksiyanı yerinə yetirdisə, yeni tarixi mərhələdə həmin nəticələr baza prinsipləri kimi götürülsə, siyasi təcrübə-milli ideya-suverenliyin qarşılıqlı münasibətlərinin nəzəri mənzərəsi necə ola bilər?

Yəni 2020-ci ildən sonrakı mərhələ üçün baza nəticələr rolunu ərazi bütövlüyünün bərpasi və tam suverenlik oynamalıdırlar. Bu yeniləşmiş kriteriyaların kontekstində liderin siyasi təcrübəsi ilə milli ideya və suverenliyin qarşılıqlı əlaqəsinin dinamikasını təhlil etmək aktuallaşır.

Burada faktiki olaraq yeni şərtlər daxilində fərqli sosial, mədəni, siyasi və geosiyasi mühitdə təhlükəsizliklə inkişafın sintezinə nail olmaq lazım gəlir. Həmin kontekstdə H. Kissincerin yuxarıda vurğuladığımız ümumnəzəri prinsiplərinə bir daha baxmaq zəruridir.

## Milli ideya və yeni geosiyasi üfüqlər

H.Kissincerin prinsiplərində liderin yeni milli məqsədlər (və deməli, milli ideya) müəyyən etməsi dövlət, xalq və ölkə qarşısında yeni "geosiyasi üfüqlər" açmalıdır. Bunun nəticələrindən biri isə dünyanın yeni geosiyasi arxitekturasının formalaşmasına töhfə olmalıdır. Onu nəzərə almalıyıq ki, Azərbaycan üçün liderin uğurlu siyasi təcrübəsində ölkənin 2003-cü ildən bu yana keçdiyi yolda əldə edilən nəticələr mayak rolunu oynamalıdır. O cümlədən, milli ideya və suverenliyin postmünaqişə mərhələsində uğurlu təmini liderin siyasi təcrübəsinin məntiqinə tam uyğun olmalıdır. Çünki bu şərt pozulanda dövlətin davamlı və dayanıqlı inkişafı mümkün olmur. Bununla nəzəri olaraq liderin siyasi təcrübəsinin bütövlükdə yeni tarixi mərhələdə milli ideya ilə suverenliyin qarşılıqlı əlaqəsində istiqamətverici rol oynaması zərurəti aydın olur.

Həmin prosesdə məhz milli ideya liderin siyasi təcrübəsindən elə qaynaqlanmalıdır ki, bütövlükdə dövlət, millət və cəmiyyət qarşısında yeni üfüqlər açılsın. Həm də bu prosesin qlobal miqyasda təsiri hiss edilsin. Qlobal miqyasın problemin həllinə daxil edilməsi təsadüfi deyildir. Səbəb onunla bağlıdır ki, müasir mərhələdə bütün dövlətlər bir-biri ilə sıx münasibətdədirlər. Bu şərti nəzərə almadan heç bir ölkə davamlı və dayanıqlı uğurlu inkişaf edə bilməz.

Belə alınır ki, Azərbaycanın yeni tarixi mərhələdə uğurlu inkişafı məsələsi liderin siyasi təcrübəsinin yeni şərtlər kontekstində səmərəli olması ilə sıx bağlıdır. Bu kompleks şərtlər daxilində liderin yeni siyasi təcrübəsi necə formalaşa bilər? Axı, situasiya bütövlükdə çox mütəhərrik, riskli və çoxlu sayda faktorların nəzərə alınmasını tələb edir. Razılaşaq ki, bu cür şərtlər liderdən uğurlu olması üçün böyük məharət tələb edir.

## Milli ideya və suverenliyin yeni sintezi

Prezident İlham Əliyevin siyasi təcrübəsinin zənginləşməsində milli ideya ilə suverenliyin sintezi həmişə aparıcı yer tutmuşdur. Yeni tarixi mərhələdə bu sintezin bir neçə başlıca istiqamətlərini müəyyən etmək lazım gəlir.

Birincisi, İlham Əliyevin yeni tarixi mərhələ üçün milli ideyanın formalaşmasında rolu dəqiq müəyyən edilmişdir. Prezident bu prosesdə aparıcı rol oynamaqdadır. Vətən müharibəsindən sonra müşahidə edilən proseslər göstərir ki, İlham Əliyev milli, regional, regionlararası və qlobal miqyaslarda Azərbaycan dövlətinin uğurlu fəaliyyəti üçün milli ideyanın məzmununu eksklüziv olaraq müəyyən edir. İndiki mərhələdə bu, liderliyin çox qiymətli təcrübəsidir. Onun əlamətləri bütöv bir sistemi təşkil edir. Onların sırasında Azərbaycan liderinin regional və qlobal təşkilatlarda həyata keçirdiyi siyasət, enerji təhlükəsizliyi ilə milli təhlükəsizliyin vəhdətinin daha geniş geosiyasi məkanda təmin edilməsi, dövlətin humanitar fəaliyyətinin genişlənməsi (artıq o, Afrika, Okeaniya, Suriya içərilərinə qədər nüfuz etmişdir), regional və qlobal təhlükəsizlik arxitekturasının formalaşmasında Azərbaycanın iştirakının yüksəlməsi, Türk Dövlətləri Təşkilatının (TDT) güclənməsində aparıcı rol oynaması və digər məqamlar mühüm yer tutur.

İkincisi, Prezident milli ideyanı Azərbaycanın strateji məqsədləri kontekstində müəyyən etməklə suverenliyin təminində yeni səhifə açmış olur. Bu, bir zərurətdir, çünki suverenliyin tam təmini dövlətə milli ideyasını reallaşdırmağa imkan yaradır. Suverenlik pozulduğu halda milli ideya reallaşa bilməz və eyni zamanda, milli ideya adekvat müəyyən eidlməyəndə suverenliyi təmin etmək imkansız olur. Bu da liderin daim Realpolitika çərçivəsində siyasi təcrübəsini zənginləşdirməsi tələbini meydana çıxarır.

Prezident İlham Əliyevin siyasi təcrübəsinin yeni tarixi mərhələdə vurğulanan aspektinə bir konkret misal göstərə bilərik. Məlumdur ki, Azərbaycanın 2030-cu ilə qədər olan strateji inkişaf kursunda qüdrətli dövlətlə yanaşı, yüksək rifah cəmiyyətinin yaradılması əsas məqsəd kimi müəyyən edilmişdir. Yüksək rifah cəmiyyəti mütləq sosial–iqtisadi tərəqqini tələb edir. Deməli, yeni tarixi mərhələdə milli ideya zəruri olaraq "iqtisadi çiçəklənməyə canatma"nı nəzərə almalıdır. Buna imkanı məhz dövlətin tam suverenliyi yarada bilir. Səbəbi sadədir – dövlətin və ölkənin iqtisadi çiçəklənməsinin milli maraqlara uyğun olması üçün ilk növbədə müstəqil siyasət olmalıdır. Müstəqil siyasət suverenliyin məhək daşıdır ki, çoxlu aspektləri ehtiva edir. Deməli, milli ideya yeni tarixi mərhələdə tam suverenliyə daha çox "ehtiyac duyur" – xarici təsirləri və təzyiqləri istisna edir.

## Cəmiyyətin səfərbərliyi, milli ideya və suverenlik

İlham Əliyevin lider kimi siyasi təcrübəsində cəmiyyətin səfərbər edilməsi ayrıca aktuallıq kəsb etmişdir. Bu faktoru Prezident həmişə milli ideyanı səmərəli reallaşdırmaq kontekstində diqqətə almışdır. İlham Əliyev bu zaman əsasən üç istiqamətə üstünlük vermişdir:

– İqtisadi inkişaf;

– Müdafiə qabiliyyətinin möhkəmləndirilməsi;

– Müxtəlif sferlarda islahatların güclü dövlət quruculuğu çərçivəsində aparılması.

Azərbaycan Prezidentinin siyasi təcrübəsində bu üç mühüm istiqamətin cəmiyyətin səfərbərliyinə xidmət etməsi maraqlı və əhəmiyyətli özəllikdir. Bu xüsusiyyəti dövlət başçısı 2024-cü ildə yerli televiziya kanallarına verdiyi müsahibədə, özünün seçki proqramında və başqa tədbirlərdə ümumən aşağıdakı kimi formalaşdırmışdır: "Azərbaycanın inkişafı milli-mənəvi dəyərlərə əsaslanmalı, gənclər milli vətənpərvər ruhda tərbiyə olunmalıdırlar".

Cəmiyyətin səfərbərliyi vurğulanan şərtlər daxilində birbaşa milli ideya kontekstinə tam uyğundur. Buradan isə Prezident İlham Əliyevin siyasi təcrübəsinin başqa çox əhəmiyyətli bir aspektinə məntiqi keçid etmək mümkündür. Həmin aspekt xarici siyasət istiqaməti ilə bağlıdır. Milli ideya kontekstində cəmiyyətin səfərbər olunması strateji inkişafı milli maraqlara uyğun xarici siyasətə peroyeksiya etməyin təməlini müəyyən edir. Yeni tarixi mərhələdə bu, xarici siyasətin suverenliyi gözləməkdə davamlılığı təmin etməyə imkan verir.

Bununla İlham Əliyevin yeni tarixi mərhələdə sosial-iqtisadi tərəqqi, milli ideya və suverenlik arasında vəhdətin yaranması reallaşır. Bu üç mühüm faktor isə eyni zamanda, liderin cəmiyyətdə və beynəlxalq miqyasda legitimliyini inklüzivləşdirir. Liderliyin inklüzivliyi ona olan etibar, inam və etimadın davamlı olmasını təmin edir.

Beləliklə, yeni tarixi mərhələdə Prezident İlham Əliyevin siyasi təcbrübəsi bir-biri ilə sıx bağlı olan bir neçə faktorun qarşılıqlı əlaqəsində formalaşmaqdadır. Əldə edilən nailiyyətlər bu mərhələdə də milli ideyanın reallaşacağına, Azərbaycanın qüdrətli dövlət və yüksək rifah cəmiyyəti məqsədinə tam çatacağına böyük əminlik yaradır!

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

**Xuntaçıların məhkəməsi**

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması, aparılması və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası iyulun 31-də davam etdirilib.**



# Ermənistan hərbçiləri dinc əhaliyə necə divan tuturmuş?

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında zərərçəkmiş Emin Məmmədov 2021-ci il iyunun 4-də Susuzluq kəndində tankəleyhinə minanın partlaması nəticəsində AzTV-nin operatoru Sirac Abışovun, Azərbaycan Dövlət İnformasiya Agentliyinin müxbiri Məhərrəm İbrahimovun və Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndənin müavini Arif Əliyevin şəhid olduğunu, özü də daxil olmaqla 4 nəfərin bədən xəsarətləri aldığını söyləyib. Onunla eyni avtomobildə yaralanmış Şöhrət Cəfərov E.Məmmədovun söylədiklərini təsdiqləyib.

Zərərçəkmiş Ağarza Əmirov 2012-ci ildə Tərtər rayonunun Çaylı kəndində güllə yarası aldığını bildirib. Kamran Namazov isə deyib ki, 2021-ci il mayın 11-də Gədəbəydə minaya düşüb, ayağı amputasiya edilib. Zərərçəkmiş şəxs Səddam Nəsibov K.Namazovun dediklərini təsdiqləyib.

İlqar Həşimov 2020-ci il dekabrın 21-də Zəngilanda minaya düşərək xəsarət aldığını söyləyib. Ramazan Sindiyev 2016-cı ilin avqustun 4-dən 5-nə keçən gecə Lələtəpədə yaralandığını bildirib.

Əfqan Ələkbərli 2023-cü il avqustun 24-də Xocalının Sığnaq kəndində minaya düşərək yaralandığını, Sevda Başirova Vətən müharibəsi zamanı Beyləqan rayonunda qəlpə yaraları aldığını deyib. Fərid Əliyev 2021-ci ilin avqust ayında minatəmizləmə işləri zamanı Ağdamda xəsarətlər aldığını söyləyiblər.

İfadə verən Dəyanət Aslanov, Hacı Muradov, Toğrul Ağayev, Nahid İsfalyev, Müşfiq İbrahimli, Elnur Yusifov, Tərlan Quliyev, Mənsur Babayev, Şirin Abbasov 2020-ci ildə Vətən müharibəsi zamanı müxtəlif tarixlərdə Ermənistan silahlı qüvvələrinin açdığı atəşlər nəticəsində yaralandıqlarını bildiriblər.

Rafis Məmişov və Azad Muxtarov 2021-ci il fevralın 2-də mülki şəxs qismində Füzuli rayonunun işğaldan azad edilmiş hissəsində minaya düşərək xəsarət aldıqlarını deyiblər. Zərərçəkmiş İman Baxşəliyev 2021-ci il martın 13-də Ağdamda qoyun otararkən minaya düşərək sağ ayağını itirdiyini söyləyib.

Zərərçəkmiş Nurəddin Əzizli minatəmizləmə işləri apararkən xəsarətlər aldığını söyləyib. Rahil Dövlətov, Anar Dadaşzadə, Zabil Allahverdiyev, Tural İşiyev, Nicat Alıyev, Səbuhi Həsənov, Elnur Abbaszadə, Elnur Həşimov, Nəsrəddin Vəlicanov, Dəmir Şirinov və Ceyhun Əliyev da Ermənistan silahlı qüvvələrinin təxribatları nəticəsində müxtəlif tarixlərdə zərər çəkdiklərini deyiblər.

Zərərçəkmiş Ələkbər Musayevin atası Əlövsət Musayev oğlunun Vətən müharibəsi zamanı şəhid olduğunu, nəşinin 2021-ci il aprel ayında tapıldığını söyləyib. Asəf Məhərrəmovun atası Bəxtiyar Məhərrəmov övladının Vətən müharibəsində yaralandığını deyib.

Siyasət Allahverdiyev 2022-ci il dekabrın 14-də Kəlbəcərin Çıraq kəndində ekskavatorla işləyərkən mina partlayışı nəticəsində xəsarətlər aldığını söyləyib. Elmxan Baxşalıyev 1992-ci il dekabrın 10-da Zəngilanın Qazançı kəndində əsir götürüldüyünü bildirib. O, dəhşətli işgəncələrə və qeyri-insani rəftara məruz qalıb.



Dəyanət Zahidov 2015-ci ildə Tərtər-Ağdərə istiqamətində, Elxas İsrafilov 2022-ci ildə Laçında hərbi xidmət zamanı Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində xəsarət aldıqlarını bildiriblər. Çingiz Hacıyev söyləyib ki, 1991-ci ildə Xocalının Quşçular kəndində heyvan otaran zaman əlisilahlı ermənilər tərəfindən hücuma məruz qalıb və yaralanıb.

Xalid Dostalıyev 6 nəfər hərbçi ilə birlikdə Murovdağda əsir götürüldüklərini bildirib. Vəlizadə Alışanov 1992-ci il oktyabrın 21-də Sərsəng su anbarının yaxınlığında düşmən tərəfindən pusquya salınması nəticəsində yaralandığını deyib. Onun qardaşı Dağıstan Alışanov da zərərçəkmişin ifadəsini təsdiqləyən hadisə zamanı özünün də yaralandığını söyləyib.

Asif Əhmədov 2020-ci il noyabrın 15-də qardaşı Yasin Əhmədovla birlikdə minaya düşdüyünü bildirib. Onun digər qardaşı Yusif Əhmədov isə 2023-cü ilin sentyabr ayında Azərbaycan Ordusunun keçirdiyi antiterror tədbirləri zamanı şəhid olub.

Zərərçəkmişlər Məhəbbət Quliyev, Elməddin Abıyev, Elnur Kərimov, Maarif Ələskərov, Samir Əsədov, Vüsal Quliyev, Füzuli Məmmədov, Sahib Ağayev, Duman Atayev, Samir Bayramov, Nizami İbrahimov, Alman Abbasov, Ramil Kərəmov, Ələsgər Quliyev, Fərid Cəbrayıllı, Əli Şükürov, Mahir Mustafayev, Samir Gözəlov, Yadigar Şükürov, Nəcməddin Hüseynov, Vüqar Zülfüqarlı, Namaz Bayramov Şükür Tağıyev, Vasif Namazov, Məhərrəm Quliyev də başlarına gətirilən faciələr barədə ifadələr veriblər.

Zərərçəkmişlər təqsirləndirilən şəxslərin, onların və öz nümayəndələrinin suallarını da cavablandırıblar.

Məhkəmə prosesi avqustun 1-də davam etdiriləcək.

*XQ*

# Yeniləşmiş islahat kəndi davamlı inkişafa qovuşdurur

## 270 min hektarda yaradılmış 51 aqropark yeni mərhələnin önündə gedir



**Müasir dövrdə kənd təsərrüfatı sektoru yalnız ərzaq təminatının deyil, həm də ölkənin sosial-iqtisadi sabitliyinin, regionların balanslı inkişafının, məşğulluğun və ixrac potensialının əsas dayaqlarından biri kimi çıxış edir. Azərbaycanın aqrar siyasəti də son illərdə kompleks şəkildə yenilənərək bu sahənin innovasiyalara, rəqəmsallaşmaya və dayanıqlı inkişaf prinsiplərinə uyğun inkişafını hədəfləyir.**

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strategiyalar kənd təsərrüfatının milli iqtisadiyyatda rolunu daha da artırmaq məqsədi daşıyır. Azərbaycanın aqrar siyasətində ərzaq təhlükəsizliyinin təmin olunması, kənd yerlərində rifahın yüksəldilməsi, əkin və maldarlıq sahələrində məhsuldarlığın artırılması, eyni zamanda, ixrac yönümlü istehsalın gücləndirilməsi qarşıya mühüm vəzifə kimi qoyulub. Buna görə də ölkədə subsidiya mexanizmləri təkmilləşdirilib, torpaqdan istifadənin səmərəliliyi artırılıb, aqrar sığorta və dövlət dəstəyi proqramları genişləndirilib.

Yeni dövrün çağırışlarına uyğun olaraq kənd təsərrüfatı məhsullarının emalı və logistikası üzrə klaster əsaslı yanaşma tətbiq olunur. Aqrar sektorun rəqəmsallaşdırılması və süni intellekt texnologiyalarının tətbiqi də siyasətin əsas komponentləri sırasında yer alır.

Ölkənin aqrar sektorunun ən mühüm nailiyyətlərindən biri olan elektron kənd təsərrüfatı informasiya sisteminin (EKTİS) tətbiqi daim diqqətdə saxlanılır. Fermerlərin subsidiya və güzəştli kreditlərə çıxışının sadələşdirilməsi, kənd təsərrüfatı fəaliyyətlərinin daha şəffaf və planlı şəkildə tənzimlənməsi məhz bu sistem sayəsində reallaşdırılır. EKTİS ilə, eyni zamanda, kənd təsərrüfatı statistikasının operativ və dəqiq şəkildə toplanması yerinə yetirilir.

Aqroparkların və kənd təsərrüfatı klasterlərinin fəaliyyətinin diqqətdə saxlanılması da aqrar siyasətin qarşısında mühüm vəzifə kimi qoyulur. Hazırda respublikada 51 aqroparkın yaradılması istiqamətində işlər aparılır. 270 mindən çox hektar ərazini əhatə edən həmin aqroparklarda müasir texnologiyalar əsasında yüksək məhsuldarlığa nail olunur.

Aqroparklar yalnız istehsal deyil, həm də emal, qablaşdırma və ixrac proseslərini özündə birləşdirir. Bu, məhsulların əlavə dəyər qazanmasına və xarici bazarlarda rəqabət qabiliyyətinin artmasına xidmət edir.

Ekspertlərin fikrincə, aqrar sahədə mövcud çətinliklərin aradan qaldırılması, keyfiyyətli məhsul istehsalı və ərzaq təhlükəsizliyinin təmin olunması məqsədilə iki və çoxtərəfli platformalarda əməkdaşlığa xüsusi önəm verilməli, aqrar sektorun əsas hərəkətverici qüvvəsi olan fermerlərin maddi şəraitinin yaxşılaşdırılması daim diqqətdə saxlanılmalıdır. İkitərəfli və çoxtərəfli platformalarda əldə olunmuş razılıqlar kağız üzərində qalmamalı, kağız diplomatiyasından konkret fəaliyyət və icra diplomatiyasına keçilməlidir. Başqa sözlə, qlobal təşəbbüslərin uğurla icrası və aqrar sahədə dayanıqlı inkişafa nail olmaq üçün bütün dövlətlər tərəfindən maliyyə ayrılmasına xüsusi önəm verilməlidir.

Həyata keçirilən aqrar islahatlar bu gün kənd təsərrüfatının inkişafını daha da sürətləndirir və bu məqsədlə dövlət tərəfindən çox böyük dəstək layihələri gerçəkləşdirilir. Bunun nəticəsində fermerlərin həyat səviyyəsi getdikcə yüksəlir, aqrar sahənin dayanıqlı inkişafı təmin edilir.

Qeyd edək ki, Azərbaycan iqtisadiyyatının əsas sahələrindən biri olan kənd təsərrüfatı respublikamızın ərzaq təhlükəsizliyinin gerçəkləşdirilməsində, eləcə də iqtisadi inkişafın təşviqində mühüm rol oynayır. Bununla bərabər ölkədə aqrar sektorun yeni qabaqcıl texnologiyalar əsasında inkişaf etdirilməsi istiqamətində həyata keçirilən layihələr də mühüm önəm daşıyır. Bu baxımdan respublikada torpaq və su ehtiyatlarının məhdud olması şəraitində kənd təsərrüfatında qarşıya qoyulan əsas vəzifələrdən biri də məhsuldarlığı artırmaqla daha böyük istehsal həcmləri yaratmaqdan ibarətdir.

Azərbaycanda hazırda taxılçılıq regionlarında 15 min hektara qədər sahədə innovativ texnologiyalar tətbiqi, rəqəmsal həllərə üstünlük verilməsi məhsuldarlığın və səmərəliliyin artmasına müsbət təsir göstərir. Bu, eyni zamanda, əkin vaxtının dəqiq müəyyənləşdirilməsinə, lazımi gübrələrdən geniş istifadə olunmasına, torpağın nəmliyinin saxlanılmasına və məhsul yığımı üçün optimal vaxta nəzarət etməyə imkan verir.

Ekspertlərin fikrincə, respublikada innovativ texnologiyaların tətbiqi əmək, su, gübrə və ümumilikdə, istehsal xərclərini azaldır, eyni zamanda, istehsalın səmərəliliyini artırmağa əlverişli şərait yaradır. Buna görə də bir çox taxılçılıq təsərrüfatlarında torpaqda nəmliyin qorunub saxlanması və torpaqların alt münbit olmayan qatının üzə çıxarılmaması və yüksək məhsuldarlıq göstəricilərinin gerçəkləşdirilməsi üçün innovativ torpaqqoruyucu texnologiyalardan geniş istifadə edilir. Bu zaman "ağıllı" kənd təsərrüfatı texnikalarından istifadə diqqətdə saxlanılır. Xüsusilə torpaq becərilməsində, torpağın səpinə hazırlanmasında, səpin aparılmasında, gübrələmə və dərmanlama proqramlarının icrasında işlədilən "GPS" naviqasiya sistemləri ilə təchiz olunur.

Azərbaycan əhalisinin, təqribən, yarısının yaşadığı regionlarda kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində həyata keçirilən istənilən tədbir yerlərdə məşğulluğun təminatına mühüm töhfə verir. İqtisadiyyatın qeyri-neft sektorunun inkişafını sürətləndirən fermerlər daxili bazarda məhsul bolluğuna şərait yaratmaqla yanaşı, ölkənin ixrac potensialının artırılmasında da yaxından iştirak edirlər. Bu da ölkədə bitkiçilk və heyvandarlıq məhsullarının istehsalına, ümumi ixracda kənd təsərrüfatı mallarının payının artmasına səbəb olur.

Hazırda fermerlərin maliyyə imkanlarının genişləndirilməsi məqsədilə dövlət tərəfindən çoxsaylı güzəştli maliyyələşdirməyə daha çox üstünlük verilir. Bu baxımdan əkin subsidiyaları, mineral gübrə və pestisidlər üçün güzəştlər, lizinq yolu ilə texnika təminatı, kənd təsərrüfatı sığortası mexanizmləri xüsusilə diqqətdə saxlanılır. Kənd Təsərrüfatı Nazirliyi və Aqrar Kredit və İnkişaf Agentliyi vasitəsilə verilən kreditlər minlərlə kənd təsərrüfatı subyektinin fəaliyyətini gücləndirir.

Azərbaycanda aqrar sektorun iqlim dəyişikliyinin təsirlərinə uyğunlaşdırılması istiqamətində də ciddi tədbirlər görülür. Su ehtiyatlarından daha səmərəli istifadə, damcı suvarma sistemlərinin təşviqi, torpaq münbitliyinin qorunması, ekoloji təmiz məhsul istehsalı bu siyasətin əsas istiqamətlərindən sayılır. Eyni zamanda "yaşıl" kənd təsərrüfatı konsepsiyası tətbiq olunaraq təbiətə minimal təsir göstərən üsullara keçid təşviq olunur.

Ölkəmizdə rəqəmsallaşma və innovativ texnologiyaların tətbiqi də diqqətdə saxlanılır. Çünki yeni texnologiyalara xüsusi önəm verilməsi ilə aqrar sahənin modernləşdirilməsi sürətlənir. Peyk müşahidələri, dronlarla monitorinq, avtomatlaşdırılmış suvarma və gübrələmə sistemləri fermerlərin məhsuldarlığını artırmaqla yanaşı, riskləri də azaldır. EKTİS platforması ilə inteqrasiya olunan bu texnologiyalar informasiya əsaslı qərarların qəbulunu gerçəkləşdirir.

Aqrar siyasət, eyni zamanda, sosial yönümlüdür. Regionlarda yeni təsərrüfat sahələrinin yaradılması kənd yerlərində məşğulluğun artmasına, miqrasiya səviyyəsinin azalmasına səbəb olur. Aqrar sahədə qadınların və gənclərin fəal iştirakı təşviq edilir, ailə fermer təsərrüfatlarına dəstək proqramları reallaşdırılır.

Azərbaycan kənd təsərrüfatı məhsullarının ixrac imkanlarını genişləndirmək üçün beynəlxalq əməkdaşlığa xüsusi əhəmiyyət verir. Rusiya, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Çin və Avropa ölkələrinə meyvə-tərəvəz, şərab və digər məhsulların ixracı artır. Hazırda kənd təsərrüfatı sərgilərində iştirak, beynəlxalq sertifikatların əldə olunması və məhsul keyfiyyətinin artırılması ixracı dəstəkləyən başlıca tədbirlər sırasında yer alır.

Beləliklə, Azərbaycanın aqrar siyasəti kənd təsərrüfatının inkişafını sürətləndirməklə yanaşı, həm də ölkənin sosial və iqtisadi sabitliyinə xidmət edən strateji bir sahə kimi formalaşır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sistemli islahatlar nəticəsində kənd təsərrüfatı dayanıqlı inkişaf yolunda uğurla irəliləyir, fermerlər üçün əlverişli şəraitin yaradılması daim diqqətdə saxlanılır.

# 6 ayda 1,8 milyard dollarlıq qeyri-neft məhsulları ixrac olunub



**Ölkəmizdə ümumi iqtisadi artımın əsas hissəsi neft-qaz strategiyasının uğurlu nəticələri hesabına təmin olunsa da, son illər qeyri-neft sektoru üzrə də xüsusi fəallıq nəzərə çarpır. Bu da Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində həyata keçirilən ardıcıl, məqsədyönlü tədbirlərin məntiqi nəticəsidir.**

Müqayisə üçün qeyd edək ki, 2010-cu ildə ölkəmizin qeyri-neft sektorunda 18,4 milyard manatlıq məhsul istehsal olunduğu halda, 2024-cü ildə bu göstərici 85 milyard 712,4 milyon manata çatıb. Bu sahədə artım tendensiyası 2025-ci ilin birinci yarısında da davam edib.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, bu ilin yanvar-iyun aylarında Azərbaycanda 42 milyard 985 manatlıq qeyri-neft məhsulları istehsal olunub. Ölkənin qeyri-neft sahələrinin inkişaf etdirilməsinin uğurlu nəticələri ixrac əməliyyatlarında da özünü qabarıq şəkildə büruzə verir. 2025-ci ilin yanvar-iyun aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 9,9 faiz artaraq 1,8 milyard ABŞ dolları təşkil edib. Hesabat dövründə yeyinti məhsulları üzrə ixrac 19,1 faiz artaraq 564,7 milyon dollara bərabər olub.

Bu və digər göstəricilər barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin nəşri olan "İxrac icmalı"nın iyul sayında ətraflı bəhs edilib. Nəşrin məlumatına əsasən, cari ilin birinci yarısında ixrac olunan şəkər ötən ilin müvafiq dövrünə nəzərən 7,4 milyon dollar və ya 54,4 faiz, kimya sənayesi məhsulları 48,7 milyon dollar və ya 38,7 faiz, meyvə-tərəvəz 81,2 milyon dollar və ya 24,3 faiz, pambıq iplik 1,8 milyon dollar və ya 16,6 faiz, qara metallar və onlardan hazırlanan məmulatlar 5,1 milyon dollar və ya 12,5 faiz, çay 62,5 min dollar və ya 2 faiz, alüminium və ondan hazırlanan məmulatlar isə 666,8 min dollar və ya 0,7 faiz artıb.

Son illər ölkə iqtisadiyyatının aparıcı sahələrindən sayılan aqrar sektorda istehsalın genişlənməsi daxili bazarın kənd təsərrüfatı məhsulları ilə təminatının yaxşılaşdırılması ilə yanaşı, bu növ malların ixracının da artması ilə müşayiət olunur. "İxrac icmalı"nda qeyd olunduğu kimi, yanvar-iyun aylarında Azərbaycandan 455,2 milyon dollarlıq aqrar və 145 milyon dollarlıq aqrar-sənaye məhsulları ixrac olunub. Bu sahədə müvafiq olaraq 21,9 faiz və 7,7 faiz artım əldə olunub. Bütövlükdə isə, hesabat dövründə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 18,2 faiz çoxalaraq 600,3 milyon dollar təşkil edib.

İlin birinci yarısında ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında ilk yeri 149 milyon dollarla pomidor (tomat) tutub. Bu siyahıda qızıl (144 milyon dollar) ikinci, pambıq (98,6 milyon dollar) isə üçüncü yerdə qərarlaşıb. 2025-ci ilin iyun ayı ərzində ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında da pomidor 35,2 milyon dollarla birinci olub. Siyahıda ilk üçlüyü isə 22,7 milyon dollarla qızıl və 18,8 milyon dollarla təzə albalı və gilas tamamlayıb.

"İxrac icmalı" cari ilin birinci yarısında Azərbaycanın ən çox qeyri–neft məhsulları ixrac etdiyi ölkələrin siyahısını da açıqlayıb. Qeyd olunub ki, yanvar-iyun aylarında Rusiya Federasiyasına 586 milyon dollar, Türkiyəyə 287,2 milyon dollar, Gürcüstana 154,8 milyon dollar, İsveçrəyə 151,5 milyon dollar, Ukraynaya isə 95,8 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mallar ixrac olunub.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin təqdim etdiyi aylıq icmalda, həmçinin qeyri-neft sektoru üzrə cari ilin yanvar-iyun aylarında həyata keçirilmiş ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi təqdim olunub. Hesabat dövrü üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində "MKT İstehsalat Kommersiya" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "Baku Steel Company" QSC, "Export Stream" MMC, "P-AQRO" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Avrora" MMC, "Sahdag SY" MMC, "UYTROP" MMC və "Green Tech" MMC ilk onluqda qərarlaşıb.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlət şirkətlərinin siyahısına ARDNŞ-nin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi başçılıq edir. Siyahıda sonrakı yerləri isə "SOCAR Polymer" MMC, "AzerGold" QSC, "Azəralüminium" MMC, ARDNŞ-nin Qaz İxrac İdarəsi, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "SOCAR-DALĞIC" MMC, "Azərbaycan Dəmir Yolları" QSC, "İstisu" mineral su zavodu MMC və Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti tutublar.

"İxrac icmalı"nın məlumatında Azərbaycanın 2025-ci ilin yanvar–iyun aylarında peyk telekommunikasiya xidmətləri sahəsindəki uğurları ilə bağlı yığcam məlumat da yer alıb. Nəşrin məlumatına əsasən, bu ilin ilk yarısında Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) tərəfindən dünyanın 41 ölkəsinə 8,5 milyon ABŞ dolları dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir isə onun ümumi gəlirlərinin 65 faizini təşkil edib. 2025-ci ilin iyun ayında isə qurum dünyanın 34 ölkəsinə 1,5 milyon ABŞ dolları dəyərində xidmət ixrac edib. Hesabat dövründə peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində 2,3 milyon dollarla Birləşmiş Krallıq, 1,8 milyon dollarla Lüksemburq, 436 min dollarla Nigeriya, 385,1 min dollarla Türkiyə və 357,9 min dollarla Misir qərarlaşıb.

Göründüyü kimi, son illər ölkəmizdə qəbul olunmuş məqsədli dövlət proqramları, əlverişli biznes mühiti, eləcə də uğurlu şaxələndirmə siyasəti qeyri-neft sektorunun inkişafını sürətləndirir. Bu da öz növbəsində ixracın strukturunda qeyri-neft mallarının payının getdikcə artmasına imkan yaradır.

# Pirşağı–Novxanı yolunda da yerüstü keçid qurulur



**Avtomobil Yolları Dövlət Agentliyindən "XQ"yə verilən məlumata görə, Pirşağı-Xırdalan-Novxanı avtomobil yolu layihəsi çərçivəsində sözügedən yolun 19,5-ci kilometrində yerüstü piyada keçidi inşa edilir. İki giriş-çıxışdan ibarət olan keçidin ümumi uzunluğu 59,8 metr, aşırım hissəsinin eni 4 metr, pilləkənlərin eni isə 2 metrdir.**

Yol səviyyəsindən hündürlüyü 5,5 metr olan keçid üstü açıq dəmir-beton konstruksiyalıdır. Keçiddə 2 metr enində oval tipli piyada pandusları da quraşdırılacaq.

Layihə çərçivəsində piyada keçidinin sol və sağ dayaqlarının təməlləri tam şəkildə tikilib, hazırda keçidin sağ dayaqlarının sütunlarının tikintisi işləri aparılır.

# Gəmiqayırma zavodunun Xəzərə çıxışı dərinləşdirilib



**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin gəmiləri "Bakı Gəmiqayırma Zavodu" MMC-nin sifarişi əsasında müəssisənin akvatoriyasında və giriş kanalında aparılan dibdərinləşdirmə işlərini başa çatdırıb.**

Dibdərinləşdirmə işlərinə gəmiçiliyin "Mühəndis Balarza Məmmədov" torpaqqazan, "Bakinskaya-3" və "Bakinskaya-5" torpaqdaşıyan, "Abşeronskaya-5" yedək gəmiləri cəlb olunub. Layihə çərçivəsində 80 min kvadratmetrlik sahədə 1 metr dərinliyə qədər qazma işləri aparılıb. Ümumilikdə isə, 79 min kubmetr süxur çıxarılıb və dəniz dibində 9 metrə qədər dərinlik əldə olunub.

Layihə çərçivəsində 3 ay davam edən işlər nəticəsində ərazidə gəmilərin hərəkəti üçün əlverişli hidrotexniki şərait formalaşıb. Bu isə gələcəkdə iriölçülü gəmilərin körpülərə təhlükəsiz və maneəsiz yanalmasına imkan verəcək.

*Səhifəni hazırladı:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

*Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü*

# Azərbaycan dili milli varlığımızı təcəssüm etdirir

**İstər sosial tərəqqidə, istərsə də milli şüur hadisəsi kimi üstündə "Ana dili" yazılan kitablar daha böyük iş görüb. Bəlkə, buna görə XIX əsrin sonunda maarifçi dalğa şüur, kimlik hərəkatına "Vətən dili" dərsliyini hasilə gətirməkdən başladı. O dərsliyin yetişdirdiyi nəsil sonradan Azərbaycanda milli məfkurənin, dövlət müstəqilliyinin qurucuları oldular. Bu gün ən vacib faktorlardan biri etnomədəni sistem sayılır ki, onu qoruyan amil ilk növbədə, ana dilidir. Bura etnomədəni yaddaş amilini də əlavə etməliyik. Və bu etnomədəni yaddaş, hər şeydən əvvəl dil saflığına borcludur. Onu zədələmək millətin bütövlüyünü, milli kimliyini zədələyə bilər. Bu gün etnomədəni sistemi qorumaq xüsusən, qloballaşmanın milli dil üzərindəki təhdidlərini dəf etməkdə də yardımçı olar.**



Azərbaycanda milli birlik və həmrəylik ideyasının uğurla həyata keçirilməsi azərbaycançılıq idealına xidmətin ifadəsidir. Azərbaycan xalqı anlayışı ilə yanaşı, Azərbaycan dili anlayışının da var olması milli mövqenin qorunub saxlanılması ilə yanaşı, müstəqil dövlətin daxili sabitliyinin təmin edilməsinə, ölkədə yaşayan xalqlar və etnik qruplar arasında tolerantlıq mühitinin formalaşdırılmasına xidmət edir.

Ulu öndər Heydər Əliyev hakimiyyətdə olduğu hər iki dönəmdə dil məsələsinə xalqın milli kimliyini təyin edən ümummilli amil kimi yanaşdı. Yaxşı bilirdi ki, yalnız yaddaşı olan xalq azadlığının qədrini bilər, ləyaqətini qoruyar. Heydər Əliyev üçün "yaddaş-dil-birlik" eyni məna yuvasına daxil olan anlayışlar idi. Ona görə əksər çıxışlarında refren olaraq vurğulayırdı: "Azərbaycan dilinin bundan sonra da inkişaf etməsi mənim həyatımın ən birinci vəzifəsidir. Çünki millətin dilini əlindən alsan, onu öz dilindən məhrum etsən, o millət çox şey itirər. Amma millətin öz doğma dili, ana dili olanda, onu heç nə dəyişdirə bilməz... Bizim gənclərə deyirəm ki, rus dilini yaxşı bilin, ingilis, fars, ərəb, fransız dillərini də yaxşı bilin. Amma bunların hamısından yaxşı öz Azərbaycan dilinizi öyrənin. Əgər bunu bilməsən, sən tam azərbaycanlı olmursan".




Heydər Əliyev həmişə Azərbaycan dilinə, onun siyasi-hüquqi təminatlarına geniş yer vermiş, fərman, qərar və sərəncamlar imzalamış, praktik həlli istiqamə-tində ciddi fəaliyyət göstərmişdir. O, bəyan etmişdir: "Bu gün müstəqil bir dövlət kimi ən fəxr etdiyimiz bir də odur ki, bizim gözəl Azərbaycan dilimiz var. Azər-baycan dilinin formalaşmasında, inkişaf etməsində, bugünki səviyyəyə çatmasında yazıçılarımızın, şairlərimizin, ədəbiyyatşünasların, dilçi alimlərin böyük xidməti var".

Təsadüfi deyil ki, böyük rəhbər ilk "İstiqlal" ordenini Bəxtiyar Vahabzadə, Xəlil Rza və Məmməd Araza verərkən, bu barədə 16 aprel 1995-ci il tarixli çıxışında bu şairlərin dil məsələsinə həssaslıqlarını önə çəkmişdir. Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə, konkret olaraq 1978-ci ildə Azərbaycan dilinin ölkəmizin konstitusiyasına dövlət dili kimi daxil etdirməyə nail olması çağın reallıqları prizmasından yanaşdıqda misilsiz tarixi nailiyyət sayılır. Sovetlər İttifaqında vahid beynəlmiləlçilik prinsiplərinin həyata keçirildiyi bir zamanda Azərbaycan dilinin rəsmi olaraq dövlət dili kimi qəbul olunması çoxəsrlik dövlətçilik tariximizin nadir hadisəsi olmaqla yanaşı gələcək müstəqilliyimizin mühüm təminatlarından birinə çevrildi.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan dilinin dövlət dili kimi tanınması milli kimliyin və mədəniyyətin qorunması istiqamətində atılmış mühüm addımlardan biri olmuşdur. Bu təşəbbüsün konkret nəticəsi 27 aprel 1978-ci il tarixində qəbul olunan Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması oldu. Aydındır ki, 1970-ci illərdə Sovet İttifaqında rus dilinin dominantlığı güclənməkdə idi və ittifaq miqyasında rus dilinin "ümumxalq ünsiyyət vasitəsi" kimi tanınması təşviq olunurdu. Bu şəraitdə respublikaların milli dillərinin arxa plana keçmək təhlükəsi yaranmışdı. Lakin Heydər Əliyev bu təhlükəni vaxtında dərk edərək, Azərbaycan xalqının milli kimliyinin əsas dayaqlarından biri olan ana dilinin qorunması və rəsmi status qazanması istiqamətində qətiyyətli mövqe nümayiş etdirdi.

Bu, Sovet İttifaqı çərçivəsində nadir hallardan biri, milli dəyərlərin qorunmasında mühüm addım idi. Bu təşəbbüsün nəticəsi olaraq Azərbaycan dili dövlət idarəçiliyində, təhsildə və rəsmi sənədləşmədə daha geniş istifadə edilməyə başladı. Dilin hüquqi status alması onun gələcəkdə müstəqil Azərbaycan Respublikasında əsas dövlət dili kimi möhkəmlənməsinə zəmin yaratdı. Milli özünüdərk və mədəni dirçəliş proseslərinə təkan verdi.

Ümumiyyətlə, Heydər Əliyevin hakimiyyətə gəlişinin birinci dövründə, XX əsrin 70-80-ci illərində Azərbaycan ədəbi-ictimai mühitində ana dili məsələləri ge-niş yer tutmuşdur. Xalq şairləri Rəsul Rza, Bəxtiyar Vahabzadə, Xəlil Rza, Məmməd Araz, bir qədər sonra Anar, Elçin və Sabir Rüstəmxanlı kimi sənətkarların ana dili uğrunda apardıqları milli mücadiləyə dövlət səviyyəsində müəyyən üsullarla meydan açılmış və bu, mahiyyət etibarilə xalq arasında və Mərkəzi hökumətdə Azərbaycan dilinin dövlət dili səviyyəsinə qaldırılması üçün ictimai rəyi hazırlamışdır. Dilçi alimlər belə qənaətlərində haqlıdırlar ki, "Heydər Əliyev… Moskva ilə ən uğurlu kompromis şəraitində özünəməxsus "dil siyasəti" yürüdürdü ki, həmin siyasətin başlıca məqsədi ana dilini daha da inkişaf etdirmək, …müstəqil dövlət dilinə çevirmək idi (Nizami Xudiyev)".

Doğrudan da, cəmiyyətdə ana dili uğrunda gedən prosesləri zaman-zaman Mərkəzi hökumətin diqqətinə çatdırmaqla və məsələyə Siyasi Büro səviyyəsində aydınlıq gətirməyi bacarmaqla, Heydər Əliyev hələ sovet hakimiyyəti illərində, 1978-ci ildə Azərbaycan dilinin dövlət dili kimi ölkənin Konstitusiyasına ayrıca maddə kimi daxil edilməsinə nail olmuşdur.

Keçən əsrin 70-ci illərində Heydər Əliyevin Azərbaycanın bir qrup tanınmış dilçi alimlərini – Muxtar Hüseynzadəni, Əlövsət Abdullayevi, Yusif Seyidovu, Ağaməli Həsənovu çoxcildlik "Müasir Azərbaycan dili" dərsliyinə görə respublikanın Dövlət Mükafatı ilə təltif etməsi də elmi-ictimai və ədəbi-mədəni mühitdə ana dilinin mövqeyinin daha da möhkəmləndirilməsinə xidmət sayılmalıdır. Bununla Heydər Əliyev hələ XVI əsrdə Şah İsmayıl Xətai ilə başlanan, zaman-zaman qabarıb-çəkilən ana dili siyasəti məsələsini ilk dəfə tam rəsmi olaraq böyük qətiyyətlə dövlət siyasəti səviyyəsində həyata keçirməklə tamamlamışdır. Ana dili uğrunda aparılan mübarizə öz növbəsində, Azərbaycan cəmiyyətində və ədəbiyyatında millilik məsələsini diqqət mərkəzinə çəkmək, geniş mənada milli azadlıq mövzusunu dəstəkləmək demək idi. Bu proses Azərbaycan ədəbiyyatında ölkənin və xalqın taleyi, milli-mənəvi dəyərlərin əhəmiyyəti kimi mövzuların meydanının genişlənməsinə şərait yaratmışdır.

Ölkəmiz müstəqillik qazandıqdan sonra Heydər Əliyevin ana dili uğrunda apardığı siyasətin miqyası daha da genişlənmiş, bir çox ümummilli məsələlərin dövlət siyasəti səviyyəsində həll edilməsi ilə başa çatdırılmışdır. Bu zaman da Heydər Əliyevin istinad etdiyi əsas qüvvə yazıçı, ədəbiyyat faktoru və şairlər, ya-radıcı ziyalılar olmuşdur. Bu baxımdan böyük yazıçı Cəlil Məmmədquluzadənin 1994-cü ildə keçirilmiş 125 illik yubileyində ana dili məsələlərinə göstərilən xü-susi diqqət həmin sahədəki digər böyük tədbirlərin başlanğıcına çevrilmişdir. Heydər Əliyev görkəmli yazıçı haqqındakı nitqində ədəbiyyatımızın klassiki kimi çox yüksək qiymətləndirdiyi Cəlil Məmmədquluzadənin ana dili uğrunda mübarizəsini müasir dövr üçün də zəruri hesab etmişdir: "Cəlil Məmmədquluzadənin fəaliyyətində ən dəyərli cəhətlərdən biri də Azərbaycan xalqının dilinin inkişafı üçün göstərdiyi xidmətlərdir. Onun daim işlətdiyi "Vətən, Vətən, Vətən! Millət, millət, millət! Dil, dil, dil!" sözləri xalqımızın, millətimizin fikirlərini, arzularını ifadə edir. Ədibin ana dilinə – Azərbaycan dilinə böyük diqqəti, ana dilini bilməyə səsləməsi və ana dilinin, Azərbaycan dilinin hər yerdə hökm sürməsi zəruriliyinə dair fikirləri, yazıları o vaxt üçün vacib idi, bu gün üçün də çox aktualdır. "Anamın kitabı" Azərbaycan üçün çox dahiyanə əsərdir. Çünki … əsrlər boyu ayrı-ayrı istiqamətlərdən xalqımıza təsirlər olmuşdur… Ancaq xalqımızın dahi simaları Azərbaycan dilini, Azərbaycan milliliyini yaşadıb, milli şüurunu, milli məfkurəsini daim yaşatmışdır".

1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası hazırlanarkən dövlət dilinin necə adlandırılması ilə bağlı müxtəlif təkliflər irəli sürülmüşdür. Təkliflərin çox böyük əksəriyyətində ana dilimizin Azərbaycan dili adlandırılması dəstəklənirdi. Geniş müzakirələrdən sonra 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması öz əksini tapmışdır.

Ümummilli lider Heydər Əliyevin xalqımızın ana dilinin necə adlandırılması uğrunda apardığı mübarizə dövlətimizin maraqlarına, respublikamızın reallıqlarına tamamilə uyğun idi. Bu sahədə də qəti fikrə, yekun qənaətə gəlmək üçün Heydər Əliyev Azərbaycan ziyalılarının, o cümlədən ədəbiyyat xadimlərinin dəstəyindən istifadə etməyi zəruri saymışdır. Onun 31 oktyabr 1995-ci ildə Azərbaycan Elmlər Akademiyasında ziyalılarla görüşü zamanı irəli sürdüyü Azərbaycan Konstitusiyasında dövlət dili kimi Azərbaycan dilinin təsbit edilməsi geniş mənada cəmiyyətin marağına, ölkəmizdə yaşayan bütün xalqların və etnik qrupların maraqlarına uyğundur. Azərbaycan dili ideyası Azərbaycanda yaşayan bütün etnik qrupları öz ətrafında birləşdirən bir faktor kimi Azərbaycan yazıçıları tərəfindən müdafiə olunmuşdur.

Müzakirələrdə çıxış edən Nəbi Xəzri, Bəxtiyar Vahabzadə, Anar, Elçin, Qabil, Ağamusa Axundov, Hüseyn Abbaszadə, Sabir Rüstəmxanlı və başqaları müxtəlif fikirlər bildirsələr də, son nəticədə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin meydana qoyduğu Azərbaycan dili anlayışına üstünlük vermiş, haqq qazandırmışlar. Heydər Əliyev ölkə miqyasında ictimai rəyin formalaşdırılmasında yazıçı, ziyalı mövqeyinin əhəmiyyətini əsas götürməklə, müzakirələrdə həmin faktordan geniş istifadə ilə ən məqbul azərbaycançı qərarı formalaşdırmağa nail olmuşdur. Azərbaycan dili ölkə coğrafiyasında yaşayan bütün xalqların vahid danışıq və ünsiyyət vasitəsi, müstəqillik qazanmış Respublikanın dövlət dilinin adı kimi qəbul edilmişdir. Bütün bunlar cəmiyyətdə və ədəbiyyatda Azərbaycançılıq amilinin, ümummilli düşüncənin daha da qüvvətləndirilməsinə səbəb olmuşdur.

Ulu Öndərin "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust tarixli Fərmanına əsasən hər il avqustun 1-i ölkəmizdə Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd edilir. Bu mənada Azərbaycan dilinin qloballaşma dövrünün mənfi təsirlərindən qorunması və inkişaf etdirilməsi istiqamətində Ulu Öndərin səyləri xalqımız üçün əvəzedilməz töhfələrdir.

"Heydər Əliyevin Azərbaycan dili siyasəti çox geniş mənası, elmi-konseptual əsasları ilə, əslində, Azərbaycanı xilasetmə yolunun mühüm tərkib hissəsi idi" (Timuçin Əfəndiyev). Onun müasiri olduğu şair və yazıçılara verdiyi dəyərin zəminində həm də dil amilinin dayandığını görmək çətin deyil. Bu istiqamətdə atdığı bütün addımların - "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqın-da" 18 iyun 2001-ci il tarixli və "Azərbaycan Respublikasında dövlət dili haqqında" 30 sentyabr 2002-ci il tarixli fərmanların əsasında dayanan səbəb xalqın milli varlığını müəyyən edən başlıca amilin ana dili olmasını rəhbər kimi dərk etməsi idi.

"Ədəbi dilə vətəndaşlıq borcu" məqaləsində professor Teymur Əhmədov Heydər Əliyevin fikir və məfkurəni dil siyasətinə doğru yönəltməsindən söz açır. Göstərir ki, Ulu öndər yüzlərlə şagirdi xarici ölkələrdə ali təhsil almağa göndərirdi. Əmin idi ki, onlar mükəmməl təhsilli mütəxəssislər kimi doğma ölkəsinin inkişafına namusla xidmət edəcəklər. 1997-ci il avqustun 29-da Prezident sarayında daxildə və xaricdə ali məktəblərə qəbul olunmuş tələbələrlə görüş keçirilmiş, Heydər Əliyev doğma ana dilimizi, dövlət dilimizi yaxşı bilməyi tövsiyə etmişdir. Ulu öndər bildirirdi: "Hər bir xalq öz dili ilə yaranır. Ancaq bu dili yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadiminin fəaliyyəti nəticəsində mümkün olur".

Əlbəttə ki, Heydər Əliyevin 2001-2003-cü illərdə "Dövlət dilinin tətbiqi işi-nin təkmilləşdirilməsi", "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi", "Azərbaycan Respublikasında dövlət dili haqqında Azərbaycan Respublikası qanununun tətbiq edilməsi haqqında" fərmanları bircə mərama xidmət edirdi: hər bir gənc öz ana dilini incəliklərinə qədər bilsin və bu dildən istifadə etsin. "Biz müstəqil Azərbaycanda Azərbaycan dilini dövlət dili etdiyimiz kimi, cəmiyyətimizdə də, xalqımızın içində də Azərbaycan dilini mütləq hakim dil etməliyik", – deyirdi Ulu öndər!

Dil siyasəti Azərbaycan Prezidenti İlham Əliyevin də siyasi fəaliyyətinin əsas qayəsini təşkil edir. Onun "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamına əsasən 2004-2008-ci illərdə latın qrafikası ilə çap olunacaq əsərlərin siyahısı hazırlanmışdır. Yaxud 2004-cü il 14 yanvar tarixli "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", eləcə də 2007-ci il 30 dekabr tarixli "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında" sərəncamları ilə ana dilinin həyatımızın bütün sahələrində müfəssəl tətbiqi gerçəkləşib. Çıxışlarının birində Prezident İlham Əliyev qeyd edib: "Azərbaycan dili o qədər zəngindir ki, heç bir xarici kəlməyə ehtiyac yoxdur. ... biz əsrlər boyu dilimizi qorumuşuq. Bu gün də qorumalıyıq. Biz Azərbaycan dilinin saflığını təmin etməliyik".

Bütün bunlar göstərir ki, ölkə başçısı Azərbaycan ədəbi dilinə ayrıca diqqət yetirmiş, dilin taleyini diqqət mərkəzində saxlamış, bu istiqamətdə ardıcıl, məqsədyönlü siyasət aparmışdır. Xüsusilə Azərbaycan klassiklərinin, ana dilinin saflığı uğrunda məramla çalışan yaradıcı ziyalıların irsinin qorunması və təbliği yönündə gördüyü işlər Prezidentin Azərbaycan milli ruhuna göstərdiyi ən önəmli xidmət olaraq dəyərləndirilməlidir.

Martin Haydegger dili "varlıq evi" adlandırırdı. Bu, doğrudan da belədir. Xalqın, millətin varoluşunun başlıca şərti, gücü onun dilini qorumaqdır. Bütün yaradıcı resurslar məhz bu amilin yaşarılığına – dilin işığını qorumağa xidmət etməlidir. Səsimizi və sözümüzü gələcək nəsillərə aydın eşitdirmək üçün!

***Elnarə AKİMOVA,***
***Milli Məclisin deputatı,***
***filologiya elmləri doktoru***

# Ana dilimiz xalqımızın mənəvi Vətənidir

## "Əkinçi" qəzetinin dili haqqında

**Həsən bəy Zərdadi ana dilində ilk qəzetimizin nəşrinə icazə almaq və onu necə buraxmaqla bağlı öz müəllimi, o zaman hakim dairələrin yanında "millətin vəkili" sayılan Mirzə Fətəli Axundovla sıx əlaqə saxlamış, onun tövsiyələrini ciddi nəzərə almışdır.**



Həsən bəy həmin qəzetin "Əkinçi" adı ilə nəşrinə icazə aldıqdan sonra dil-uslub məsələləri ilə bağlı ana dilində ilk komediyaların müəllifi ilə məsləhətləşəndə, onu redaksiya ilə əməkdaşlığa dəvət edəndə Mirzə Fətəli gənc davamçısına aşağıdakı məzmunda məktub yazmışdı.

***Axundovun Zərdabiyə məktubu***

Sizin qəzetinizin əsas məziyyətlərindən biri ifadənin gözəlliyi, ibarələrin zərifliyi və aydınlığı, orfoqrafiyanın düzgünlüyü olmalıdır. Çünki sizin qəzetiniz başqa məsələlərlə yanaşı, Azərbaycan yazısını düzgün olmayan ifadələrdən təmizləməyə çalışmalı, bu dildə yazan bütün adamlar üçün nümunə olmalıdır. Orfoqrafiya barədə qoy sizin gələcək redaktorunuz mənim komediyalarımın imla qaydalarını əsas tutsun.

Mən sizin qəzetlə əməkdaşlıq etməkdən boyun qaçırmıram. Qəzetinizin proqramını mənə göndərin.

***Səmimi ehtiram və sədaqətlə, Sizin***
***Mirzə Fətəli AXUNDZADƏ***

**21 aprel 1875-ci il, Tiflis şəhəri**

## Cəlil Məmmədquluzadənin Azərbaycan və ana dili sevgisi

**Realist ədəbiyyatımızın və milli mətbuatımızın sütunlarından biri olan Cəlil Məmmədquluzadə istər bədii yaradıcılığında, istərsə ilk satirik jurnalımız "Molla Nəsrəddin"in nəşrində azərbaycançılıq məfkurəsini əsas tutmuşdur. Bir cümlə ilə ifadə edəsi olsaq, bu təməl üzərində ana dilinin varlığı və bu dildə danışanların bütöv Vətəni ucalmışdır.**




1906-cı ildə "Molla Nəsrəddin"in ilk nömrəsinin "Tiflis 7 aprel" adlı baş məqaləsində Mirzə Cəlil xalqımıza "Sizi deyib gəlmişəm ey mənim müsəlman qardaşlarım!" xitabı ilə başlanan məramnaməsində yazmışdı: "Ey mənim Türk qardaşlarım ki, mən sizlə Türkün açıq ana dili ilə danışıram.

Mən onu bilirəm ki, Türk dili danışmaq eyibdir və şəxsin elminin azlığına dəlâlət edir. Amma hərdənbir keçmiş günləri yâd etmək lâzımdır; salınız yâdınıza o günləri ki, ananız sizi beşikdə yırğalaya-yırğalaya sizə Türk dilində lay-lay deyirdi və siz qulaq ağrısı səbəbinə sâkit olmurdunuz.

Âxırı bîçârə ananız sizə deyirdi:

– Bala, ağlama, xortdan gələr, səni aparar. -Və siz dəxi canınızın qorxusundan səsinizi kəsib, ağlamaqdan sâkit olurdunuz.

Hərdənbir ana dilini danışmaqla keçmişdəki gözəl günləri yâd etməyin nə eybi var?"

1917-ci ildə Rusiyada baş vermiş bolşevik inqilabından sonra I Dünya müharibəsi başlananda fəaliyyəti kağız qıtlığından dayanmış jurnalın nəşrini davam etdirən Cəlil Məmmədquluzadə "Azərbaycan" adlı məqaləsində milli varlığımıza sahib çıxmaq üçün haray qopartmışdı. Ürək qanı ilə yazılmış bu tarixi məqalə böyük demokratın Vətən, Ana dili, milli kimlik düşüncəsini əks etdirməklə əbədi aktuallığını saxlayır.

### Azərbaycan

Ax unudulmuş Vətən, ax yazıq Vətən!

Dünyalar titrədi, aləmlər mayallaq aşdı, fələklər bir-birinə qarışdı, millətlər yuxudan oyanıb gözlərini açdılar və pərakəndə düşmüş qardaşlarını tapıb, dağılmış evlərini bina etməyə üz qoydular.

Bəs sən haradasan, ay biçarə vətən?!

Dünya və aləm dəyişildi, mənalar özgə təbir əxz elədi, yəni bizim dilcə söyləsək, o şeylər ki, əsl mənalarını itirmişdi, qayıdıb əslini tapdı – inna lillahi və inna ileyhi raciun, amma buna hamı qail oldu ki, vətən, vətən, vətən; dil, dil, dil; millət, millət, millət!.. Dəxi bu dairələrdən kənar bəni-noi-bəşər üçün nicat yolu yoxdur.

Bununla bərabər, yəni "bavücude inki" hər söz danışıldı, hər mətləbə əl vuruldu, hamı pəhləvanlarımız öz hünərlərini çıxardılar meydana və lakin bununla bərabər bu qədər var ki, bircə lazımlı söz ki, mənim zəndeyi-zəhləmi aparır – həmin söz Azərbaycan Vətənimin üstündədir.

Bəzi vaxt otururam və papağımı qabağıma qoyub fikrə gedirəm, xəyalata cumuram, özümdən soruşuram ki:

– Mənim anam kimdir?

Öz-özümə də cavab verirəm ki:

– Mənim anam rəhmətlik Zöhrəbanu bacı idi.

– Dilim nə dildi?

– Azərbaycan dili!

– Yəni Vətənim haradır?

– Azərbaycan vilayətidir.

Demək, çünki dilimin adı türk-Azərbaycan dilidir, belə məlum olur ki, Vətənim də Azərbaycan vilayətidir.

– Haradır Azərbaycan?

– Azərbaycanın çox hissəsi İrandadır ki, mərkəzi ibarət olsun Təbriz şəhərindən; qalan hissələri də Gilandan tutub qədim Rusiya hökuməti ilə Osmanlı hökuməti daxillərindədir ki, bizim Qafqazın böyük parçası ilə Osmanlı Kürdüstanından və Bayəziddən ibarət olsun.

***

Bilirsiniz bu söhbət haradan yadıma düşdü? Bu söhbət oradan yadıma düşdü ki, keçən həftə Tiflisdə müsəlmanların Milli Komitəsində bir məsələyə baxılırdı ki, aya, bizim bu məclisdə nə dil ilə gərək müzakirə olunsun? Biri dedi rusca, biri dedi osmanlıca, biri dedi ermənicə. Axırda belə qərar qoydular ki, türk dili müəllimlərinin və müəllimələrinin çoxusu türkcə danışmağı yaxşı bacarmır, bu səbəbdən bunlara izn verilsin ki, rusca danışsınlar.

O ki qaldı rus darülfünunu oxuyub başa çıxan bəzi üzvlər – bunlara da izn verildi ki, rusca danışsınlar. Və həqiqətdə, mən ki, gedib sümük sındırıb illərlə kafirlər içində əlimi murdar professorlara verə-verə elm oxumuşam, insafdırmı ki, bugünkü gündə də oxuduğum elmi gizlədim və rusca danışmayım? Hərçənd məclisdə oturan əsnaflar və hətta axundlar rusca danışılan mətləbləri başa düşmürdülər, cəhənnəmə düşmürdülər, gora düşmürdülər!

* * *

O ki qaldı Bakı qurultaylarında olan səliqə, bu barədə yaxşısı budur ki, heç danışmayım; onsuz da, düşmənimiz çoxdur, xəbərdar olarlar və gəlib baxıb və qurultaylarımızda olan nəzmü nizamı görüb bizə göz vurarlar, çünki nədənsə, bizim bədxahların hamısı bədnəzərdir.

* * *

Ax, gözəl Azərbaycan Vətənim! Harada qalmısan? Gəl, gəl, bir gəl gör bizi zorla rusca danışdıran türk qardaşlar bizdən nə istəyirlər. Ay torpaq çörəyi yeyən təbrizli qardaşlarım, ay keçəpapaq xoylu, meşkinli, sərablı, goruslu və moruslu qardaşlarım, ay bitli marağalı, mərəndli, gülüstanlı qulibiyaban vətəndaşlarım, ey vəhşi ərdəbilli, qəlxanlı bəradərlərim! Gəlin, gəlin, gəlin mənə bir yol göstərin! Vallah ağlım çaşıb! Axır, dünyavü və aləm dəyişildi, hər bir şey qayıdıb öz əslini tapdı, hər mətləbə əl vuruldu, gəlin biz də bir dəfə oturaq və keçə papaqlarımızı ortalığa qoyub bir fikirləşək görək haradır bizim Vətənimiz?!

Gəlin, gəlin, ey unudulmuş Vətənin cırıq-mırıq qardaşları!

Gəlin görək beşikdə yad millətlərin südünü əmmiş, Vətənimizdən yadırğamış və millətimizin ruhundan xəbərsiz bir para millət başçılarımız sizə nə gün ağlayacaqlar?!

Niyə sakitsiz, ey mənim lüt-üryan Vətən qardaşlarım?!.

***"Molla Nəsrəddin",***
***1917, 27 noyabr***

## Haqverdiyev və ana dilimiz

**1933-cü ildə dünyasını dəyişmiş böyük yzazıçı-dramaturq, "Molla nəsrəddin"çi publisist Əbdürrəhim bəy Haqverdiyev ana dilində yazıb-yaratmağın ciddi və düşünülmüş bir örnəyini yaratmışdır. O ömrünün son dövründə bu barədə qeydləri qələmə alsa da, onun çap etdirməyə ömrü çatmamışdı. Ədibin ölümündən 4 ay sonra həmin yazı yeni nəşrə başlamış "Ədəbiyyat" qəzetində işıq üzü görmüşdü. Bu məqaləyə sonrakı dövrdə ana dilimizlə bağlı tədqiqat və müzakirələrdə davamlı olaraq mötəbər mənbə kimi müraciət edilib.**

### Ədəbi dilimiz haqqında



Axır zamanlarda ədəbi türk dili məsələsi yomiyyə bir məsələ surətdə meydana çıxmışdır. Azərbaycan türklərinin ədəbi bir dili varmı, ya yoxmu? Bu xüsusda bir neçə kəlmə söyləmək istəyirəm. Mənim aşağıda yazdığım sözlər mübahisəyə səbəb olarsa – daha da gözəl.

1905-ci il inqilabınadək Azərbaycanda ədəbiyyat yoxluğunu cürətlə etiraf etmək olar. Nərimanovun, Qənizadənin və mənim tərəfimizdən beş-üç kitabça buraxılmışdırsa da bunlar dəryada bir qətrə hesab oluna bilərdilər. Türk dilində qəzetə və jurnal çıxarılmasına sabit çar hökuməti qəti olaraq icazə verməyirdi.

Türklərin bir mətbəəsi yox idi. Quberniya mətbəəsində türk hürufatı var idisə, o da xırda elanlar tərcüməsi üçün olub, bərbad bir halda idi. Bu səbəbdən məktəblərdə tədris kitabları və camaatın oxuduğu kitablar ancaq "Leyli və Məcnun", "Gülüstan", "Bustan", "Tarixi-Nadir" və bu qəbil İranda çap olunmuş və əksəri fars dilində yazılmış kitablar idi. Buna görə də fars dili türk dilini tam mənasilə ağalıq edirdi. O vaxtın xalqı türk dilində məktub yazmağı bacarmazdılar, məktublar hamısı fars dilində yazılırdılar.

Danışıq əsnasında işlətdiyimiz cümlələr fars quruluşunda olurdu. Məsələn: "Qəzetlərdən yazılanlardan böylə görünür ki, bu il Azərbaycanın pambıq məhsulu bol olacaqdır", "Mən sənin evinə gəlmərəm, çünki səndən incimişəm", "Hərgah mənə kağız yazmaq istəsən, bu ünvana yaz" və ilax...

Danışıq vaxtında fars ləfzlərinin çox işlənməsi indi də savadlılığa dəlil hesab olunur. Fars dilinin təsiri sayəsində türk istilahlarını itirib, fars istilahlarını işlətməyə möhtac olmuşuq. Bu istilahları arayıb tapmaq üçün ciddi çalışmaq lazımdır. Azərbaycan türk aləmində birinci dəfə meydana çıxmış kitab Mirzə Fətəlinin komediyaları və "Aldanmış kəvakib" sərlövhəli hekayəsidir.

Komediyaları Azərbaycanın el dilində yazılmış, hekayə isə fars əlfazının və ibarələrinin çoxluğundan lüğətsiz çətin oxunur. Öz tərcümeyi-halını Mirzə Fətəli fars dilində yazmış, 70-ci və 80-cı sənələrdə təsadüfi olaraq Rusiya çar hökuməti iki-üç qəzetəyə icazə veribsə də, sonra peşman olub, onları bir neçə ay davamlarından sonra qapamış. Bu qəzetlərin biri 1875-ci sənədə Bakıda nəşr olunan Həsən bəy Zərdabinin "Əkinçi"si və ikincisi Tiflisdə 1883-cü ildə çıxan "Kəşkül" və "ZiyayiQafqaz" qəzetləri idi. Bu iki qəzetənin naşiri Cəlal əfəndi Ünsizadə idi.

"Əkinçi" qəzetəsinin iki dili var idi. Zərdabinin dili və mühərrirlərinin dili. Həsən bəyin işlətdiyi cümlələrin çoxusu rus cümlələrindən çöndərmə idi; müxbir və mühərirləri isə fars cümələri və fars dili işlədirdilər. Cəlal əfəndinin "Kəşkül"ünü həmçinin lüğətsiz oxumaq çətin idi. Odur ki, bu qəzetlər də bir ədəbi dil yarada bilmədilər.

90-cı illərdə ortalığa atılıb ədəbiyyatla məşğul olmaq istəyən ziyalılarımız (özümü də o cümlədən hesab edirəm) iki tərəfdən də avara olub məcburən rus ədəbiyyatı təsiri altına düşüb, türk dilində rus cümlələri işlətməyə üz qoydular. Böylə ziyalılarımız indi də az deyildir.

Bir neçə cümlə göstərmək yersiz olmaz. "O adamlar hansılar ki, bu işdə iştirak edirlər", "Mənim qardaşım tarda yaxşı oynayır", "Əhmədin qızı ərə çıxdı", "Bu işin müqabilində bir ölçü götürmək lazımdır" və ilax... Dilə qarışmış hədsiz rus sözlərindən danışmağa ehtiyac yoxdur.

Ədəbi dilin yoxluğundan əlavə indiyədək, türk Azərbaycan ləhcəsinin bir mükəmməl sərfi və nəhvi yoxdur. Ədəbi dil haradan ola bilər? Kitablarımızda, qəzetlərimizdə sərf-nəhv qəvaidini indi də düzgün işlətməyirik. Bu xüsusda xüsusi məqalə hazırlayıram.

Sultan Əbdülhəmid zamanında Osmanlı ədibləri hökumətin təhriki altında Osmanlı türk ədəbiyyatının cəmi türk aləminin ədəbiyyatına ağalıq etməsi yolunda cidd-cəhd edirdilər. Azərbaycanda ədəbiyyat olmadığından bu yerlərə əl atmayırdılar. Öylə ki, 1905-ci il inqilabından sonra Azərbaycanda ədəbiyyat yolunda böyük bir hərəkət əmələ gəldi: mətbəələr quruldu, qəzetələr intişara başladı, ədiblərin fəaliyyətləri yüksəldi; maarif cəmiyyətləri, dram dərnəkləri təşkil olundu, ədəbiyyat kitablarının sayı günündən artmağa başladı.

Bunu gördükdə Osmanlı ədəbiyyatının ağalıq xülyası cünbüşə gəldi. Bu əsası icra etmək üçün bir neçə nəfər İstanbuldan Azərbaycana ezam olundu.

Əlibəy Hüseynzadə, Əhməd Kamal, Səbribəyzadə Xalid Ziya və sairləri. Birinci Əlibəy Hüseynzadə "Füyuzat"ı nəşrə başlayıb, türk Azərbaycan dilini osmanlılaşdırmağa qədəm qoydu. Bunun müqabilində "Molla Nəsrəddin"in amansız mübarizəsi nəticə verə bilmədi və yazıçı gənclərin çoxunu Əlibəy öz nüfuzu altına çəkdi. Əlibəydən sonra Əhməd Kamal "Yeni Füyuzat" jurnalının başında əyləşib Əlibəy yolu ilə getdi. 1910-cu illərdə Səbribəyzadə "Şəlalə" jurnalı ilə meydana atıldı. Bu adam, ondan qabaq gələnlər kimi işlədiyindən əlavə ən mürtəce, qaranlıq sevən, tərəqqi düşməni; qadınlar təsəttürü yolunda canından, başından keçən bir şəxs idi. Bu jurnalın təsirindən cavan ədiblərimiz və şairlərimiz indi də azad ola bilməyirlər. Cavan yazıçılarımızın şeirlərini oxuyanlar bunu təsbid edərlər. Gənclərimiz özləri hiss etməyərək Azərbaycan qulağını deşən ləfzləri istemal edirlər. Bu sözlər türk sözləri isə də bizim üçün yabançıdır və əvəzlərində başqa türk sözlərimiz də var. Məsələn: "sırt" – çiyin, "erkək" – kişi. "Ərkək" sözü Azərbaycan türkü təsəvvüründə heyvaniyyəti təşkil edən bir sözdür.

Şura hökuməti bərpa olunandan bəri Azərbaycanda ədəbiyyatın, mətbuatın sayı yüz əlli sənənin müddətində görülməmiş bir dərəcəyə çıxmış. Türkləşmiş orta, ali məktəblərdə türk dilində yazılmış və tərcümə olunmuş elmi kitablar işlənməkdədir. Söz yox ki, bu kitabların dilində ədəbi qüsurlar hədsizdir. Bu qüsurlar da dilin ədəbiləşməsinə nə qədər ziyan verə bilər.

Buna görə Xalq Maarif Komissarlığı yanında, ya Ümumittifaq Akademiyasının Azərbaycan şöbəsində xüsusi bir təşkilat, Azərbaycan türk lisanı üçün mükəmməl sərf-nəhv və əbədi dil yaratmaq üçün qurulmalıdır.

**"Ədəbiyyat" qəzeti,**
**16 aprel 1934-cü il**

## Ana dilim ölən deyil

**Xalq artisti, ustad muğam ifaçısı Əlibaba Məmmədovun ifasında xalqa çatdırılan bu məşhur şeirin bəstəçisi də müğənninin özü idi. Bəs ana dilimizin, sanki, portretini çəkmiş, qüdrətini poetikləşdirmiş bu mənzumənin müəllifi kimdir?**



Bir neçə il əvvəl redaksiyamızda bununla maraqlananda hərə ana dilində şerləri ilə məşhur olan bir şairin adını çəkdi. Bəs konkret müəllif kimdir? Bu sualla həmin şeiri öz ifasında bir az da məşhurlaşdırmış sevimli qiraət ustamız Ağalar Bayramova üz tutduq. O dedi ki, mən mətni Əlibaba müəllimin ifasından götürmüşəm. Ondan öyrənib sizə deyərəm.

Əlibaba müəllim bildirib ki, neçə illər əvvəl həmin şeiri Ağcabədinin bir kəndində bir ədəbiyyat müəllimi ona verib. Əvvəl o qədər əhəmiyyət verməsə də, sonra şeiri diqqətlə oxuyub heyran qalıb. Başlayıb zümzümə etməyə və belə nadir bir əsər ərsəyə gəlib. Sonrakı axtarışlarımızdan məlum oldu ki, həmin müəllif Ağcabədinin Kəhrizli kəndinin müəllimi Vaqif Kəhrizli imzası ilə şeirlər yazan el şairidir.

Təəssüf ki, sağlığında Vaqif müəllimlə görüşə bilmədik. Rayonda sonuncu dəfə onu axtaranda isə dedilər ki, bu Vətən və ana dili sevgisinə himn qoşmuş şair 66 yaşında dünyasını dəyişib. Allah rəhmət eləsin, Ana dili günümüzdə ruhu şad olsun!

Qoy hamı bilsin ki, "Ana dilim ölən deyil!" şeiri kimin qəlbindən süzülüb ölkəmizə yayılıb.

### Ana dilim ölən deyil

*Aylar ötür, il dəyişir,*
*Gedən geri dönən deyil.*
*Laçın könlüm pərvaz edir,*
*Səmasından enən deyil.*

*Bir dağam ki, göydə başım,*
*Çox qədimdir mənim yaşım.*
*Alovlansa bircə daşım,*
*Milyon illər sönən deyil.*

*Azərbaycan – mənim elim,*
*Azərbaycan – mənim dilim.*
*Doğransa da dilim-dilim*
*Başqa dilə çönən deyil.*

*Həm Arazam, həm də Kürəm,*
*Axıb Xəzərə töküllləm.*
*Dilim ölsə, mən də öllləm*
*Ana dilim ölən deyil.*

*Vaqif deyər aram-aram,*
*Şairlikdə mən də varam.*
*Öz dilimlə bəxtiyaram,*
*Onsuz üzüm gülən deyil,*
*Ana dilim ölən deyil.*

***Səhifəni hazırladı:***
***Tahir AYDINOĞLU***
***XQ***

# "Qərbi Azərbaycan irsi"nin təqdimat marafonu






**Sumqayıt Şəhər İcra Hakimiyyətinin və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə Sumqayıt Dövlət Dram Teatrında "Qərbi Azərbaycan irsi: Ermənistanda azərbaycanlıların maddi-mədəni irsinin – qəbiristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair hesabat və materiallar" kitabının I cildinin təqdimat mərasimi keçirilib.**

Mərasimdən öncə iştirakçılar Heydər Əliyev adına Mərkəzi Parkda Ümummilli liderin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüblər. Daha sonra teatrın foyesində rəsm sərgisinə baxış keçirilib və "Qərbi Azərbaycan irsi" tədqiqatlar seriyasına dair videoçarx nümayiş etdirilib.

Tədbiri giriş sözü ilə açan Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının 1-ci müavini Teymur Səmədov bildirib ki, yalnız keçmişin sənədləşdirilməsi deyil, həm də gələcəyə hesablanan milli yaddaş layihəsi olan bu kitab xalqımızın yaddaşına, məcburən ayrıldığı torpaqlarla bağlı tarixi gerçəkliyə və haqqa söykənən səsinin beynəlxalq ictimaiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət daşıyır.

Sumqayıt Dövlət Universitetinin rektoru vəzifəsini icra edən, AMEA-nın müxbir üzvü, professor Əminağa Sadıqov çıxışında "Qərbi Azərbaycan irsi" kitabını ciddi elmi-tədqiqat əsəri kimi dəyərləndirib. Onun sözlərinə görə, bu nəşr tarixi ədalətin bərpası, azərbaycanlıların soy-kökünün sənədləşdirilməsi və dünya ictimaiyyətinə çatdırılmasına xidmət edir.

Qərbi Azərbaycan İcması Ziyalılar Şurasının üzvü, Əməkdar jurnalist, professor Xalid Niyazov qeyd edib ki, təqdim olunan kitabda yer alan sənədlər, fotoşəkillər və arxiv materialları Ermənistan ərazisində azərbaycanlılara məxsus tarixi və mədəni irsin məqsədyönlü şəkildə məhvə məruz qaldığının sübutudur. İcmanın Sumqayıt nümayəndəliyinin rəhbəri Ramiz İsmayılov, Dövlət İdarəçilik Akademiyasının rektorunun müşaviri Zaur Məmmədov və digərləri çıxışlarında bildiriblər ki, bu kitabda toplanan məlumatlar yalnız tarixi gerçəkliyin üzə çıxarılması üçün deyil, həm də gələcək nəsillərin yaddaşında Qərbi Azərbaycanın mədəni dəyərlərini yaşatmaq məqsədi daşıyır. Bu cür tədbirlər isə Qərbi azərbaycanlıların geri dönüş əzmini daha da gücləndirir.

Mərasimdə xüsusi vurğulanıb ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi xəttin davamı olaraq Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bu işlər yaxın gələcəkdə Qərbi azərbaycanlıların öz torpaqlarına qayıdacağına dərin inam yaradır.

***XQ***

*Kino aləmində*

# Milli kinomuzun yeni mükafatçıları

**Azərbaycan Kinematoqrafçılar İttifaqı (AKİ) kino xadimlərinin peşə bayramı olan 2 Avqust Azərbaycan Kinosu Günü münasibətilə mükafatlandırdığı kinematoqrafçıların adlarını açıqlayıb.**




Yaradıcı qurumun katibliyinin qərarına əsasən, bu il üçün AKİ-nin ənənəvi mükafatına Pərviz Həsənov "Başlıbel – bir kəndin mühasirə gündəliyi" tammetrajlı sənədli filminin uğurlu rejissor həllinə görə, Daniel Quliyev "Kinomexanikin qayıdışı" və "Tənha insanın monoloqu" filmlərinin uğurlu vizual həllinə görə, Səbuhi Atababayev "Tağıyev: Neft" və "Bəlkə də" tammetrajlı bədii filmlərində uğurlu rəssam işinə görə və Fehruz Şamıyev Beynəlxalq film festivallarının təşkili, kinematoqrafiyamızın beynəlxalq əlaqələrinin inkişafında xidmətlərinə laureat elan olunublar.

Qeyd edək ki, məqsədi milli kinoda müsbət tendensiyaları dəyərləndirmək olan AKİ-nin mükafatı hər il milli kinematoqrafiyanın inkişafında xidmətləri ilə fərqlənmiş yaradıcı şəxslərə verilir. Nominantların seçimi zamanı ötən kino mövsümü ərzində gedən prosesi diqqətlə təhlil olunur, kinematoqrafiyanın müxtəlif sahələrindəki xidmətləri əsas götürülür və laureatlar açıq səsvermə yolu ilə seçilir. Bu vaxta qədər Xalq yazıçısı Anar, kino rəssamı Firəngiz Qurbanova, diplomat və ictimai xadim Ramiz Abutalıbov, kino və televiziya rejissoru Nazim Rza İsrafiloğlu, aktyor Fuad Poladov, səs rejissoru Əsəd Əsədov, aktyor Fərhad İsrafilov, kinorejissor Murad İbrahimbəyov, kinorejissor Cahangir Zeynallı, operator Yuri Varnovski, bəstəkar Rauf Əliyev, rejissor Mirbala Səlimli, kinoşünas Sevda Sultanova, aktrisa Zülfiyyə Qurbanova, rejissor İlkin Yusif, animator Rəşid Ağamalıyev, prodüser İntiqam Hacılı, rejissor və prodüser Əli-Səttar Quliyev, prodüser Emil Nəcəf, aktyor Rasim Cəfər, prodüser Orxan Mərdan və başqa peşəkarlar bu nüfuzlu mükafata layiq görülüblər.

***XQ***

# Şəki hamamları da canlı tarixdir

**Bu gün ölkə ərazisində memarlıq abidəsi kimi qorunan tarixi hamamlar öz funksionallığını itirsə də, xalqın adət-ənənələrinin, etnoqrafiyasının daşıyıcısıdır. Son dövrlərdə İsmayıllı rayonunda Basqal hamamının, Şuşada "Şirin su" hamamının bərpa olunması, bir daha sübut edir ki, hamam mədəniyyəti ümumi Azərbaycan mədəniyyətinin bir parçasıdır. Şəki hamamları da bu sıradandır.**





Bütün müsəlman Şərqində olduğu kimi, Azərbaycanda da yalnız təmizlik üçün nəzərdə tutulmayıb, həm də ictimai həyatın mühüm bir hissəsi olan hamamlar əsasən məscidlərə yaxın və bəzən onlara bitişik şəkildə inşa edilmişdir. XIX əsrdə isə hamamlar həm varlı şəxslər üçün qazanc mənbəyi kimi, həm də ehsan məqsədilə tikilir və adətən sahibinin adı ilə tanınırdı.

Hazırda Şəki şəhəri ərazisində tarixi əhəmiyyətə malik 5 hamam – Məmmədnəbi (Dərə), Ağvanlar (Qoçu Abbas), Abdulsalam (Yeraltı/Pendir), Abdulxalıq və Hacı Qəni (Qışlaq) hamamları memarlıq abidəsi kimi qorunub saxlanılır. Bu hamamlar Şərq memarlığına xas ənənəvi planlaşma tərtibatına – içəri, bayır, xəznə və külxana kimi funksional bölmələrdən ibarət struktura malikdir. Şəki hamamlarının ən mütərəqqi cəhətlərindən biri də təknəfərlik, "nömrə" adlanan xüsusi çimmə otaqlarının olmasıdır. Bununla belə Şəkidə hər bir hamam özünəməxsus memarlıq detalları və tərtibat elementləri ilə seçilir. 1846-cı ildə dərc edilmiş "Kavkaz" qəzetinin 24-cü nömrəsində Şəki memarlığından bəhs olunarkən onun hamamları haqqında yazılmış kiçik bir qeyd bu tarixi abidələrin dəyərini anladır: "İçərisi kifayət qədər incə, gözəl və bir rəngdə rəsmlərlə bəzədilmiş hamamlar".

"Kavkaz" qəzetinin 27 iyun 1898-ci il tarixli, 167-ci nömrəsində keçmiş Şəki xanlığından bəhs edən İ.Seqal Şəki əhalisinin hamama olan münasibəti belə təsvir edir: "Nuxanın (Şəki) şəhər əhalisi hamama getməyi, avropalıların klublara getməyi sevdiyi qədər sevir. Hətta qadınlar hamama gedərkən ən gözəl paltarlarını geyinir, bahalı baş geyimləri ilə bəzənirlər". Məhz bu sevginin nəticəsi olaraq şəkili misgərlər "hamam seyfi" adlanan xüsusi portativ qablar hazırlamışlar. Bu mücrülərin üzərində müxtəlif həndəsi və nəbati ornamentlərlə yanaşı, qəzəl janrının görkəmli nümayəndələrindən biri sayılan Sədi Şirazinin hamam şeiri də nəşq olunurdu. Bu isə hamamın Şəkidə yalnız gigiyena məkanı olmadığını, həm də mədəni və ictimai həyat məkanı olduğunu göstərir.



Şəkidə əhali arasında ictimai hamamlar "el hamamı" adlanmış, onların inşasında əsrlər boyu Şərqdə mövcud olan qədim ənənələr qorunub saxlanmışdır. XIX əsrin ikinci yarısında hamamların memarlıq həllində Avropa təsiri də hiss olunmağa başlamışdır. Avropa memarlığı yalnız hamamların ümumi planlaşdırılmasına və interyer tərtibatına deyil, həm də fasad dizaynına təsir göstərmişdir. Əvvəllər yalnız günbəzdə yerləşən pəncərə açırımları və ya dairəvi yarıqlar vasitəsilə işıqlandırılan hamamlar, XIX əsrin ikinci yarısından etibarən fasad divarlarında açılan pəncərələr sayəsində daha işıqlı hala gətirilmişdir.

Şəkinin tarixi hamamlarından biri Məmmədnəbi hamamıdır. Bu hamam yer səthindən bir qədər dərinlikdə tikilmiş və fasadı olduqca sadə həll edilmişdir. Lakin memarlıq baxımından diqqət çəkən əsas element binanın giriş hissəsinin portal şəklində olmasıdır. İkipilləli sivri açırımlı portal içərisində yerləşən kiçik giriş bu hamamı digər tarixi hamamlardan fərqləndirir. Cümə məscidi kompleksinə daxil olan Abdulsalam hamamı da portal şəkilli girişə malikdir. Lakin Abdulsalam hamamının giriş hissəsi daha möhtəşəm və dekorativ həllər ilə zənginləşdirilmişdir.

Şəkinin tarixi mərkəzində yerləşən Ağvanlar hamamı ölkə əhəmiyyətli tarixi memarlıq abidəsi olaraq dövlət tərəfindən mühafizə olunur. XIX əsrin sonlarında tikilmiş Ağvanlar həmin dövrdə Şəkidə fəaliyyət göstərən beş hamamdan biri olub. Hamam ənənəvi strukturda, yerli inşaat materialları çay daşı və kərpiclə tikilib. İki böyük günbəzi olan hamamın ümumi dam örtüyü kirəmitdəndir. Hamam iki böyük düzbucaqlı hissədən ibarətdir ki, bu hissələr də öz növbəsində kiçik otaqlara ayrılıb. Hamamda soyunma otağı, çimmək üçün ümumi zal, bir nəfərlik xüsusi otaq, paltar qurudan otaq və dəhliz var.

Ağvanlar hamamının giriş qapısının üzərində nəsx xətti ilə yazılmış kitabə ərəbdilli epiqrafik abidələrin oxunması üzrə mütəxəssis, AMEA Şəki Regional Elmi Mərkəzinin əməkdaşı Habil Xəlilov tərəfindən tədqiq edilib və yazı haqqında aşağıdakı rəy verilib: "Kitabənin yuxarı künc hissəsində çaylaq daşına 1316 tarixi və döymə üsulu ilə üç sətir içərisində Qurani Kərimdən Əl-Qələm surəsinin 51-52 ci ayətləri hәkk olunmuşdur. Kitabədə qeyd olunan 1316 (1898) çox güman ki, abidənin tikinti tarixidir.

Şəkidə toydan qabaq bəyin və ya gəlinin hamama aparılması bir ənənə idi. Qışlaqlı qadınlar Abdulsalam hamamına gedirdilər. Qışlaq hamamı da planlaşdırma baxımından digər ənənəvi Şəki hamamlarına bənzər struktura malik olmuş və yerli inşaat materiallarından istifadə edilərək inşa edilmişdir. Digər gigiyenik məkan – Hacı Qəni hamamı haqqında qeyd olunması vacib nüanslardan biri də onun təknəfərlik, nömrə hissəsinin kiçik günbəzlə örtülməsidir. Bu hamamın funksionallığına və istifadəçilərin rahatlığına xüsusi əhəmiyyət verilmişdir.

Hazırda Şəkidə fəaliyyət göstərən yeganə hamam "Abdulxalıq hamamı"dır. XIX əsrin əvvəllərində inşa olunmuş hamamın adının bərbər Abdulxalıqla bağlı olduğu rəvayət olunur. Bu abidə fasadında yerləşən lövhədə ülgüc, qayçı, "Məşədi İbad" personajının təsviri ilə maraq yaradır.

***Zəminə RƏSULOVA,***
***Dövlət Turizm Agentliyi Qoruqları İdarəetmə Mərkəzinin elmi işçisi***

*Tarixdə izi qalanlar*

# Gəncənin 15 əsrlik Comərd Qəssab əfsanəsi



**Gəncə qədim şəhərdir. Təkcə daşları, qalaları, min illik məscidləri ilə yox – ruhuyla, dastanlarıyla, insanlarıyla. Bu şəhərdə hər döngənin, hər məzarlığın, hər qədim qapının arxasında bir tarix yatır. Və o tarixlərin içində biri var ki, zaman onu əfsanəyə çevirib. Bu, Comərd Qəssabdır.**

Comərd Qəssab – adı ilə özü qədər böyük bir insan. 7–8-ci əsrlərdə yaşamış bu şəxs təkcə Gəncənin deyil, bütün Azərbaycanın mənəvi yaddaşında mərdliyin, ədalətin, səxavətin rəmzinə çevrilib.

Adı "qəssab" olsa da, onun qılıncı qətldən daha çox ədalət üçün qınından çıxıb. Comərd elə bir insan olub ki, halal zəhmətlə qazandığını ehtiyacı olanla bölüşməkdən çəkinməyib. Qapısı kasıba, yolçuya, dərdliyə daim açıq olub. Onun haqq və vicdanla dolu ömrü xalq arasında o qədər məşhurlaşıb ki, qısa zamanda "xalq qəhrəmanı", "Gəncənin qoruyucusu" kimi anılmağa başlayıb.

Comərd Qəssab barədə heç bir tarixi mənbədə məlumat yoxdur. Gəncə sakinləri arasında yayılan rəvayətə görə, Comərd şəhərin qədim məhəllələrindən birində qəssablıq edər, əhaliyə ət satar, heç bir tərəzidən istifadə etmədən əti dəqiq və düzgün ayırarmış. Onun haqqında danışılan bir əfsanədə deyilir ki, şəhəri talan etməyə gələn düşmənlərə qarşı təkbaşına müqavimət göstərib. Deyilənə görə, Comərd qılıncını çəkməzdən əvvəl dua oxuyar, "Haqsızdan qoru məni, ey Haqq!" – deyə yalvararmış.

...Bugünkü Gəncədə, qədim türbəylə əhatələnmiş bir səssizlik var. Bu, Comərd Qəssabın məzarının yerləşdiyi yerdir. Türbə illər boyu yadigar qalıb – nəinki daşlarıyla, həm də içində yaşatdığı ruhla. Əvvəllər unudulmuş, baxımsız halda olan bu abidə son illərdə ikinci nəfəsini tapıb.

2005-ci ildə, Heydər Əliyev Fondunun təşəbbüsü və Mehriban xanım Əliyevanın birbaşa dəstəyi ilə Comərd Qəssabın türbəsi bərpa edildi. Bu, təkcə bir abidənin restavrasiyası deyildi – bir mənəviyyatın, bir qəhrəmanın yenidən xalq yaddaşında doğulması idi. Fondun həyata keçirdiyi bu missiya, Gəncənin qədim tarixinə göstərilən hörmətin bariz nümunəsi kimi yadda qaldı.

Bərpa işləri zamanı türbənin ətrafı abadlaşdırıldı, ziyarətçilər üçün şərait yaradıldı. İndi buranı ziyarət edən insanlar sadəcə qədim bir məzarı görmür – burada tarixə, mərdliyə, ədalətə baş əyirlər.

Comərd Qəssabın adı bu gün də Gəncədə ehtiramla çəkilir, məktəblərdə şagirdlərə onun igidliyi haqqında danışılır. Gəncə gəncliyi Comərd kimi comərd, dürüst, qorxmaz olmağa can atır.

Comərd Qəssab yalnız bir əfsanə qəhrəmanı deyil – o, tarixdə izi olan, xalq tərəfindən tanınan, zamanla yoğrulmuş bir şəxsiyyətdir. Onun həyatı – bir millətin xasiyyətinin, bir şəhərin ruhunun təcəssümüdür. Bu gün türbəsinin qarşısında durub dua edən yaşlı nənənin dodaqlarında pıçıltı ilə "Allah Comərd Qəssabdan razı olsun!" deməsi onun bu xalqın qəlbində necə yaşadığını göstərir.

Tarix bizə əmanətdir. Hər bir daş, hər bir yazı, hər bir türbə əcdadın bizə dediyi söz kimidir. Comərd Qəssabın türbəsi də belə bir mirasdır. Və bu mirasın qorunması sadəcə dövlətin, aidiyyəti orqanların işi deyil. Bu, həm də xalqın vicdan məsələsidir. Tarixi qorumaq təkcə bərpa etmək deyil, onu yaşatmaq, onun mənasını gələcək nəsillərə ötürməkdir. Comərd Qəssab türbəsi də belə bir ruhani yerdir ki, yalnız daşlarla deyil, münasibətlə qorunmalıdır. Bu münasibət daha da genişləndirilməlidir. Məktəblərdə Comərd Qəssabla bağlı açıq dərslər, mədəniyyət evlərində onunla bağlı hekayələr səsləndirilə bilər. Turist bələdçiləri bu məkanı təkcə tarixi abidə kimi yox, mənəvi məkan kimi təqdim etməlidirlər.

Ən əsası Comərd Qəssabın adını qəlbdə yaşatmaqdır. Onun ədaləti, comərdliyi, xalqına sədaqəti hər birimizin həyatında örnək olarsa, bu türbə daşla yox, insanla yaşayacaq. Çünki bəzi insanlar ölür, unudulur.Bəziləri isə ölür – əfsanəyə çevrilir.

Comərd Qəssab ikinci qisimdəndir.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Gəncə**

# Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

# QƏRAR

## № 3-27/3-7-5/2025

**Bakı şəhəri** **17 iyul 2025-ci il**

**“Azərbaycan Respublikası Ticarət Gəmiçiliyi Məcəlləsinin 61.5-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman Agentliyinin dəniz nəqliyyatı sahəsində göstərdiyi xidmətlərə görə haqqın məbləğləri”nin təsdiq edilməsi haqqında**

“Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1066-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 2 nömrəli Fərmanının 3.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə”nin 3.0.7-ci yarımbəndini və 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. “Azərbaycan Respublikası Ticarət Gəmiçiliyi Məcəlləsinin 61.5-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman Agentliyinin dəniz nəqliyyatı sahəsində göstərdiyi xidmətlərə görə haqqın məbləğləri” təsdiq edilsin (əlavə olunur).

2. Hüquq şöbəsinə tapşırılsın ki, bu Qərarın qəbul edildiyi gündən 3 (üç) gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

3. Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

**Kollegiyanın sədri, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev**

**Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2025-ci il 17 iyul tarixli 3-27/3-7-5/2025 nömrəli Qərarı ilə təsdiq edilmişdir.**

**Azərbaycan Respublikası Ticarət Gəmiçiliyi Məcəlləsinin 61.5-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman Agentliyinin dəniz nəqliyyatı sahəsində göstərdiyi xidmətlərə görə haqqın məbləğləri**

| Sıra nömrəsi | Xidmətin adı | Ölçü vahidi | Məbləği (manatla, ƏDV daxil) |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| 1. | Gəminin (kiçikhəcmli gəmi istisna olmaqla) tikintisi, konstruksiyasında dəyişikliklər, dəniz limanının (o cümlədən yükaşırma terminalının, yanalma körpüsünün) və dəniz əməliyyatları bazasının inşası və yenidən qurulması ilə bağlı layihələrin, dəniz limanlarının (onun hidrotexniki qurğularının) və dəniz əməliyyatları bazasının fəaliyyətə başlamağa hazırlıq səviyyəsinin qiymətləndirilməsi | | |
| 1.1. | Gəminin (kiçikhəcmli gəmi istisna olmaqla) tikintisi ilə bağlı layihələrin qiymətləndirilməsi | hər gross ton üçün | |
| 1.1.1. | Ümumi tutumu 500 gross ton və daha az olan gəmilər üçün | 1 gross ton | gəminin ümumi tutumu (gross ton ilə) x 2 manat |
| 1.1.2. | Ümumi tutumu 501 gross tondan 3000 gross tonadək olan gəmilər üçün | 1 gross ton | 1000 manat (500 gros ton x 2 manat) + gəminin 500 gross tondan yuxarı hər gross tonuna görə 1,5 manat |
| 1.1.3. | Ümumi tutumu 3001 gross tondan 10000 gross tonadək olan gəmilər üçün | 1 gross ton | 4750 manat (500 gros ton x 2 manat + 2500 gros ton x 1,5 manat) + gəminin 3000 gross tondan yuxarı hər gross tona görə 1,20 manat |
| 1.1.4. | Ümumi tutumu 10001 gross tondan 20000 gross tonadək olan gəmilər üçün | 1 gross ton | 13150 manat (500 gros ton x 2 manat + 2500 gros ton x 1,5 manat + 7000 gross ton x 1,20 manat) + gəminin 10000 gross tondan yuxarı hər gross tona görə 0,90 manat |
| 1.1.5. | Ümumi tutumu 20001 gross tondan 50000 gross tonadək olan gəmilər üçün | 1 gross ton | 22150 manat (500 gros ton x 2 manat + 2500 gros ton x 1,5 manat + 7000 gross ton x 1,20 manat + 10000 gross ton x 0,90 manat) + gəminin 20000 gross tondan yuxarı hər gross tona görə 0,70 manat |
| 1.1.6. | Ümumi tutumu 50001 gross ton və daha çox olan gəmilər üçün | 1 gross ton | 43150 manat (500 gros ton x 2 manat + 2500 gros ton x 1,5 manat + 7000 gross ton x 1,20 manat + 10000 gross ton x 0,90 manat + 30000 gross ton x 0,70 manat) + gəminin 50000 gross tondan yuxarı hər gross tona görə 0,50 manat |
| 1.2. | Gəminin (kiçikhəcmli gəmi istisna olmaqla) konstruksiyasında dəyişikliklər ilə bağlı layihələrin qiymətləndirilməsi | hər gəmi üçün | |
| 1.2.1. | Gəminin (kiçikhəcmli gəmi istisna olmaqla) konstruksiyasında nəzərdə tutulan dəyişikliklərdə quraşdırılan avadanlığın çəkisi boş gəminin su basımının 1%-ni keçmədikdə | 1 ədəd gəmi | 500 manat |
| 1.2.2. | Gəminin (kiçikhəcmli gəmi istisna olmaqla) konstruksiyasında nəzərdə tutulan dəyişikliklərdə quraşdırılan avadanlığın çəkisi boş gəminin su basımının 1%-ni keçdikdə | 1 ədəd gəmi | 500 manat + gəminin hər qross tonuna görə 0,50 manat |
| 1.3. | Dəniz limanının inşası və yenidən qurulması ilə bağlı layihələrin qiymətləndirilməsi | 1 dəniz limanı üçün | 10000 manat |
| 1.3.1. | o cümlədən yükaşırma terminalının və yanalma körpüsünün inşası və yenidən qurulması ilə bağlı layihələrinin qiymətləndirilməsi | 1 yükaşırma terminalı və ya yanalma körpüsü üçün | 2500 manat |
| 1.4. | Dəniz əməliyyatları bazasının inşası və yenidən qurulması ilə bağlı layihələrin qiymətləndirilməsi | 1 dəniz əməliyyatları bazası üçün | 2500 manat |
| 1.5. | Dəniz limanlarının (onun hidrotexniki qurğularının) fəaliyyətə başlamağa hazırlıq səviyyəsinin qiymətləndirilməsi | 1 dəniz limanı üçün | 5000 manat |
| 1.6. | Dəniz əməliyyatları bazasının fəaliyyətə başlamağa hazırlıq səviyyəsinin qiymətləndirilməsi | 1 dəniz əməliyyatları bazası üçün | 3000 manat |
| 2. | Gəmilərin (kiçikhəcmli gəmi istisna olmaqla) beynəlxalq konvensiyaların tələblərinə uyğun illik, həmçinin gəmi sahibinin təşəbbüsü ilə aralıq müayinəsinin həyata keçirilməsi | | |
| 2.1. | Gəmilərin (kiçikhəcmli gəmi istisna olmaqla) beynəlxalq konvensiyaların tələblərinə uyğun illik müayinəsi | hər gəmi üçün | |
| 2.1.1 | Ümumi tutumu 500 gross ton və daha az olan gəmilər üçün | 1 ədəd gəmi | 50 manat |
| 2.1.2 | Ümumi tutumu 501 gross tondan 3000 gross tonadək olan gəmilər üçün | 1 ədəd gəmi | 100 manat |
| 2.1.3 | Ümumi tutumu 3001 gross tondan 10000 gross tonadək olan gəmilər üçün | 1 ədəd gəmi | 250 manat |
| 2.1.4 | Ümumi tutumu 10001 gross tondan 20000 gross tonadək olan gəmilər üçün | 1 ədəd gəmi | 350 manat |
| 2.1.5 | Ümumi tutumu 20001 gross tondan 50000 gross tonadək olan gəmilər üçün | 1 ədəd gəmi | 450 manat |
| 2.1.6 | Ümumi tutumu 50001 gross ton və daha çox olan gəmilər üçün | 1 ədəd gəmi | 500 manat |
| 2.2. | Gəmi (kiçikhəcmli gəmi istisna olmaqla) sahibinin təşəbbüsü ilə gəminin aralıq müayinəsinin həyata keçirilməsi | hər gəmi üçün | |
| 2.2.1. | Ümumi tutumu 500 gross ton və daha az olan gəmilər üçün | 1 ədəd gəmi | 380 manat |
| 2.2.2. | Ümumi tutumu 501 gross tondan 3000 gross tonadək olan gəmilər üçün | 1 ədəd gəmi | 1380 manat |
| 2.2.3. | Ümumi tutumu 3001 gross tondan 10000 gross tonadək olan gəmilər üçün | 1 ədəd gəmi | 1880 manat |
| 2.2.4. | Ümumi tutumu 10001 gross tondan 20000 gross tonadək olan gəmilər üçün | 1 ədəd gəmi | 2380 manat |
| 2.2.5. | Ümumi tutumu 20001 gross tondan 50000 gross tonadək olan gəmilər üçün | 1 ədəd gəmi | 2880 manat |
| 2.2.6. | Ümumi tutumu 50001 gross ton və daha çox olan gəmilər üçün | 1 ədəd gəmi | 3380 manat |
| 3. | Dəniz limanının və ya dənizçilik şirkətinin beynəlxalq konvensiyaların tələblərinə uyğunluğunun, limanın, onun infrastruktur obyektlərinin mühafizə planlarının adekvatlığının, aidiyyəti digər planların və (və ya) təlimatların qiymətləndirilməsi | | |
| 3.1. | Dəniz limanının “Gəmi və Liman Vasitələrinin Mühafizəsi haqqında Beynəlxalq Məcəllə”nin tələblərinə uyğunluğunun qiymətləndirilməsi | 1 dəniz limanı üçün | 5000 manat |
| 3.2. | Dənizçilik şirkətinin “Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə”nin tələblərinə uyğunluğunun qiymətləndirilməsi | 1 dənizçilik şirkəti üçün | 3000 manat |
| 3.3. | Dəniz limanının, onun infrastruktur obyektlərinin mühafizə planlarının adekvatlığının qiymətləndirilməsi | 1 ədəd üçün | 250 manat |
| 3.4. | Gəmi tullantılarının idarə edilməsi planının qiymətləndirilməsi | 1 ədəd üçün | 500 manat |
| 3.5. | Aidiyyəti digər planların və (və ya) təlimatların qiymətləndirilməsi | 1 ədəd üçün | 250 manat |
| 4. | Gəmiyə dəniz mobil identifikasiya və ya peyk rabitə stansiyası nömrələrinin verilməsi | | |
| 4.1. | Gəmiyə dəniz mobil identifikasiya nömrəsinin verilməsi | 1 ədəd üçün | 300 manat |
| 4.2. | Gəmi peyk rabitə stansiyası nömrəsinin verilməsi | 1 ədəd üçün | 300 manat |
| 5. | Gəmi heyəti üzvlərinə sertifikatların (diplomların) verilməsi, həmçinin etibarlılıq müddəti bitmiş sertifikatların (diplomların) yenisi ilə əvəz edilməsi üçün beş dəfə ödənişsiz təşkil edilən imtahanlardan sonra təkrar imtahanlarda iştiraka buraxılma | | |
| 5.1. | Sahilboyu üzgüçülükdə istismar olunan və qross tonnajı (ümumi tutumu) 500-dən az olan gəmilərdə kapitanın növbə köməkçisi | 1 dəfə iştirak üçün | 25 manat |
| 5.2. | Sahilboyu üzgüçülükdə istismar olunan və qross tonnajı (ümumi tutumu) 500-dən az olan gəmilərdə kapitan | 1 dəfə iştirak üçün | 25 manat |
| 5.3. | Qross tonnajı (ümumi tutumu) 500 və çox olan gəmilərdə kapitanın növbə köməkçisi | 1 dəfə iştirak üçün | 25 manat |
| 5.4. | Qross tonnajı (ümumi tutumu) 500-dən 3000-ə qədər olan gəmilərdə kapitanın baş köməkçisi | 1 dəfə iştirak üçün | 25 manat |
| 5.5. | Qross tonnajı (ümumi tutumu) 500-dən 3000-ə qədər olan gəmilərdə kapitan | 1 dəfə iştirak üçün | 25 manat |
| 5.6. | Qross tonnajı (ümumi tutumu) 3000 və çox olan gəmilərdə kapitanın baş köməkçisi | 1 dəfə iştirak üçün | 25 manat |
| 5.7. | Qross tonnajı (ümumi tutumu) 3000 və çox olan gəmilərdə kapitan | 1 dəfə iştirak üçün | 25 manat |
| 5.8. | Baş mühərriklərinin ümumi gücü 750 kVt-dan az olan gəmilərdə növbə mexaniki | 1 dəfə iştirak üçün | 25 manat |
| 5.9. | Baş mühərriklərinin ümumi gücü 750 kVt-dan az olan gəmilərdə baş mexanik | 1 dəfə iştirak üçün | 25 manat |
| 5.10. | Baş mühərriklərinin ümumi gücü 750 kVt və daha çox olan gəmilərdə növbə mexaniki | 1 dəfə iştirak üçün | 25 manat |
| 5.11. | Baş mühərriklərinin ümumi gücü 750 kVt-dan 3000 kVt-a qədər olan gəmilərdə ikinci mexanik | 1 dəfə iştirak üçün | 25 manat |
| 5.12. | Baş mühərriklərinin ümumi gücü 750 kVt-dan 3000 kVt-a qədər olan gəmilərdə baş mexanik | 1 dəfə iştirak üçün | 25 manat |
| 5.13. | Baş mühərriklərinin ümumi gücü 3000 kVt və daha çox olan gəmilərdə ikinci mexanik | 1 dəfə iştirak üçün | 25 manat |
| 5.14. | Baş mühərriklərinin ümumi gücü 3000 kVt və daha çox olan gəmilərdə baş mexanik | 1 dəfə iştirak üçün | 25 manat |
| 5.15. | Baş mühərriklərinin ümumi gücü 750 kVt və daha az olan gəmilərdə gəmi elektrik mexaniki | 1 dəfə iştirak üçün | 25 manat |
| 5.16. | Baş mühərriklərinin ümumi gücü 750 kVt və daha çox olan gəmilərdə gəmi elektrik mexaniki | 1 dəfə iştirak üçün | 25 manat |
| 5.17. | Qlobal dəniz fəlakət və əmniyyətli rabitə sisteminin məhdud rayon operatoru | 1 dəfə iştirak üçün | 25 manat |
| 5.18. | Qlobal dəniz fəlakət və əmniyyətli rabitə sisteminin ümumi rayon operatoru | 1 dəfə iştirak üçün | 25 manat |
| 5.19. | 2-ci dərəcəli gəmi radioelektroniki | 1 dəfə iştirak üçün | 10 manat |
| 5.20. | 1-ci dərəcəli gəmi radioelektroniki | 1 dəfə iştirak üçün | 10 manat |
| 5.21. | Gəmi radio operatoru | 1 dəfə iştirak üçün | 10 manat |
| 5.22. | Gəmi həkimi | 1 dəfə iştirak üçün | 10 manat |
| 5.23. | Kapitanın yanğın təhlükəsizliyi üzrə köməkçisi | 1 dəfə iştirak üçün | 10 manat |
| 5.24. | Kapitanın sərnişin üzrə köməkçisi | 1 dəfə iştirak üçün | 10 manat |
| 5.25. | Növbə matrosu | 1 dəfə iştirak üçün | 10 manat |
| 5.26. | İxtisaslaşmış matros | 1 dəfə iştirak üçün | 10 manat |
| 5.27. | Bosman | 1 dəfə iştirak üçün | 10 manat |
| 5.28. | Növbə motorçusu | 1 dəfə iştirak üçün | 10 manat |
| 5.29. | İxtisaslaşmış motorçu | 1 dəfə iştirak üçün | 10 manat |
| 5.30. | Gəmi elektriki | 1 dəfə iştirak üçün | 10 manat |
| 5.31. | Gəmi aşpazı | 1 dəfə iştirak üçün | 10 manat |
| 5.32. | Gəmi kran operatoru | 1 dəfə iştirak üçün | 10 manat |
| 5.33. | Gəmi kranmeysteri | 1 dəfə iştirak üçün | 10 manat |
| 5.34. | Donkerman | 1 dəfə iştirak üçün | 10 manat |
| 5.35. | Stüard (bufetçi, xidmətçi, sərnişin gəmilərində bort baxıcısı, ofisiant, növbətçi v.s.) | 1 dəfə iştirak üçün | 10 manat |
| 5.36. | Gəmi çilingəri | 1 dəfə iştirak üçün | 10 manat |
| 5.37. | Gəmi qaynaqçısı | 1 dəfə iştirak üçün | 10 manat |
| 5.38. | Gəmi tornaçısı | 1 dəfə iştirak üçün | 10 manat |

**Qeydlər:**

**1.** Dəniz limanının inşası və yenidən qurulması ilə bağlı layihələrin qiymətləndirilməsi zamanı bu Cədvəlin 1.3-cü bəndində və 1.3.1-ci yarımbəndində qeyd edilən xidmət haqları topanılaraq xidmət haqqının ümumi məbləği hesablanır. Mövcud dəniz limanlarında yükaşırma terminallarının və yanalma körpülərinin inşası və yenidən qurulması ilə bağlı layihələrin qiymətləndirilməsi zamanı yalnız bu Cədvəlin 1.3.1-ci yarımbəndində qeyd edilən xidmət haqqı məbləği tətbiq edilir.

**2.** Gəmilərin beynəlxalq konvensiyaların tələblərinə uyğun illik, həmçinin gəmi sahibinin təşəbbüsü ilə aralıq müayinəsinin həyata keçirilməsi zamanı bu Cədvəlin 2-ci hissəsində qeyd edilən xidmət haqlarına müayinə predmeti olan gəminin yaşından asılı olaraq aşağıdakı əmsallar tətbiq edilərək xidmət haqqının ümumi məbləği hesablanır:

2.1. 1-5 yaş – 1 əmsal;
2.2. 6-10 yaş – 1,2 əmsal;
2.3. 11-20 yaş – 1,4 əmsal;
2.4. 21 yaş və daha yuxarı – 2 əmsal.

**3.** Bu Cədvəlin 2-ci hissəsində qeyd edilən xidmətlər “Gəmi və Liman Vasitələrinin Mühafizəsi haqqında Beynəlxalq Məcəllə”nin, “Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə”nin tələblərinə uyğun həyata keçirilən müayinələri, həmçinin dövlət liman və bayraq nəzarəti çərçivəsində həyata keçirilən yoxlamalardan sonra gəmi sahibinin təşəbbüsü ilə həyata keçirilən müayinələri də əhatə edir.

**4.** Bu Cədvəlin 1.1-ci, 1.2-ci, 3.2-ci bəndlərində və 2-ci hissəsində qeyd olunan xidmətlər Azərbaycan Respublikasının hüdudlarından kənarda həyata keçirildikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman Agentliyinin həmin xidmətlərin göstərilməsinə cəlb edilmiş əməkdaşlarına “Ezamiyyə xərclərinin normaları haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 nömrəli Qərarı ilə müəyyən edilmiş ezamiyyə xərclərinin normaları üzrə hesablanmış məbləğ xidmət haqlarına əlavə olaraq xidmət istifadəçiləri tərəfindən ödənilir.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 158 (30852) 1 avqust 2025-ci il, cümə

# Çempionlar Liqasına doğru

## “Qarabağ” yoluna inamla davam edir

**İrlandiyadakı ilk oyundan böyük hesablı (3:0) qələbə ilə dönən “Qarabağ” Bakıda da “Şelburn”a qalib gələrək (1:0) çətinlik çəkmədən UEFA Çempionlar Liqası 3-cü təsnifat mərhələsinə yüksəlib. Yarışın liqa mərhələsinə, necə deyərlər, iki addım qalıb. Amma komanda ən azı UEFA Konfrans Liqasının əsas mərhələsinə düşməyi təmin edib.**







Çempionlar Liqası 3-cü təsnifat mərhələsində rəqib isə Şimali Makedoniyada dörd illik fasilədən sonra çempionluğu qazanmış “Şkendiya” olacaq. Oyunlar avqustun 5-də rəqib meydanında və 12-də Bakıda keçiriləcək.

“Şkendiya” daha əvvəl UEFA Avropa Liqasının seçmə mərhələlərində “Neftçi” (2016-cı ildə 1:0, 0:0) və “Sumqayıt”dan güclü olub (2020-ci ildə 2:0). Bu komanda əvvəllər ən yaxşı halda üç dəfə Avropa Liqasının pley-offunda oynasa da, heç vaxt qrup/liqa mərhələsinə çıxa bilməyib. Belə baxanda, rəqib əlverişlidir. Amma “Qarabağ”ın son oyunları bir qədər düşündürür.

Bakıda “Şelburn”la cavab oyununda “Qarabağ” bütün statistik göstəricilərdə üstünlük əldə etsə də, real təhlükəli vəziyyətlərin sayı az idi, komanda hücumda “dişsiz” görünürdü. Baş məşqçi Qurban Qurbanov da bunu etiraf edir - komanda optimal formada deyil. Kadi Borgesin penaltidən yararlana bilməməsi də oyunun ümumi ab-havasını əks etdirirdi. Amma baş məşqçi bu məqamı dramatikləşdirmir. Həqiqətən də, penalti futbolun bir hissəsidir və dünyanın ən yaxşı oyunçuları belə uğursuzluğa düçar ola bilirlər. Əsas məsələ, bu cür epizodların oyunçunun psixologiyasına mənfi təsir etməməsidir.

İstənilən halda, həmin Kadi, eləcə də kapitan Abdullah Zubir əvvəlki formalarında deyillər. Komandada dinamika azalıb, temp aşağı düşüb. Zədəli Marko Yankoviçun yoxluğu da meydandakı hərəkəti, ötürmələrin ritmini xeyli dərəcədə təsirləndirir. “Qarabağ”a hücum xəttində liderlik edə biləcək forvard lazımdır. Əgər məqsəd Çempionlar Liqasının liqa mərhələsidirsə - və məqsəd, şübhəsiz ki, budur – bu heyətlə bu səviyyədə mübarizə aparmaq çox çətin olacaq.

“Qarabağ” ardıcıl 12 mövsümdür avrokuboklarda qrup/liqa mərhələsinə vəsiqə qazanır. Bu, təsadüfi deyil - məşqçi işinin və düzgün strategiyanın nəticəsidir. Amma hər sabitlik bir nöqtədən sonra yenilənməyə ehtiyac duyur. Komanda bu mərhələdədir.

“Qarabağ” bu gün Azərbaycanın təkcə ən güclü klubu deyil, həm də futbolda ümidin və sistemli inkişafın simvoludur. Amma futbol yalnız keçmişlə yaşamaq deyil, gələcəyi də planlamaq lazımdır. “Şkendiya” ilə oyunlar bu gələcəyin hansı səviyyədə olacağını göstərəcək.

Əgər transferlər vaxtında baş tutsa, oyunçular forma yığsa və taktiki planda rəqiblərə uyğun çeviklik göstərilsə, “Qarabağ” üçün Çempionlar Liqasının əsas mərhələsi tam real ola bilər. Amma bu məqsədə çatmaq üçün zaman az, iş isə çoxdur…

*Rasim MÖVSÜMOV*
*idman icmalçısı*

## İDMAN

### Avrokuboklarda 150 qələbə



**Peşəkar Futbol Liqasının rəsmisi bildirib ki, Çempionlar Liqasının II təsnifat mərhələsində “Qarabağ”ın “Şelburn”u udması ilə Azərbaycan klublarının avrokuboklardakı qələbə sayı 150-yə çatıb. 150-ci qələbə 477-ci matça təsadüf edib.**

Azərbaycan təmsilçiləri Çempionlar Liqasında 38, Avropa Liqasında (əvvəl UEFA Kuboku) 82, Konfrans Liqasında 21, İntertoto Kubokunda 9 dəfə azarkeşlərini sevindirib. Qələbələrdən 87-si evdə, 63-ü səfərdə əldə olunub.

Qeyd edək ki, ölkə komandalarının avrokuboklarda ilk qələbəsi 1996-cı il iyulun 17-nə təsadüf edib. Həmin gün “Neftçi” Sofiya “Lokomotiv”ini Bakıda 2:1 hesabı ilə məğlub edib.

### Atletimizin Madriddə 2 gümüş medalı

**Azərbaycan ağırlıqqaldıranı Muhəmmədəli Məmmədzadə (88 kq) İspaniyanın paytaxtı Madriddə təşkil olunan U-15 Avropa birinciliyində 2 gümüş medal qazanıb. Bu barədə Azərbaycan Ağırlıqqaldırma Federasiyasının mətbuat xidmətindən məlumat verilib.**




Son yarış günündə mübarizəyə qoşulan idmançı birdənqaldırma hərəkətində 122 kq nəticə ilə ikinci olub. Daha sonra təkanlaqaldırma hərəkətində 147 kq çəkinin öhdəsindən gəlib. İki hərəkətin cəmində 269 kq nəticəyə imza atan atlet yenidən gümüş medal qazanıb.

### “Azərreyl”in yeni oyunçusu

**“Azərreyl”in qadınlardan ibarət voleybol komandasına yeni oyunçu cəlb edilib. Komandanın mətbuat xidmətinin məlumatına görə, klub istedadlı idmançı İlhamə Əzimova ilə anlaşıb.**



Qeyd edək ki, 26 yaşlı hücumçu ilə müqavilənin müddəti növbəti mövsümü əhatə edəcək. Klubun rəhbərliyi heyəti bundan sonra da gücləndirmək niyyətindədir.

*M.HACIXANLI*
*XQ*

## Hava

### Avqustun ilk gününün havası

**Milli Hidrometeorologiya Xidmətindən mətbuata verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin günəşli keçəcəyi gözlənilir. Cənub-şərq küləyi əsəcək.**

Havanın temperaturu gecə 23-27, gündüz 34-38 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 755 millimetr civə sütunu, nisbi rütubət isə gecə 70-80, gündüz 40-50 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı, gecə və səhər arabir duman olacağı ehtimalı var. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 23-27, gündüz 35-39, bəzi yerlərdə 41 dərəcəyədək, dağlarda gecə 15-20, gündüz 28-33 dərəcə isti olacaq.

*Q.QASIMOV*
*XQ*

***✓ 2022-ci il sentyabrın 19-da Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən Bayramov İlknur Fərhad oğlunun adına verilmiş DSX seriyalı, 0007313 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***

***✓ 2024-cü il aprelin 26-da Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Baş İdarəsi tərəfindən müddətdən artıq xidmət edən hərbi qulluqçu Mövsümov Əli Elşad oğlunun adına verilmiş DQ seriyalı, 013873 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Azərbaycan Rəssamlıq Akademiyası**

PUBLİK HÜQUQİ ŞƏXSİ

*memarlıq və dizayn fakültəsində vakant dekan vəzifəsini tutmaq üçün*

**MÜSABİQƏ ELAN EDİR**

Müsabiqədə istirak etmək istəyən namizədlər elan dərc olunduqdan sonra 1 ay müddətində aşağıdakı sənədləri təqdim etməlidirlər.

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi.
3. Tərcümeyi-hal.
4. Ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri.
5. Elmi və elmi-metodiki işlərin siyahısı.
6. Fakültə dekanının müvafiq struktur bölmənin inkişafı ilə bağlı platforması.

**QEYD** – müsabiqə elan olunan müəssisədə çalışan şəxslər ərizə ilə birlikdə yalnız 4-cü və 6-cı bəndlərdə göstərilən sənədləri təqdim etməlidirlər.

**Ünvan** – Bakı şəhəri, H.Əliyev prospekti 58.

**“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti**

*“CybeReady” kibertəhlükəsizlik üzrə adaptive təlim platformasına lisenziyanın satın alınması üçün*

AÇIQ TENDER ELAN EDİR

“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin “CybeReady” kibertəhlükəsizlik üzrə adaptiv təlim platformasına lisenziyanın satın alınması üçün açıq tenderində iştirakçılar arzu.qasimli@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 15 avqust 2025-ci il saat 10.00-dır.

Prosedur üzrə əlaqələndirici şəxs – Arzu Qasımlı, mütəxəssis, arzu.qasimli@azal.az, iş – (+99412) 4972600 daxili 6989.

**“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti**

*“Tripwire” lisenziyalarının satın alınması üçün*

AÇIQ TENDER ELAN EDİR

“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin “Tripwire” lisenziyalarının satın alınması üçün açıq tenderində iştirakçılar arzu.qasimli@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 15 avqust 2025-ci il saat 10.00-dır.

Prosedur üzrə əlaqələndirici şəxs – Arzu Qasımlı, mütəxəssis, arzu.qasimli@azal.az, iş – (+99412) 4972600 daxili 6989.

## Ana dilimizə sevgi ilə...



**Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında (MEK) 1 Avqust – Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü münasibətilə ənənəvi sərgi keçirilir.**

Sərgidə Azərbaycan dilinin tarixi inkişaf mərhələlərini, əlifbamızın keçdiyi təkamül yolunu əks etdirən nəşrlər, həmçinin mövzu ilə bağlı sərəncam və fərmanlar, görkəmli elm xadimlərinin fikirləri nümayiş olunur.

Xatırladaq ki, 2001-ci il avqustun 9-da ulu öndər Heydər Əliyevin imzaladığı fərmana əsasən, avqustun 1-i ölkəmizdə Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd olunur.

Mərkəzi Elmi Kitabxanada təşkil edilən sərgidə “Heydər Əliyevin dil siyasəti”, “Azərbaycan dilinin orfoqrafiya lüğəti”, “Azərbaycan dilinin izahlı lüğəti” (4 cilddə), “Azərbaycan dilinin dialektoloji atlası”, “Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası”, “Azərbaycan dilçiliyi müntəxəbatı”, “Dilə sevgi, yurda sevgi”, müxtəlif illərə aid Azərbaycan dili dərslikləri və vəsaitləri, həmçinin digər dəyərli nəşrlər sərgilənir.

*XQ*

## “Tarixin müəmmaları”

**Bakı Dövlət Universiteti (BDU), İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun Avrasiya Regional Mərkəzi, “BDU könüllüləri” təşkilatı və “Əmanət” Şəhid və Qazi Övladlarının Fərdi İnkişafına Dəstək Layihəsinin təşkilatçılığı ilə Qubada yay düşərgəsinin iştirakçıları üçün tarixçi-tədqiqatçı Araz Şəhrli “Tarixin müəmmaları” mövzusunda təlim keçib.**

Təlim zamanı Azərbaycan tarixinin formalaşma mərhələləri, qədimdən günümüzə qədər baş verən mühüm ictimai-siyasi hadisələr müqayisəli yanaşmalarla təhlil edilib. Təlimin əvvəlində milli kimliyin formalaşması, Vətən anlayışı, bu anlayışların tarixi proseslərdəki inkişafı geniş müzakirə olunub.

Təlimdə Azərbaycan ərazisində müxtəlif dövrlərdə mövcud olmuş dövlətlərin – Albaniya, Atropatena, Ağqoyunlu, Qaraqoyunlu, Səfəvilər, Əfşarlar və xanlıqlar dövrünün tarixi, ictimai quruluşları, daxili və xarici siyasətləri haqqında məlumatlar təqdim edilib.

Sessiya zamanı iştirakçılara etnonimlər və toponimlərlə bağlı maraqlı tarixi faktlar da təqdim olunub, terminlərin mənşəyi və onların formalaşma tarixi barədə müzakirələr aparılıb.

*XQ*

### ALLAH RƏHMƏT ELƏSİN

“Xalq qəzeti”nin kollektivi qələm dostları, “Hüquq və qanun” jurnalının baş redaktoru Fəxrəddin Ağamirzəyevə qardaşı

**NAZİM AĞAMİRZƏYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3382
SİFARİŞ 1514
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV
Çapa imzalanmışdır 00:00